**MAŞALLAH XUDUBƏYLİ**

# MƏNİM SAZLI-SÖZLÜ DÜNYAM

**3 kitabda**

**II kitab**

**“Nurlan” nəşriyyatı**

**BAKI – 2010**

**ELMİ REDAKTORU: FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR**

M.İ.HƏKİMOV

**KİTABIN REDAKTORLARI: Əzizə AĞAHÜSEYNQIZI**
**Gülzar XANBABAYEVA**
**Esmira XUDUBƏYLİ**

Maşallah Xudubəyli

Mənim sazli-sözlü dünyam

Bakı, “Elm-Təhsil”, 2010.-184 səh

Şifahi xalq sənətimizin araşdırıcıları, ədəbiyyat müəllimləri və filologiya fakultəsinin tələbələri üçün son dərəcə əvəzsiz vəsait olan 3 kitablıq “Mənim sazlı-sözlü dünyam” kitabının 1-ci cildi işıq üzü görəndən bəri geniş oxucu kütləsi, eyni zamanda elmi-ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb.

Oxucuların xüsusi rəğbətini qazanan “Mənim sazlı-sözlü dünyam”ın 2-ci cildi də eyni amalın davamıdır.

Şübhə etmirik ki, birincidə olduğu kimi bu kitab da mütəxəssislərin və geniş oxucu kütləsinin böyük hörmətini qazanacaq, maraqları üstə yeni maraq gətirəcəkdir…

4702000000
―――――――― грифли няшр
N-098-2010

**©“ELM-TƏHSİL”, 2010**

## MÜƏLLİFDƏN

Əziz oxucular!

Artıq qədirbilən sənətsevərlərimizin ixtiyarına çoxdan verilən "Mənim sazlı-sözlü dünyam"ın I sayından sonra ünvanıma gələn məktublar, adıma vurulan zənglər, söylənən səmimi sözlər, efirdə, ekranda, mətbuat səhifələrində əks olunan çıxışlar, diqqətlər, fikirlər və təhlillər üçün hamınıza dərin təşəkkürümü bildirirəm.

Və bir daha sazımızın, sözümüzün heç zaman sönməyəcək gur işığında qələmə aldığım üç kitablıq fikirlərimin ikincisini də sizin müzakirənizə verirəm.

Əgər bu kitabdan da ürəyinizdə zərrəcə məmnun qalsanız sizə minnətdar olardım.

Yox, əgər nöqsanım varsa, onu bağışlamayıb aşkarca söyləyin.

Çünki əsl sənətin fərdi sahibi yoxdur. O, bir elin, obanın, bütöv bir xalqındır.

Biz gedərgiyik, o isə nəsildən-nəsilə əbədi qalarqıdır. Təkcə bir arzu ilə ki, elmi, əbədi-bədii imkanlarımızın ən dəyərli aynası olan tənqid səmimiyyətdən yox, qərəzçilikdən uzaq olsun.

Hörmətlə: M.Xudubəyli

## MAŞALLAH XUDUBƏYLİ DÜNYASI VƏ YAXUD YAXŞI OĞUL YAXŞI ATA YERİNDƏ...

Onun radio və televiziya verilişlərinə çox qulaq asmışdım. Fikri bədii boyalarla, xalq danışıq dilində çox aydın çalarla sözlərin bir-birinə cilalanmasına, Azərbaycan folkloruna söykənərək sözdən necə məharətlə istifadə etmək qaydalarına həsəd aparırdım. Efirin dili yüyrək olar deyirlər. Efir dalğasından onun qəhrəmanlarının çoxunu tanıyırdım. Bu qəhrəmanları bizlərə tanıdan gözəl qələm sahibi, xeyli müddət Dövlət radiosunda direktor müavini vəzifəsində işləyən, Milli Elmlər Akademiyasının Folklor İnstitutunun elmi işçisi Maşallah Xudubəyli idi...Bir xoş təsadüf nəticəsində onun atası Xəstə Bayraməli haqqında min bir əziyyətlə topladığı "Mən ulu Göyçənin şair oğluyam" adlı çapa hazırlanan əlyazması mənə gəlib çatdı. Redaktoru olduğum bu kitab bir böyük sənətkarın oğlu haqqında mənə çox şeyləri pıçıldadı. El arasında Xəstə Bayraməli kimi tanınan şairin yeganə oğlu Maşallah Xudubəyli dünyasına səyahət etməyi və onun haqqında öz ürək sözlərimi yazmağı özümə borc bildim.

Müharibədən qayıdandan bir neçə il sonra Xəstə Bayraməlinin bir oğlu dünyaya gəlir. Münəccim təbiətli müdriklərin məsləhətilə bu uşağa özündən əvvəl ad da vermişdilər. "Əgər oğlu olsa adını Maşallah qoyun, bəlkə yurdunda qala" – demişdilər.

"Belə də olmuşdu, onda mən doğulmuşdum, adıma elə həmin anda da Maşallah demişdilər. Sən demə o qəzavü-qədərin baisi olan Tanrı artıq pünhanda şairin nakamlıq faciəsinin sonlğunu yazırmış...Beləcə nakam yaşadığı kimi, nakam da getdi bu qoca dünyadan ulu Göyçənin qüdrətli söz ustadı...Ömrünün əlli üçüncü baharını sona yetirməyən şair bir oğul boyuna baxıb arxalanmaq, oğlu Maşallaha isə ata kölgəsində böyümək qismət olmadı."

Bu xatirələri dinləmək, oxumaq çox ağırdır, ancaq atanın yurdunda qoyub getdiyi yeganə oğlu Maşallah Xudubəyli də öz boyuna düşən işlərdən boyun

qaçırmadı. Xəstə Bayraməliyə layiq bir övlad oğul kimi başqalarının bacarmadığı yükü də öz çiyinlərində daşıdı. Yeddi oğul dağı görmüş atanın bu günə qədər ağrılarını yaşadı:

Tənhalığım dağ vüqarlı olsa da,
Taleyimin xəzan vurmuş bağı var.
Aman Allah, yer qalmadı sinəmdə,
Çalın-çarpaz yeddi oğul dağı var.

Deyən Xəstə Bayraməlinin arzularını yaşadı ömür boyu Maşallah Xudubəyli. M.Xudubəyli varlığıyla elinə, obasına, kəndinə, onun insanlarına, hətta bir qırıq daş parçasına o daşın dibindən boy verib qalxan otuna, əncərinə, buludundan süzülən yağışına küləyinə, qarına, başı qarlı dağlarına heç vaxt biganə qalmamış, vaxtlı-vaxtsız həmişə o yurdun saz-söz biliciləri haqqında öz dəyərli yazılarını, tapıntılarını, qeydlərini yazmışdı.

1999-cu ildə Maşallah Xudubəylinin “Ulu” nəşrlər evində “Mənim sazlı-sözlü dünyam” adlı üç kitabda nəzərdə tutulan birinci kitabı işıq üzü gördü. Kitabın ön sözünü filologiya elmləri doktoru, professor Mərhum Mürsəl Həkimov yazmışdı. Çox təəssüf ki, ona bu kitabın ikinci və üçüncü nəşrlərini görmək qismət olmadı. M.Xudubəyli dünyasında nələr yoxdur...Reklamçılıqdan, xausdan uzaq olan bu söz adamı “Mənim sazlı-sözlü dünyam”ın birinci cildindən əsrlər boyu dədəlik simvoluna ucalan el sənətkarlarını yaddan çıxartmamış, Miskin Abdal, Qurbani, Abbas Tufarqanlı, Xan Çoban, Qaracaoğlan, Mücrim Kərim, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgər, Aşıq Nəcəf, Xəstə Bayraməli, Molla Cümə, Zodlu usta Abdulla, Dədə Şəmşir, Əbülfət İsmayıl oğlu, Əli Qurbanov, Bəhmən Vətənoğlu, Hüseyn Saraclı, Aşıq Əmrah, Aşıq Kamandar, şair Nəbi, Ağacan, Aşıq Məsim, Aşıq Sadıq, Aşıq Xındı Məmməd, Quşçu İbrahim, Aşıq Əkbər, Aşıq İmran, Aşıq Ədalət, Aşıq Pənah, Aşıq Şakir, Aşıq Qurbanxan, Aşıq Abbas, Aşıq Məmmədəli, Zəki İslam, şair Kərəm Kürqıraqlı, Əli Səfəroğlu kimi sənətkarlardan yana-yana söhbət açmışdır. M.Xudubəyli təkrarçılığı sevməyən, xalqın sözünü deməyi bacaran əsl sənət adamlarını tapıb ancaq onların sənətin xalqa çatdırmışdır. M.Xudubəyli həm də qeyd edir ki, əsl sənət bir fərdə məxsus deyil, o, bütöv bir

xalqındır – sənindir, mənimdir. Yuxarıda adlarını çəkdiyimiz el aşıqları dastançılar, ustadlar, ədəbi ictimaiyyətə az təqdim olunan sənətkarlardır. Topluda çox maraqlı süjet xətti ilə qurulan oçerklər və elmi-publisistik yazılar oxunaqlıdır, ürəyə yatımlıdır, rəvandır. Müəllif bu ənənəni ikinci kitabda da davam etdirir. O, klassiklərə söykənərək “Dədəlik” kimi ağır bir missiyanı daşıyan dədələrdən: Qurbanidən, Aşıq Abbas Tufarqanlıdan söhbət açır. Müəllif ikinci kitabın başlanğıcında da söz sənətinin sehrinə dalaraq Qurbani və Abbas Tufarqanlı sənətindən, Miskin Abdaldan bəhs edir. “İki ustad iki aşıq” başlığı altında Aşıq Qurbani və Aşıq Abbas Tufarqanlıdan oxuculara məlum olmayan məqamları açıqlayır. Aşıq yaradıcılığı o qədər çoxşaxəlidir ki, onu da M.Xudubəyli kimi heç bir kəs oxucuya bu tərzdə çatdıra bilməzdi. M.Xudubəyli Aşıq Abbas Tufarqanlı haqqında “İki ustad, iki aşıq” adı altında gedən yazıda “Qurbanidən Abbas Tufarqanlıya” adlı böyük yazı ilə kifayətlənməyib A.Tufarqanlının “Abbas və Gülgəz” dastanında “Könlüm”rədifli gəraylısından ayrıca söz açır. Sənəti sevən, onu dəyərləndirən hər bir kəs bu təhlili oxuduqca elə özünü tapır bu misralarda və mən özüm də (Ə.A) uşaq vaxtlarımdan əzbər bildiyim bu gəraylının A.Tufarqanlıya məxsus olduğunu bilmirdim. Ailədən, valideynlərimdən eşitmişdim. Onu da qeyd edim ki, atam Azərbaycanın bütün məhəbbət və qəhrəmanlıq dastanlarını əzbər bilir. Hətta adını yaza bilməyən anam da atamın oxuduğu dastanları şifahi eşidərək dəstəkləyib:

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm.
Axırda zinhar bağlarsan,
Qəmə yoldaş olan könlüm.

Nə qədər doğma, nə qədər kövrək, nə qədər qəmli bir nəğmə...Burada hərə özünü görür, özünü tapır misralarda...

Abbas ağlar arsız-arsız,
Dünya, sənsən etibarsız.
Deyirdin dözərəm yarsız,
Döz, bağrı daş olan könlüm.

A.Tufarqanlı yaradıcılığında bəzi yazıların üzü köçürülərkən verilən nöqsanlar müəllifi çox narahat edir. “Sənətin sehri” ədəbi başlıq altında verilən daha bir maraqlı oçerk XVIII əsrin sony, XIX əsrin əvvəllərində Şamxor rayonunun Dəllər Cırdaxan kəndində doğulan Yəhya bəy Dilqəm haqqındadır. “Yalan gəlməz aşıqların dilinə” adlı ədəbi başlıq altında çap olunan incilər də çox maraqlı və bir az da niskillidir. Müəllif o illəri xatırlamaqla sanki o yaraların qaysağını qoparır, ancaq bu şirin ağrıdır, çəkməliyik. 1972-ci ildə ulu Göyçədə Dədə Ələsgərin heykəlinin açılışı olur. 150 il o gündən öncə dünyanın gözünü güldürən, qüdrətdən şair-aşıq yaranan, “Aşıq olub diyar-diyar gəzənin, əvvəl başda pür kamalı gərəkdi” deyən ustad Ələsgərin büstünün açılışına doğulduğu Ağkilsə kəndinə o gün axışan insanların sayı-hesabı yox idi. Oçerki oxuyarkən gözlərim önündə Qərbi Azərbaycanın axarlı-baxarlı yurd yerləri canlanır. Bərəkətli torpaqları, düzlərində otlayan qoyun-quzusu, pır-pır bulaqları, qartal qanadlı qayaları, dağları canlanır...

Bu ağrı, bu yanğı bir yana dursun, dastançı Əli Qurbanın “Səməd ağa” dastanı isə yaramızı daha da təzələyir. Dastanda Göyçədə çoxlarına məlum olmayan qaranlıq səhifələr göz önündə açılır, müəllif Əli Qurbanın isə məharəti ortaya çıxır. Dastançının aşıq Ələsgər, aşıq Nəcəf haqqında da bizə məlum olmayan məqamları açılır. Göyçənin son dastanı bizi nə qədər kədərləndirirsə, müəllifin (M.X.) Tovuzun Bozalqanlı kəndinin iki böyük sənətkarı Dəmirçi aşıq Hüseyn və şair aşıq Hüseyn Bozalqanlı haqqındakı söhbətləri, onlarla bağlı elin-obanın şirin, baməzə söyləmələri üzümüzə təbəssüm gətirir. Və nəhayət “Yalan gəlməz aşıqların dilinə” adlı ədəbi başlıqda verilən yazılar Kəlbəcərli şair Zal Cabbarlı ruhuna dərin hörmət və məhəbbətlə sonluqlanır.

“Mənim sazlı-sözlü dünyam”ın səhifələrində maraqlı, oxunaqlı, yenə də Bozalqanlı kəndindən aşıq Ələsin ocağında dünyaya göz açan, “Çopur” və “Parovoz” ləqəbini qazanmış aşıq Ələsgər Tağıyevdən söhbət açılır. “Aqil məclisində natiq yanında” adlı bölmədə isə Tovuzun Qaradaş kəndində dünyaya gələn, “Koroğlu aşığı” kimi tanınan el sənətkarı Məhərrəm Hüseynlidən bəhs olunur.

“Komam dağılsa da, odum sönsə də,
Hələlik sönməyib ümid çırağım”.

Deyirlər elsizdi, darıxır dağlar,
Deyirlər bağbansız saralır bağlar,
Deyirlər tək qalıb çox ana dağlar,
İnanan inansın, mən inanmıram.

Misralarından sabaha ümid dolu gözlə baxan şair Mehdixan Kəlbəcərlidən danışılır. M.Xudubəylinin araya-ərsəyə gətirdiyi bu böyük gül çələngi kimlərdən xəbər vermir? Buna görə də mən məhz M.Xudubəyli dünyasının zənginliyində çiçəkdən şirə çəkən bal arısı zəhmətkeşliyini duydum. Yoluna işıq tutan Şəmşad Rza ruhuna rəhmətlə, Zal cabbarlı övladlarına can sağlığıyla qarşımda açılan “Bir gövdənin üç budağı” – Rəsullu nəslini salamlayıram. Xudubəyli dünyası onunçün mənə əzizdir ki, o dünyada mənimçün əziz sənətkarlar, xalqımın, elimin, obamın qiymət verdiyi insanlar var. Bu real həyati obrazlar xalq tərəfindən qəbul olunmuş şəxsiyyətlərdir. Öz sənəti, sözü, sazı ilə ürəklərdə yuva salan tarixin məhəng daşında yazılaraq qala biləcək insanlardır. M.Xudubəyli Göyçə mahalının Daşkənd kəndinin üç sənətkarından söhbət açır bu bölmədə. Dəyərli oxuculara, eləcə də tariximizi yaxşı bilənlərə məlumdur ki, təkcə Daşkənd kəndi əllidən çox şair-aşıq görkəmli elm xadimləri yaşadıb öz qoynunda. Başxanım Şəfiqızından başlayaraq Aslan Məmmədsadıqoğlu, Aşıq Cavad, Həsən Xəyallı, İsoy Qurbanov, Qəmgin Fəzi, aşıq Əli Tairov, aşıq Abasəli, Nohəxan Qəşəm, Mikayıl Zeynalov, aşıq Novruz, aşıq Hacı Göyçəli, Molla Əmirxan, Dərdli Səməd və Alqayıtdan üzü bəri gənc yazarlara – Araz Yaquboğlu da bu qaynaqdan bəhrələnmişdir. Tarixdə “Aşıq Nəcəf” dastanı kimi yadda qalan, beş oğlu ilə birlikdə kürəyinə qaynar samovar bağlanaraq ermənilər tərəfindən vəhşicəsinə öldürülən aşıq Nəcəfin faciəsi ilə ürəyimizə dağ çəkir. Erməni qatillərinin aşıq Nəcəfə qarşı misli bərabəri olmayan vəhşiliyinə dözməyən aşıq üzünü Allaha tutaraq:

Kainatı, yeri-göyü yaradan,
Dərdlərə dərman ver, bir ayə yetir.

Ağbirçək analar fəğan eyləyir,

Bax aha, amana, haraya yetir.

– deyərək üsyan etmişdir.

Ulu Göyçə qoynunda bəslədiyi insanlarından heç nəyi əsirgəməmiş, təbiətin gözəlliyi kimi insanların daxili dünyasını da mənəvi dəyərlərdən kasad qoymamışdır. Göyçənin Daşkənd kəndinin üç tanınmış ziyalısı haqqında söhbət açır müəllif...Həsən Xəyallı, Sərraf Şiruyə və Eldar Həsənli dünyası ilə bizləri baş-başa qoyur.

Başxanım Şəfiqızından başlayaraq bu mənbə qaynar bulaq kimi axıb gedir. Axdıqca da saflaşır, durulur, ürəklərə məlhəm olur. Ata, oğul, qardaş...Bütövlükdə bütün nəsil hamısı şair-yazıçı...Rəsullu ocağında dünyaya kim göz açıbsa onun hülqumundan ancaq loxma yerinə söz keçib. Söz üstndə qərar tutub bu ocaq, bu nəsil...M.Xudubəylinin oxuculara təqdim etdiyi bu üç el sənətkarının biri haqqında daha çox məlumatlı olduğum üçün çox sevindim. Sərraf Şiruyə...Bu imza yəqin ki, çoxlarına tanışdır. Bədahətən şeir yazmağı, onu əzbər deməyi, tez-tez el şənliklərində görünməyi onu çoxlarından fərqləndirir. Onun geniş oxucu kütləsinə təqdim etdiyi “Ağlama, bülbül, ağlama”, “Ölümdən sonrakı ömür”, “Bu ocağın odu sönməz”, “Cəsurlar”, “Mən haqqa sığınmışam”, “Ayrılığın sonu varmış”, “Hər görüş bir xatirədir”, “Seçilmiş əsərləri” on cilddə və başqa əsərlərini oxuduğum üçün bu gün də qürur hissi duydum. Ona görə ki M.Xudubəyli öz yurdunun insanlarına, sənətkarlarına qəlbən bağlıdır. Müəllif bu üç sənət adamlarından söhbət açarkən onun yeni, nisbətən cavan nümayəndəsi sayılan 1958-ci ildə Göyçədə Həsən Xəyallı ocağında dünyaya göz açan, ömrünün 37 ilini yaşayan və 1986-cı ildə qədim və doğma Qarabağda əbədi torpağa qovuşan Aqil İmandan ürək ağrısı ilə danışır. “Yarımçıq ömrün yadigar qafiyələri” bizləri kövrək ağuşuna alaraq Aqil İman dünyasının ölməzliyində buraxır.

M.Xudubəyli yaradıcılığı bitib tükənməyən bir xəzinəyə bənzəyərək bizi kitabın sonluğunda “Ozan Arif dünyasına” qovuşdurur. “Haqq yolunda susmazam mən”, “Ya Qarabağ, ya ölüm” adlı oçerkləri türk dünyasında bircə şeiri ilə tanınan Ozan Arifi oxuculara təqdim etməklə onun vətənpərvərliyini ortaya qoyur.

Yaradıcılığında qoşmaya, gəraylıya çox yer verən bu qüdrətli sənətkara mövzu qıtlığı yoxdur – deyir müəllif. Bütün şərq aləmində tanınan Ozan Arif həm də siyasi xadimdir. “Onun həyatı həmişə mübarizələrdə keçmiş və keçməkdədir” – deyən müəllif həm də onun dəliqanlı, üsyankar olmasından, onun 1980-ci ildə Almaniyaya sürgün edilməsi və 1991-ci ildə vətənə qayıtmasından bəhs edir. Dünyanın belə qarışıq vaxtında Türk dünyasının qayğı yükünü qəlbində daşıyan Ozan Arif Qarabağ dərdində də hamıdan seçildi. O, Qarabağ haqqında 17 bəndlik şeir yazaraq Qarabağın haqq-ədalət səlnaməsini yaratdı.

Dünya duysun bu səsi,
Bu səs haqqın səsidir.
Peyğəmbərin öyüdü,
Nəcib irqin səsidir.
Bu səs Azərbaycanın
Bu səs Türkün səsidir
Erməni taak etdi
Canımıza tak artıq
“Ya Qarabağ, ya ölüm”,
Başqa yol yox artıq.

Beləliklə, “Ya qarabağ, ya ölüm” deyərək sonluğa gəlib çatdıq, əziz oxucular. Ancaq “Mənim sazlı-sözlü dünyam”ın hər sətrini oxuduqca M.Xudubəyli dünyasından onun yurdsevər, torpaqsevər qəlbinin dərinliyindən həmişə vətən niskilini, vətən həsrətini sezdim...Eyni açılmadı, üzü gülmədi dağları pərişan görəndə Maşallah Xudubəylinin...Özünü, doğmalarını, əzizlərini belə qərib yurd yerlərində görəndə ürəyi göynədi. Üzünü belə görmədiyi, iyini, ətrini şeirlərindən aldığı atası Xəstə Bayraməlinin nigaran ruhu qürbət eldə qaldığından ömrünə atasızlıq niskili yazılaraq həm oğul, həm ata oldu Maşallah Xudubəyli. Çox ağrılar var ki, dilə gəlməz, sözə sığmaz deyiblər. Beləcə ağrılı-acılı bir ömür payında taleyin ona bəxş etdiyi alın yazısında duyğulu, heç kimin taleyinə bənzəməyən əsl ziyalı ömrü yaşadı Maşallah Xudubəyli. Mənə hədiyyə verdiyi “Mənim sazlı-sözlü dünyam”ın birinci hissəsində “Onun kimliyini eldən soruşdum” adlı yazısını

oxuyandan sonra 1898-ci ildə Göyçə mahalının Nərimanlı kəndində dünyaya gələn Xəstə Bayraməlinin 53 il yaşadığı ömür payında bizlərə qoyub getdiyi inciləri yeganə oğlu M.Xudbəyli tərəfindən araya-ərsəyə gətirilən “Mən ulu Göyçənin şair oğluyam”adlı şeirlər kitabında görəndə kövrəldim. Göz yaşlarım məni boğdu. Doğurdan da sevindim ki, atanın – (X.B.) yerində oğul əvəzi, ata əvəzi qalan Maşallah Xudubəyli çoxlarının edə bilmədiklərini edib. Elə bu kişik yazını da el sənətkarı Xəstə Bayraməlinin ruhuna özünün yazdığı şeirlə bağlamaq istəyirəm.

Min yaşasın qədir bilən övladı,
Ana vüqarıdı, ata imdadı,
Həyatı, varlığı, eşqi, büsatı,
Yaxşı oğul, yaxşı ata yerində.

Şirin-şəkər bir nübara bənzəyir,
Bitib tükənməyən vara bənzəyir,
Mərdin ocağında qora bənzəyir,
Yaxşı oğul, yaxşı ata yerində.

...Bax beləcə sazın-sözün ləngərində deyib danışa-danışa Miskin Abdaldan başlayaraq Ozan Arifə qədər gəldik istəkli oxucular. Ağladıq da, güldük də, qəhərləndik də, xəyala da daldıq, arabir köksümüzü də ötürdük, amma ki,əlimiz çatmadı, ünümüz yetmədi o ötən çağlara, ötən günlərə...Göyçə deyə-deyə hər qarışını gəzdik o yerlərin. Dağların çəninə batdıq, bulaqların buz suyunda yuyunduq...Könlümüzü, gözümüzü riqqətə gətirən “Kərəmi”də, “Koroğlu”da, “Köhnə şərili”də, “Göyçə gülü”ndə, “Cəlili”də, “Dübeyti”də, “Qaytarma”da, “El havası”nda, “Orta Sarıtel”də, “Baş Sarıtel”də, “Qaraçı”da, “Aran gözəlləməsi”ndə saflaşdıq, duruldduq...Ustadların ruhuna hörmətlə sağ qalanlara da bir qələm səfəri etdik. Bəli, bu dünya çox qəribə dünyadı...Gəlimli, gedimlidi, nisgillidi, ağrılıdı, qəddardı...Verdiyi canı geriyə tez alandı. Nə yaxşı ki söz adlı varlığı əlimizdən heç vaxt ala bilmir bu dünya dediyimiz. Söz – ulu söz...Həmişə nəsildən-nəslə keçən,

yaddaşlarda, qalın kitabələrdə, daş yaddaşlarında qalan yazı nümunələri – söz...O, heç vaxt itmir, həm şifahi, həm də yazılı ədəbiyyat. Əbədi, əzəli söz xəzinəsi...Tanrı bizləri heç vaxt bu xəzinədən uzaq salmasın. Sözlə qapınızı döyək, sözlə qonağınız olaq, könlünüzü sözlə alaq istəklilər...Ulularımızın ruhu şad olsun, sizlərə isə can sağlığı arzusu ilə gələn görüşlərədək deyirəm...

***Əzizə Ağahüseynqızı***

# I

# SƏNƏTİN SEHRİ

**MİSKİN ABDAL**

Dərin mənalı qoşmalar, gəraylılar, təcnislər, müxəmməs və divanilər müəllifi Miskin Abdalın zəngin yardıcılığı azəri-ozan sənətinin ilkin örnəklərindən ən qiymətli zərrələr kimi əvəzsizdir. Onları diqqətlə əqlin süzgəcindən keçirdikcə insanı heyrət bürüyür. Sən bir 5 yüz il ömrü olan bu incilərin saflığına, təmizliyinə bax!

Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,
Ha silkinsəm, dəryan dərin, narın üzə bilmərəm.
Qırxlar piri özü süzüb ayağına atəşi,
Alışıram Səməndərtək, narın üzə bilmərəm.

Dərviş gərək bu meydanda qurban olsun baş-başa,
Mürşüdündən üzü dönməz, dünya gəlsə baş-başa,
Ayıq olan uzaq olsun, yetsin gərək baş-başa,
Fələk nə vaxt sökər üzüm, narın üzə bilmərəm.

Miskin Abdal, eşq əhlisən, ömrün vermə badə hey,
Özün haqsan, haqq əlindən götür nuş et badə hey.
Məhşər günü tab etməzsən. salxum-salxum badə hey,
Nə tutmusan özün dərviş, narın üzə bilmərəm.

Bəli, Miskin Abdal sözün əsil mənasında ömrünü əfsanə yerə bada verənlərdən olmayıb. Adı yaşadığı tarixin səhifələrinə qızıl hərflərlə yazılan bu böyük şəxsiyyət vaxtilə türk dünyasının qüdrətli oğlu Şah İsmayıl Xətainin diqqətini təsadüfən çəkməmişdir.

Son dərəcə dərin kamala, instiktiv duyğuya, münəccimlik zəkasına malik, qüdrətdən haqq vergili bir adam imiş. Və elə ona görə də özü çox səmimi demişdir ki, *“özün haqsan haqq əlindən götür nuş et badə hey”*.

Və onu da dürüst deyib ki, böyük sənətkar, *“Mən Miskinəm, haqdan gəldi “Sin” ayə”.*

Əhdinən, səmədən həyya layəmud,
Tut dəstimdən, yetir dür üstə məni.
Görsən nadürüstəm, vermə dürüstə,
Dürüstəmsə yetir dürüstə məni.

Səmimizə yetişməyir haqq səda,
Bir gün olar bükürərlər ağ səda,
Günbəz əl xizrədə, məscid-əğsada,
Onlar da tanıyır dür usta məni.

Əbcət hesabilə dərs aldım ağdan,
Baxmadım qaraya, dərs aldım ağdan,
Heyvatək soyuldum, dərs saldım ağdan,
Yetirdim dərsimi-dürüst aməni.

Mən Miskinə haqdan gəldi “sin” ayə,
Xətm olundu, İrəsula sinayə,
Gör necə çulğaşıb sinə-sinayə,
Tifiltək görmədim dürüst aməni.

Hələ 1501-ci ildə Göyçəyə qədəm qoyarkən Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətayi bu yerin təbiət seyrindən doyunca feyziyab olmuş, iqlimini, sonsuz seyrangahlarını ürəkdən bəyənmişdir. Göyçə gölünün sahilində şəlalə saçaqlı atının cilovunu çəkib əylənmiş, mavi suların qırçın pərdələrinə tamaşa edə-edə xəbər almışdı:

– Bu nə göldü belə?

– Bu Göyçə gölüdü, şahım, özünün qızıl balığı ilə aləmdə tanınan Göyçə gölü...

– Gözəldi, xoş tamaşalı, yerindən bəzəklidi, - demişdi onda şah Xətai bizim əzəlindən doğmaca sularımız olan Göyçə gölünə.

Və beləcə də heyran-heyran yoluna davam etmiş, cığırlardan adlayıb yollardan keçmiş, hər kənd-kəsəklə, hər obayla, oymaqla tanış ola-ola gəlib dağlar döşündəki Sarıyaqub kəndinə, Miskin Abdal ocağına yetişmişdir.

Bax, o tarixi görüşdən, atalarından gələn köklü tanışlıqdan doğan dostluğun təməli beləcə qoyulmuş, belə yazılmışdı Cahanın can kitabına qızıl hərflərlə.

Tanrı müqəddəs bir ocağı yaradıb ellərə bəxş etmək meylinə düşəndə, onun qoynunda müqəddəs varlıq yaradır əzəlcə…

Miskin Abdal da Allahın xoş saatlarının birində, 1430-cu ildə belə gəlmişdi dünyaya, doğma Zərgərli, sonralar Sarıyaqub adlanan kəndində…

Aradan aylar-illər keçəndən sonra da bu tarixi görüş qismət olmuşdu ilahinin mərhəmətiynən hər iki şəxsiyyətə…

Bütün əlamətləriylə yanaşı, həm də insanlıq sərrafı olan Şah İsmayıl Xətai ilk andaca Miskin Abdalın möcüzələrinə inanmış, onun varlığına heyran kəsilmişdi.

Həmişə ətrafına inandığı, seçib bəyəndiyi çox nadir adamları toplayan müdrik sərkərdə Miskin Abdal kimi pirlə tanışlığından məmnun olmuş, onu öz yanına, saraya dəvət etmişdir.

**BURADA (BÜTÖV SƏHİFƏDƏ) ŞAH İSMAYIL XƏTAİNİN GÖYÇƏ GÖRÜŞÜNDƏ MİSKİN ABDALA VERDİYİ ETİBARNAMƏSI GETSİN!!!!**

Ulu Göyçənin klassik söz ustadı öz növbəsində bu təklifdən çox razı qaldığını bildirərək, onu məmnuniyyətlə qəbul etmişdir.

Sonralar isə mövcud tarixin dünya durduqca oxunacaq səhifələrinə çevrilən Miskin Abdalın Səfəvilər dövlətindəki diplomatik xidmətləri bir daha böyük Xətainin zənnində yanılmadığını isbat etmişdir.

Şah İsmayıl ulu Göyçənin bu möcüzə sahibini daha dərindən tanıyıb ona etibar edəndən sonra el sənətkarının doğma kəndi Sarıyaqubu ona bağışlamış, eyni

zamanda onun şəxsiyyətinin qiyməti müqabilində möhürlü, dərkənarlı bir sənəd vermişdir.

Həmin şəhadətnamədə yazılmışdı:

***- Ey mömin insanlar, Miskin Abdal mötəbər şəxsdir. Ona inanın, nə mətləbiniz varsa diləyin!…”***

İlkin qidasını doğulub boya-başa çatdığı ulu Göyçənin sağlam havasından, məlhəm çiçəklərindən alan Miskin Abdal odlardan, alovlardan, qabaq-qarşı müharibələrdən keçə-keçə 105 il ömür sürmüşdür.

Hələ sağılığında 1524-cü ildə Şah İsmayıl Xətainin vəfatından dərin sarsıntılar keçirən el şairi:

***Şıx oğlu İsmayıl, o cənnətməkan,***

***Düşməz ələ bir yadigardı getdi***.

- deyə öz ürək ağrılarını izhar etmişdir.

Bax, beləcə də zəmanə, ömürdən zamanı almış, dünyanın ömür sarayından iki qızıl kərpic də düşübmüş torpaqlara.

Amma nə 13-cə yaşında at sürüb qılınc oynadan, mərdlik və comərdlik dünyasının yenilməz sərkərdəsi, binadan şahlıq üçün doğulmuş, qəhrəmanlar qəhrəmanı Şah İsmayıl Xətaini, nə də pirlik vergisiylə möcüzələr yaradan saz-söz ustadı Miskin Abdalı bu cahan unudan deyil. Hələ bizdən sonra neçə axşamlar keçib səhərlər açılacaq, neçə aylar ötüb illər dolanacaq, neçə nəsillər bir-birini əvəz edəcək, amma nəsillər dalınca gələn nəsillər həmişə özünə örnək sayacaq öz ər oğullarını.

*Unutsaq unudarlar*, - deyib babalarımız.

Bizim buna nə ixtiyarımız var, nə də haqqımız.

Çünki unutqanlıq ona mübtəla olan millətin ən böyük bəlası, ömrün sabahkı ümidsizliyidi.

Öz qiymətli şəxsiyyətlərinin qədrini yerində bilməyib onu nəzərdən salanları ilahi də öz nəzərindən salar.

Bax, bu narahatçılığa sağ ikən belə imdad diləyirdi Miskin Abdal.

Dostum, mehribanım, yetiş imdada,

Səndən qeyri yox imdadım, ağlaram,
Ah çəkib dağlara salaram səda,
Qohum gəlməz, gülər yadım, ağlaram.
Qəsdində zülfüqar bülbülə süvar,
Məhzəri əcaib, bir adı Kərrar,
Müşkülə düşmüşəm, könlüm intizar,
Sən gəlməsən, ey ustadım, ağlaram.

Salma nəzərindən, salma, ilahim,
Dar gündə köməyim, püşkü pənahım,
Ərşə bülənd olub fəryadü ahım,
Abdaldı, Miskindi adım, ağlaram.

Əsl sənət fədailərinin yazıb qoyduqları təkcə onların sağlıqları üçün yox, həm də özlərindən sonrakı nəsillərə nəsihətnamələr, tövsiyələr kimi qiymətlidir.

Miskin Abdalın 500 il əvvəlki səsini eşidəndə ki, *"Türk əcəmə, əcəm türkə zülm eyləsə günahdı"* adamı maraq bürüyür.

Əgər dünənimiz bu günümüzə gərək olmasa, bu günümüz sabahımıza nə cavab verər onda?

Çərxi-gərdiş yaratmadı dövlətdən, vardan məni,
Min bir dərdi əzab verib, ayırdı yardan məni,
Sək rəqibin fitnə feli, çəkdi məni çarmıxa,
Yazıq Həzrət İsa kimi asdı divardan məni.

Türk Əcəmə, əcəm türkə zülm eyləsə günahdı,
Hər ikisi bir kökdəndi, yaradan da Allahdı,
Öz elinə düşmən kəsmək, axır günü günahdı,
Qadir Mövlam, uzaq eylə, bayquşdan-sardan məni.

Qırxlar piri özü verib dərsimi ümman mənim,
Çətin girə ürəyimə ləini-şeytan mənim,

Seyid Miskin Abdal mənəm, söz mənim, meydan mənim.

Qoru, ya rəbb, özün qoru, xain dostlardan məni.

“Ləini-şeytan heç vaxt ürəyinə girə bilmədi o pir sınaqlı söz ustadının. Nə yazdısa təkcə özüyçün yazmadı, nə dedisə təkcə özüyçün demədi Miskin Abdal. Lakin zəmindən bəhrələnən bəşəri ideyalar tərənnümçüsü kimi təkcə ulu Göyçənin yox, bütöv Azərbaycanın, bütün müsəlman dünyasının xeyirxah carçılarından biri oldu.

Belə yaşadı, belə yaratdı, belə də qaldı ürəklərdə. Beli bükülüb kaman oluncaya qədər haqqı sevdi, haqqın yolunda can qoydu...

Yazıq könül, nə sızlarsan, bülbülə tay olmusan,
Haçan yardan yarımısan, sevilib bay olmusan?
Sən dərvişsən haqq yolunda haqqı istə, haqqı sev,
Nə olsun ki, bel bükülüb, kamana tay olmusan.

Yar olsam da incimə gəl, Ulu tanrı bağışlar,
Dərgahında apaydındı bu cizgilər, naxışlar,
Qoy didəndən sel-sel axsın yenə leysan yağışlar,
Axır məhşər görəsən ki, köpüklü çay olmusan.

Çay olmağın paklığındı, durma yuyun paka çıx,
Doğru-düzə yol açıqdı, nə qar-boran, nə palçıq,
Miskin Abdal, dolansan da ayaqyalın-baş açıq,
Zər qədrini zərgər bilər, zaylara say olmusan.

Həmişə öz saflığı, paklığı ilə öyünməyi özünü haqlı sayan ustad nədənsə nigaran imiş. Ona görə dörd əsr bundan əvvəl deyibmiş ki, “Zər qədrini zərgər bilər” vay onda ki, qədirbilməz zaylar əlinə keçsin zərgərin zəri.

Yuxarıda söylədiyim tarixi həqiqətlər artıq çoxdan çoxlarına məlumdur. Və birdən-birə eşitdim ki, bu məlum həqiqətlərə də kölgə salmaq istəyən, onu

pərdələməyə çalışanlar varmış. Sən demə, havadan danışa-danışa Miskin Abdalın doğulduğu müqəddəs ocağın səmtini dəyişməyə can atanlar tapılırmış.

Sən demə, sensasiya xatirinə Miskin Abdalı doğma Sarıyaqub kəndindəki halalca ocağına hardansa “gəlmə” kimi qələmə verməyi özünə yenilik hesab edənlər tapılırmış.

Görəsən, hansı müəmmaya, hansı mətləbə, hansı fikrə əsaslanıbmış bu yenilik həvaskarları?

*“Fakt hər şey deməkdir”* təsdiqini müdriklərimiz təsadüfən söyləməyiblər.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən zəngin qolu olan saz-söz sənətimizin ilkin örnəkləri hələ Qurbanidən əvvəl Göyçədən, özü də məhz Miskin Abdal dünyasından başlanması barədə fikirdə zərrəcə təkzib ola bilməz. Söhbət əsil tarixi həqiqətdən gedirsə, lap uşaq vaxtlarından yaradıcılığa başlayan bu el sənətkarının sənət incilərində Göyçə ruhunun, Göyçə ab-havasının, Göyçə təşbehlərinin tərənnümü yaşayır. Bu mənada nəzərə almaq lazımdır ki, hər qolun öz ruhu, özünəməxsus nəfəsi var. Əgər belədirsə əsl sənət biliciləri təxəllüsünə yetməmiş sözlərin təhər-töhüründən hansı yerə, hansı adətə, hansı mahala mənsub olduğunu ayırd edə bilərlər. Ömrü-günü sənət yollarımızda keçənlər bu stilləri seçməkdə çətinlik çəkməzlər. Cəmi Azərbaycan saz şeirinin ümumi bir yönümü olduğu kimi, onun ayrı-ayrı qollarının da özünəməxsus ləhcəsindən gələn deyim tərzi var.

Bu nöqteyi-nəzərdən xalqımızın görkəmli klassiki, el-obamızın dünya durduqca yaşayacaq sənətkarı Miskin Abdalın yaradıcılığı sırf Göyçə mühitinin kökündən yaranmış, onun təbiətindən, abu-havasından pardaqlanmışdır.

Namərd ilə yoldaş olma,
Uzun ağrı çəkər başın,
Halal ilə ərsəyə çat,
Daş qalalar sökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana,
Arxalanma bəyə, xana,

Qoy sağ olsun nökər başın.

Haqdan istə bəxti-iqbal,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər başın.

Klassik yazarlarımızın özünə təxəllüs götürmələri bu günkü axından, bayağılıqdan çox-çox uzaq olduğu vaxtlarda hər hansı bir sənətkarın keçdiyi həyat yolu, tale qisməti, mühiti, şəraiti onun ideya baxımı ilə bağlı olmuşdur. “Xəstə” təxəllüslü cismən sağlam sənətkarlarımız zamanın, mühitin, dövrün “xəstə”ləri olduğu kimi, Miskin Abdalın da Miskinliyi onun həyat şikayətləri, yaşadığı mühitin giley-güzarı ilə bağlı idi…

Lakin zaman keçdikcə, Miskin Abdal nəsli artıb şaxələndikcə onların yetirmələri nəinki Azərbaycanın, hətta Şərqin müxtəlif yerlərinə səpələnmiş, orada məskən salmışlar. Beləliklə, bu nəslin qol-budağı uzanıb böyümüş və rəhmətlik ziyalı Tofiq Hüseynov kimi neçə-neçə şəcərələrinə qədər gəlib çıxmışdır ki, indi də hayatın qanunauyğunluğu ilə davam etməkdədir…

Borçalı mahalında, Kəlbəcər elində, Gədəbəydə, bu günkü Bakıda, Təbrizdə, Dərbənddə, Urmiyada, Türkiyənin müxtəlif obalarında bu təxəllüslə çağrılıb tanınan neçə-neçə ailələr mövcuddur ki, onların hamısının ilkin ata-baba yuvaları məhz Miskin Abdalın keçmiş Zərgərli, sonrakı Sarıyaqubdakı doğma, müqəddəs ocağı olmuşdur.

O ocaq ki, bu qüdrətli el sənətkarı orada doğulmuş, orada boya-başa çatmışdır.

Burada bir məsələni də nəzərə almaq lazımdır.

**BURADA (BÜTÖV VƏRƏQDƏ) 1820-Cİ İLDƏ ÇAXIRLI KƏNDİNİN KƏNDXUDASI TƏRƏFİNDƏN ŞAH İSMAYIL XƏTAİNİN MİSKİN ABDALA SƏNƏDİN TƏSDİQİ GETSİN!!!!**

Hər hansı bir təxəllüsü müəyyən dövrlərdə zaman-zaman ayrı-ayrı adamların götürdüyü hallar olub. Məsələn, istər yazılı, istər də şifahi ədəbiyyat tariximizdə bir-birindən uzun zaman fərqi ilə ayrılan “Xəstə” təxəllüslü müxtəlif sənətkarlarımız mövcud olmuşdur.

“Miskin” təxəllüsünə gəlirkən, bu günün özündə də romantik xəyallı gənc yazarlarımıza rast gəlirik ki, özlərinə bu ləqəbi götürməyə meyl göstərənləri var.

O ki qaldı Miskin Abdalla bağlı müxtəlif yerlərdə rast gəlinən “Miskinlilər” nəslinin nümayəndələrinə, bunu bəhanə gətirib ulu Göyçənin saz-söz ustadının doğma ocağından qeyri-məkanda dünyaya gəlməsini iddia etmək əsassızdır və bu ən azı günah sayılır.

Şah İsmayıl Xətai Göyçə yürüşündə Miskin Abdalın möcüzələrini məhz onun dünyaya göz açdığı ocağında sınaqdan keçirmiş və ona heyran kəsilmişdir. O zamankı Zərgərli, sonralar Sarıyaqub adlanan kəndin Şah İsmayıl tərəfindən ona bağışlamağında və ixtiyarının ona verilməsində də bir doğmalıq və təbiilik mövcuddur.

Yox əgər Miskin Abdal, bəzi “ixtiraçı” “kəşfiyyatçılar”ın düzəltmələrinə görə başqa yerdən gəlmə olsaydı, son dərəcə ağıllı, müdrik və tədbirli Şah İsmayıl bir qərib kimi həmi kəndi ona bağışlamazdı.

Məsələnin başqa bir tərəfinə diqqət yetirək.

O tarixi görüş yuxarıda qeyd etdiyim kimi, zamanın can dəftərinə qızıl hərflərlə həkk olunub. Lakin həmin əhvalatın bütün təfsilatında Zərgərli kəndinə onun sonradan gəlməsi barədə zərrəcə işarə yoxdur və ola da bilməz. Əks təqdirdə bu bariz tarixi faktı təhrif etmək, ona özgə don geyindirmək kimi qiymətləndirilməlidir. Axı, bizim görüb söhbət etdiyimiz 100 yaşlı atalarımız və onların da gördükləri ulu babalarımız bütün bunları görə-görə gəlib, zaman-zaman canlı şahidlər olublar!

Yenə də onun qədim ünvanını doğulduğu məkandan sapdırmaq istəyənlərə ulu sənətkarın öz deyimləri ən dəyərli tövsiyə olardı.

Xoş bəyanlıq virdim oldu, böhtana yol vermədim,
Şirin süxən əndəlibəm, hədyana yol vermədim,

Nifrin edib, lənət dedim xainə, iblislərə,
Qəlbimi ayna saxladım, şeytana yol vermədim.
Bir bəşəri incitmədim, kəndimi şah saymadım,
Dostun sirrini söyləyib, dildən-dilə yaymadım,
Ömür qısa, dünya əzəl, az yaşadım, doymadım,
Dür mətaha meydan açdım, tək cana yol vermədim.

Aşıq olub dərs alanlar söz desin sözüm kimi,
Miskin Abdal, məğrur istə hamını özün kimi,
Arifi, mətləb qananı, bilirəm gözüm kimi,
Sinəm üstən mərd yeridi, nadana yol vermədim.

Bəli, heç vaxt nadana, böhtana yol verməyən, onun müqabilində sinəsi üstündən mərdin yeriməsinə canı-dildən razı olan Miskin Abdalın həyat və yaradıcılığına əllaməliklə yanaşmağa heç kim ixtiyarlı deyildir.

O yetməzmi ki, Azərbaycanımızın bir parçası olan ulu Göyçənin doğma torpaqları qürbətdə qalıb düşmən tapdağında inildədiyi bir vaxtda, Aşıq Alıya, Ağ Aşığa və onlarla birlikdə bu mahalın neçə saz-söz ustadlarına kimlərinsə tərəfindən böhtanlar atılıb?!

Məgər bu günkü gündə Göyçənin dərdi üstə dərd artırmaqdansa, onun həqiqi tarixi köklərini qələmə alıb gələcək nəsillərimizə çatdırmağa can atmağımız daha gərəkli olmazmı?!

Və məgər Miskin Abdal kimi dünyəvi bir şəxsiyyət və sənətkar bütün Azərbaycanın yetirməsi, onun övladı kimi hamımızın mənəvi babalarımızdan biri deyilmi?!

Bəs onda birdən-birə lap kobud ifadə etsək, bu hoqqanı çıxarmaq kimin ağlına gəlib görəsən?!

Miskin Abdal kimi sınanmış tarixi şəxsiyyətlərimiz həmişə *“Türk əcəmə, əcəm Türkə zülm eyləsə günahdı”* kimi müdrik kəlamlar söyləyə-söyləyə el dərdi çəkib bir Vətən, bir torpaq deyə-deyə canlarını fəda ediblər.

Gəlin biz də onlardan öyrənək bu canıyananlığı. Bəlkə onda qürbətdə qalıb düşmən əsirliyində inləyən torpaqlarımız üçün biz də canımızdan keçməyi bacara bilək… Ustadlara min rəhmət.

## İKİ USTAD, İKİ AŞIQ

## I

### Qurbanidən Abbas Tufarqanlıya

Söhbətimizin bu sayı bir daha Aşıq Qurbani və Aşıq Abbas Tufarqanlı incilərinin araşdırmalarıynan bağlıdı, əziz oxucular.

Vaxtımızdan 5 yüz il qabaq Cənub ellərimizin Dirili kəndində dünyaya göz açan Aşıq Qurbani kamil saz-söz sənətimizin ilkin ustadlarındandır. Onun sənət xəzinəmizdə qoyub getdiyi zəngin irsi öz ilkin gözəlliyini nəinki itirməmiş, əksinə zaman keçdikcə məna və məzmun əhəmiyyəti birə-beş artmış, nəsilbənəsil qədirbilən ellərimizin könül bəzəyinə dönmüşdür.

Bu qoşquların bir qısmi aşığın adıyla bağlı olan “Qurbani” dastanından, qalan sayımları sinələrdən kağızlara köçmüş, müxtəlif vaxtlarda sənətsevərlərimizin canıyananlığıynan kitablarda dərc edilmişdir. Bu kamil ustadın qoşmaları, gəraylıları, təcnisləri, müxəmməsləri və divaniləri çoxdur və onların hər biri ayrılıqda bitkin bir sənət əsərinin nümunəsidir.

Aşıq Qurbaninin yaradıcılıq nümunələri bir də ona görə xüsusi əhəmiyyətə və əvəzsiz qiymətə malikdir ki, hələ 5 yüz il bundan əvvəl Azəri dilinin büllur çeşmələrimiz qədər təmizliyini və saflığını bəşəri nümunələr səviyyəsində yaşada bilmişdir. Bu mənada həmişə əlimizdə tutalğac olan və illərlə zəngin sənət dünyamızı gözü götürməyənlərə, dilimizin eyniliyinə böhtan yağdıranlara cavab kimi baş ucalığımız olmuşdur.

Məsum baxışlı, incik duruşlu, boynu bükük dağlar gözəli Bənövşənin vəsfini izhar eləyən Qurbani deyimləri bu 5 yüz il ərzində ildən-ilə özünün təravətini artırır, duyan ürəklərə dərin mənalar aşılayır. Əgər Qurbani irsindən təkcə bu əvəzsiz qoşma əlimizdə qalmış olsaydı belə, onun sənət dünyamızdakı böyüklüyünə kifayət edərdi.

Başına döndüyüm, ay qəşəng Pəri,

Adətdi dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənövşəni.
Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşıq ağlın itirmiş,
Mələklərmi dərmiş, göydən gətirmiş,
Heyif ki, dərirlər az bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa,
O gözəl hüsnündən bağa nur yağa,
Dəstə-dəstə dərib taxar buxağa,
Bənövşə qız iylər, qız bənövşəni.

Səhər olcaq şeyda bülbül oxuşdu,
Hökm oxundu, Seyraqublar yerişdi,
Sərt qış gəldi, gülün vaxtı sovuşdu,
Daha iyləmirik biz bənövşəni.

Qurbani der, könlüm bundan sayrıdı,
Nə etmişik yarım məndən ayrıdı,
Ayrılıqmı çəkib boynu əyridi,
Heç yerdə görmədim düz bənövşəni.

Bax, belə oxşayıb sayımlı günlərini zaman-zaman Qurbani deyimləri. Onun özünəməxsus yolu, ərkanı, xüsusi dəst-xətti var. Hardansa yad bir misranın aşığın qoşqularına ayaq açması dərhal nəzərə çarpır.

Fəqət nə zamansa bu qüdrətli söz sərraflarının şeirləri kiminsə dilində təhrif edilərkən, eləcə də yazıya alındığı vaxtlar olub, sonra bu amil nəzərdən yayınıb.

Əlbəttə, ulu keçmişimizin, Qurbani kimi ölməz sənət korifeylərimizin irsini cəm eliyib yazıya almaq hər birimizin mənəvi borcudur. Təkcə bir şərtlə ki, belə hallarda biganəliyə yol verilməsin.

Heç gəlmirsən bulaq üstə,
Gündə üç yol gəlirəm mən,
Üzümə soyuq baxırsan,
Ürəyini bilirəm mən.

Kaş ki gözəl olmayaydın,
Saralıban solmayaydın,
Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Gül dibini xara qoydun,
Bülbülü ah-zara qoydun,
Qurbanini biçarə qoydun (?)
Gedirsən get, gəlirəm mən.

Bəzi yazılı mənbələrdə, o cümlədən vaxdilə Akademiyanın Elmi nəşriyyatı tərəfindən buraxılan “Azərbaycan aşıqları və el şairləri”[1] kitabının birinci cildinin 23-cü səhifəsində bu gəraylı Qurbaninin qoşquları cərgəsində belə gedib.

Aşığın ruhuna yad olan bu bəndlərin olmazın təhrifə məruz qaldığını nəzərə alıb onları ayrılıqda təhlil etməyə məcburuq.

Əvvəla, birinci və üçüncü bəndlər kiminsə tərəfindən aşığın adına düzülüb qoşulduğu onun məna dayazlığından və qafiyə təhriflərindən də aydın sezilir. Birinci bəndin “Gəlirəm mən” rədif qafiyəsi 3-cü bənddə eyni məna və zahiri səsləşməynən təkrar olunub. 1-cidə “Gündə üç yol gəlirəm mən”, 3-cüdə “Gedirsən get, gəlirəm mən”. Beləliklə, üç bəndlik qoşmada rədif qafiyənin təkrarına yol verilmiş, istər şeirin formasına, istər də məzmununa xələl gətirilmişdir.

Bunlar bir yana qalsın, gəraylının üçüncü bəndini oxuyanda, təkcə təəssüflənmirik, həm də təəccüblənirik. Ustad Ələsgərin az qala böyükdən kiçiyə hamımızın dilinin əzbərinə dönən “Gözəl, sənə məlum olsun” misrasıynan

[1] Azərbaycan aşıqları və el şairləri, I cild, “Elm” nəşriyyatı, Bakı, 1983.

başlayan eyni rədifli gəraylısının bəndi olduğu kimi, hətta bircə kəlməsi dəyişilmədən bura daxil edilib Qurbaninin adına çıxarılmışdır. Beləliklə, hər iki qüdrətli sənətkarın yaradıcılığına hörmətsizlik edilmişdir.

Aşıq Ələsgərin məşhur gəraylısına nəzər yetirək.

Gözəl, sənə məlum olsun,
Səndən ötrü yanıram mən.
Xumar gözlər süzüləndə,
Canımnan oysanıram mən.

Kaş ki, gözəl olmayaydın,
Saralıban solmayaydın,
Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Mənim adım Ələsgərdi,
Dərdim dillərdə əzbərdi,
Xalların dürrü-gövhərdi,
Sərrafıyam, tanıram mən.

Aşıq Ələsgərin bu gəraylısını dillər əzbəri eləyən bir də odur ki, hörmətli bəstəkarımız Hökümə Nəcəfova ona gözəl musiqi bəstələmişdir. Həmin musiqiyə nəqarət seçilən də məhz gəraylının orta bəndidir ki, onu tələffüz edərkən dərhal bu eşidimli nəğmənin melodiyaları fikrimizi çulğayır.

Kaş ki, gözəl olmayaydın,
Saralıban solmayaydın,
Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Aşıq Qurbaninin yadigar inciləri arasında “Deyiləm” rədifli maraqlı bir qoşma var. Uzun illərdən bəridir ki, ulu ustadın bir çox deyimləri kimi o da

aşıqlarımız və bəzən də xanəndələrimiz tərəfindən oxunmaqda, məclislərimizi bəzəməkdədir.

İxtiyar sənindir, vəfalı dilbər,
Mən sənin xətrinə dəyən deyiləm,
Cəbəb nədi, məndən kənar gəzirsən,
Sirr sözün yadlara deyən deyiləm.

Hər gecə vayğamda görürəm səni,
Sən Allah, sən Tanrı, sən də gör məni,
İlqarından dönən olsun erməni,
Mən ki ilqarımdan dönən deyiləm.

Qurbani der, gülü tutasan dəstə,
Dəribən verəsən, vəfalı dosta,
Üzümü qoysam da üzünün üstə,
Qorxma, incitmərəm, yeyən deyiləm.

Öz könül həmdəminə məhəbbətin ülvi duyğularını tərənnüm edən bu qoşmanın 2-ci bəndindəki *"İlqarından dönən olsun erməni, mən ki ilqarımdan dönən deyiləm"*, misralarındakı 5 yüz il bundan əvvəl deyilmiş eyham insanı heyrətə gətirir. Adını çəkdiyim millətdən xəyanət görən və yaxud onların ümummilli vərdişlərinə dərindən bələd olan qüdrətli sənətkar məhz belə bir heca qafiyəsi işlətmişdir. *"İlqarından dönən olsun erməni"*.

Fəqət, min təəssüflər olsun ki, XVI əsrin əvvəllərində də sənətkarın öz dilində söylənən həmin misra 5 yüz il özündən sonra yazılı qeydə alınarkən, məna və qafiyə dəyişikliyi aparılmışdır.

Hər gecə vayqamda görürəm səni,
Sən Allah, sən Tanrı, sən də gör məni,
Çıxsın ilqarından dönənin canı,
Mən ki ilqarımdan dönən deyiləm.[1]

---
[1] Azərbaycan aşıqları və el şairləri (I cild), "Elm" Nəşriyyatı, Bakı 1983, səh 39.

İlk andaca 3-cü misranın bəndə yamaq olduğu nəzərə çarpır. Dil ağırlaşır, heca qafiyəsi uyuşmur, şeirdə məna təhrifinə və söz təkrarlığına yol verilir. Hardasa, nə zamansa beynəlmiləlçilik məcburiyyətinin ifrata varması, bax, beləcə, sənətimizə də öz mənfi təsirini göstərib. Axı, beş yüz il bundan əvvəl ölməz sənətkar dilindən çıxan zəruri deyimlərə dəyib toxunmağa heç birimizin mənəvi haqqı yoxdur!!!

Aşıq Qurbaninin təhriflərə, qondarmalara və müasir əlavələrə məruz qalan, klassik üslubuna, qədim anımına xələl gətirən, belə timsallar çoxdur və mən bu söhbətimdə onlardan ikisi haqqında söz açdım. Qurbani elə bir sənətkardır ki, onun adi yadigar misrasına da toxunmağa heç birimizin nə dili, nə də əli gəlməməlidir. Bu böyük sənət fədaisinin heç bir əlavəyə ehtiyacı yoxdur. Bizim ona ən böyük hörmətimiz isə onun zəngin irsini olduğu kimi qoruyub saxlamağımız, bir də ağır el yığnaqlarımızda əzizləməyimiz olardı.

Şifahi ədəbiyyatımızın, ulu sənət keçmişimizin ən görkəmli ustadlarından biri olan Aşıq Abbas Tufarqanlını Aşıq Qurbanidən təxminən 100 illik bir zaman ölçüsü ayırır. Qurbani XVI əsrin əvvəllərində, Abbas Tufarqanlı isə həmin əsrin sonlarında, yenə də cənub ellərimizin Tufarqan diyarında dünyaya gəlib.

Artıq 4 yüz ildir ki, onun adı ilə bağlı “Abbas və Gülgəz” dastanı, bununla belə aşıq-şairin düzüm-düzüm qoşquları gözləri-könülləri oxşamaqdadır. Onun hər misrası bir zərbi-məsəl nişanəsi, hər bəndi bir hikmətamizlik nümunəsidir. Onun da bir şair kimi özünəməxsus dəsti-xətti, düzümlü yolları var. Minlərlə beytləri arasında Abbas Tufarqanlının misraları seçilir, özünəməxsusluğu diqqəti cəlb edir.

Bir gözəl oxladı məni,
Belə əbru-kaman olmaz,
Göydən huri mələk ensə,
Onun kimi qılman olmaz.

Kabab yanar gözü ilə,
Danış yarın özü ilə,
Müxənnətlər sözü ilə,

Yar ha yardan yaman olmaz.

Aşıq Abbas yana-yana,
Yandı bağrın döndü qana,
Bir namə yaz Tufarqana,
Daha səndən aman olmaz.

Bu qaydaynan oxşanır onun qızıldan qiymətli sözləri məclislərdən məclislərə. Onlar da sənət yolçularımız tərəfindən yır-yığış edilir, sinələrdən toplanıb günü-gündən kağızlara ələnir. Və yenə də, təəssüflər olsun ki, bu ələnmələrdən bəzən aşıq-şairin ilkin deyimlərinə soyuqqanlılıqla üzdəngetmə meylləri görünür. Dediyimiz mənbələrdə belə hallara tez-tez təsadüf edilir.

Bu mətləblə bağlı əzəlcə bir haşiyə çıxmağa ehtiyac var. Ulu keçmişimizin sənət meyarını araşdıranlarımıza yaxşı məlumdur ki, Abbas Tufarqanlı haqq aşığıdır. Haqq aşıqlarına ilahidən verilən bu vergi isə əksərən ikitərəfli olmuşdur. Yəni aşiqə və onun ilahidən qisməti olacaq istəklisinə!

Abbas Tufarqanlı da belə haqq aşıqlarımızdan olub. Ona röyada vergi verildiyi kimi, qüdrətdən gələn bu tale payı onun könül həmdəmi Gülgəzə, yəni Pəriyə də qismət olmuşdur.

Haqq aşiqlərinin isə özünəməxsus yol-ərkanı vardır. Onların hər ikisi eyni halda ilahinin bəxtiynən fitri istedada malik olur, daxili duyğularını, başına gələnləri və əhvalatla bağlı hadisələri qoşquların diliynən söyləməyi bacarır. Belə şairlik istedadı məhz Abbasın istəklisi Pəriyə də bəxş edilmişdir. Elə o səbəbdən də bütün dastan boyu onların qarşılıqlı deyişmələri, hadisələrlə bağlı qafiyə düzümlü cavabları olmuşdur.

Heç şübhəsiz, biz burada bir məsələni də inkar etmirik. Ola bilsin ki, nə zamansa dastançı aşıqlarımız tərəfindən dastana kamil deyimli əlavələr, o cümlədən Pərinin adı ilə Abbasa qabaq-qarşı şeir deyilmiş olsun. Amma bu yalnız dastanın ya şifahi söyləməsində, ya da yazılı qeydə alınma variantlarında hadisə ilə bağlı qeyd edilə bilər. Amma Aşıq Abbas Tufarqanlı şeirlərinin yazıya alınması

zamanı həmin qoşquları onun yaradıcılığı cərgəsinə qatmaq bir daha sənətə və sənətkara hörmətsizlik əlamətidir.

Vəzir Dəli Becanın fitnəsiynən zorla saraya aparıldığı vaxtlarda Pəri öz ürək sözlərini həm də şeirin sehirli diliynən izhar edərmiş.

Bircə insaf eylə, a zalım Becan,
Ayırma Abbasdan, zülümdü mənə,
Sənsən bu ölkəyə ədalət, divan,
Ayırma Abbasdan, zülümdü mənə,

Becan, sən eyləmə, qəddimi kaman,
Aşiqəm, məşuqə çəkdirmə aman,
Sən olasan, o duz-çörək, o nəməkan,
Ayırma Abbasdan, zülümdü mənə,

Pəri dərd əlindən yetişdi cana,
Oldum yar eşqindən dəli-divana,
Qəflə-qatır işlər o Tufarqana,
Ayırma Abbasdan, zülümdü mənə,

Dastanın başqa bir qolunda Pəri eşidir ki, Abbas Tufarqanlı şahın sarayına, öz istəklisinin arxasınca gələcək. Zalım vəzir tərəfindən dara çəkiləcəyindən qorxuya düşən vəfalı Pəri bundan çox narahat olur və o istəmir ki, Abbas saraya gəlsin. Ürək sözlərini qoşqulara düzüb həmin anda anasına belə bir namə göndərir.

Başına döndüyüm gülüzlü ana,
Gəlməsin Abbasım, Allah kərimdi,
Dərdindən olmuşam dəli-divanə,
Gəlməsin Abbasım, Allah kərimdi.

Fələk məni şad eləyib güldürür.
Ağladıban çeşmim yaşın sildirir,

Becan kəmfürsətdi, gəlsə öldürür
Gəlməsin Abbasım, Allah kərimdi.

Gülgəz Pəri saralıban-solunca,
Qaynayıban peymanələr dolunca,
Qoy gəlməsin Məhəmməd xan gəlincə,
Gəlməsin Abbasım, Allah Kərimdi.

Əhdinə vəfalı bir məşuq kimi Gülgəz Pəri özünün Abbasa olan daxili duyğularını izhar etmək istərkən, bəzi hallarda muyindən 3 tel ayırıb sinəsində sığallar, beləcə şikayətlənərmiş özlüyündə.

Gecə-gündüz fəqandayam,
Mənəm eşqin natəvanı,
Taladaram mahalları,
Boş qoyaram bu meydanı.
Bilmirsənmi haralıyam?
Ağlı, göylü, qaralıyam,
Yüz yerindən yaralıyam,
Sinəmdə zənbur nişanı.
Hökmünlə yazdın fərmanı,
Kim eylər dərdə dərmanı,
Pəriyəm, şahın qurbanı,
Abbassız istəməm canı.

Göründüyü kimi, Pəri təxəllüslü qoşqular ayrıca bir biçimdir və onlar bir müəllif kimi ancaq onun özünə aiddir. Onu da əlavə edək ki, əslində bu səpgili şeirlər də ayrıca tədqiq olunmağa layiqdir və istər bir tarixi şəxsiyyət kimi Pərinin, istər də Aşıq-şair Abbas Tufarqanlının, istər də onların adı ilə bağlı olan “Abbas və Gülgəz” dastanının dərindən öyrənilməsinə kömək etmiş olardı.

Bütün bunların əvəzinə Pəri təxəllüslü şeirlərin Aşıq Abbas Tufarqanlı qoşqularına qarışdırıb onun adına verilməsi subyektiv amillərlə bağlı təhriflərdi. Aşıq Abbas ellərimizin-obalarımızın qüdrətli sənət fədailərindən biridir. Onu

arayıb axtaranda, sinələrdən kitab-dəftərimizə köçürəndə maddi maraqdan əvvəl mənəvi borcumuz bizə hakim kəsilməlidir. Əks tədqirdə, dünənimizin incikliyinə, sabahımızın nifrətinə bais ola bilərik. Onda nə sənətkar ruhu bağışlar bizi, nə də sənət özü.

Aşıq Qurbani və Aşıq Abbas Tufarqanlı xalqımızın sənət dünyasında ən önəmli güvənc yerlərimizdəndir. Hər iki aşıq-şair bundan belə də araşdırılıb öyrənilməyə, sevilib əzizlənməyə layiqdir.

## “QURBANİ ÖZÜNƏ BƏYDİ”

## II

Bir çox qədim aşıqlarımız kimi Qurbani haqqında da məlumatı biz onun dillər əzbəri olan aşıq şeirləri və həmin şeirlər əsasında yaranan “Qurbani” dastanından alırıq.

Qurbani yaradıcılığını qələmin süzgəcindən keçirdikcə, insan kamalı bu incilərə qiymət verməkdə özünü aciz sayır. Əgər onlarda nöqsan tapmaq qəsdilə sərfi-nəzər etsək belə, yenə zərrəcə əyər-əysik tapa bilmərik. Hər biri ayrılıqda bitkin bir sənət əsəri olan bu qoşma və gəraylılar, hətta dünya sənət tarixinin nadir incilərindən sayıla bilər.

Girdim yarın bağçasına,
Dedim, dərim gülə-gülə.
Mən ona elə müştağam,
Necə bülbül gülə-gülə.

Naşı bağban satma gülü,
Haramdı axçası, pulu,
Küsdürdün şeyda bülbülü,
Daha gəlməz gülə-gülə.

Qurbaniyəm, erməmişəm,
Yar qəsrinə girməmişəm,

Belə cəllad görməmişəm,
Aldı canım gülə-gülə.

Göründüyü kimi bu “adi” şeir gəraylı formasında deyilib. Aşıqların dilində çox işlənən “gülə-gülə” sözü üç bəndlik gəraylıya rədif-qafiyə seçilib. Amma 3 bəndin 4-cü misrasında 4 dəfə işlənən bu rədif-qafiyələr hər misrada ayrı bir məna daşıyır. Birinci bəndin ikinci misrasında aşıq yarın bağçasında dərdini gülə söyləyir. Həmin bəndin 4-cü misrasında isə aşıq özünün bu təbiətini bülbülə bənzədir.

İkinci bəndin məna tərzi xalqımızın ulu keçmişindəki müqəddəs adətlərlə bağlıdır. Əsl bağban bağçada bəslədiyi gülü satmaz. Gül bülbül üçündür. Əgər naşı bağban onu satsa, bülbül inciyər, bir də o bağa gəlməz.

Sonuncu bəndin əvvəlki bəndlərlə ülvi bir bağlılığı vardır. Bülbül gül üçün bağa getdiyi kimi, aşıq də yar üçün onun qəsrinə gedər. Qurbaninin də yarı öz gözəlliyiynən onun canını alır. Özü də gülə-gülə….

Beləliklə, gəraylının rədif-qafiyəsindəki məna müxtəlifliyində təcnisin əlaməti vardır ki, bu ona məna və məzmun baxımından bir yenilik gətirmişdir.

XVI əsrin əvvəllərində Cənubi Azərbaycanın Dirili kəndində yaşayıb-yaradan Qurbaninin istər qoşma və gəraylılarının, istər də, təcnislərinin dili o qədər təmizdir ki, adam onu 5 əsr qabaq deyildiyini təsəvvür etməyə çətinlik çəkir. Lakin tarixi faktlarda və mənbələrdə zərrəcə mübaliğə yoxdur və ola da bilməz. Biz hardasa Qurbaninin ozanlarımızın ilk davamçısı, türk dünyasının ilk aşığı olub-olmaması barədə birinci kitabda deyildiyi kimi mübahisəyə girə bilərik. Amma Qurbani dövrü ilə bağlı onun sənətinə az da olsa şübhə ilə yanaşmağa ixtiyarımız yoxdur.

Biz ta XVI əsrdən, yəni Qurbanidən bəri aşıq yaradıcılığımızı saf-çürük etdikcə, son dərəcə qəribə bir səhnənin şahidi oluruq. 5 əsr bundan əvvəl onun dedikləri o qədər təmizdir ki, Cənubi Azərbaycanın qaynar nöqtələrindən birində dünyaya göz açan və orada yazıb-yaradan aşıq-şairin dilində ərəb-fars sözlərinə rast gəlinmir. Bu sözlər arasında bizlərə anlaşılmaz qalan bircə kəlmə də tapılmaz.

Elə ki dövrləri, ayları, illəri, günləri adlayıb bizim zəmanəmizə yaxınlaşırıq bax, onda əcnəbi sözlərin addım-addım dilimizə ayaq açdığını görürük. Xüsusilə XVIII, XIX əsrdə yaşayan sənətkarlardan üzü bu yana biz dilimizdə yadlaşmanın daha çox şahidi oluruq.

Hələlik, çox dərin, cəsarətli və açıq gözlü tədqiqata ehtiyacı olan bu məsələ barədə konkret fikir söyləməkdə ehtiyatlı olmalıyıq. Amma bununla bağlı təkcə bir məsələni qeyd etmək yerinə düşərdi. Görünür, biz hələ öz dilimizin qədim köklərini təfsilatı ilə araşdıra bilməmişik. O ki qaldı Qurbani zamanında yox, çox-çox ondan sonralar dilimzə əcnəbi kəlmələrin, o cümlədən ərəb, fars və rus sözlərinin daha çox qarışmasına, bu da məhz xalqımızın yaşadığı ictimai-siyasi həyatı ilə bağlı olmuşdur. Bəzən ömrün əsarəti, sənətin də əsarətinə sirayət etmişdir.

Bununla bağlı bir məsələni də qeyd etməyi özümüzə borc bilirik. Bizim bu günümüzə qədər dilimizdə dolaşan elə kəlmələr var ki, onlar artıq ərəbin, farsın və rusun özü üçün arxaikləşib. Onların müasiri nəinki onu işlətmir, hətta onun mənasını belə anlamaqda çətinlik çəkir.

Fikrimizi isbat üçün adi bir misal gətirmək istərdik. Qüdrətli el sənətkarımız Aşıq Ələsgərin məşhur “Hayıfsan” rədifli qoşmasında belə bir misra var.

Qəsəm olsun xudkeşlərin sərinə,<br>
Yalan söz igidi salar dərinə.

Müasir oxucu və ya dinləyici soruşur ki, “Qəsəm”, ya da “Xudkeş” sözlərinin mənası nədir?

Tərtibatçı isə kitabda həmin kəlmələrin izahını verməyə məcbur olur.

Deməli, beynimiz, əlimiz və dilimiz tam sərbəst və azad olurkən, hələ şifahi deyimlərimizdə araşdırmağa ehtiyacı olan amillərimiz çox olur.

Bu gün biz 5 əsr bundan irəli Qurbani zəkasıynan sapa düzülmüş inciləri oxuyanda, Azəri dilinin saflığını müəmmalı bir inqilabi dövrdən sonraya bağlayanların naxələfliyinə nifrət edirik. Doğrudur, ataların “hər kəs özünə gün ağlamalıdır” məsəli özümüzdə yaransa da, o, həmişə qeyrilərinə kömək olub. Lakin bundan istifadə edən milli düşmənlərimiz, böhtanı böhtan dalınca yığdırıb,

türk aləmindəki müxtəlif araşdırmaları qarşı-qarşıya qoymaqla, bir tərəfdən də özümüzü-özümüzə düşmən kəsdiriblər.

Amma dünyada əbədi ölməyəcək bir şahid vardır. Sənətkar varlığını təmsil edən ülvi sənət nümunələri!

Səhərin dan yeri kimi,
Əsmə, qadasın aldığım!
Mənim səbrü-qərarımı
Kəsmə, qadasın aldığım!

Bizim bağda gül dərginən,
Sıx könlümə, tel hörgünən,
Ağ üzdən busə verginən,
Əsmə, qadasın aldığım!

Qurbani aşiq üzünə,
Qurbandı ala gözünə,
Baxma yadların sözünə,
Küsmə, qadasın aldığım!

Beləcə hər misrası dillərdə əzbər olub, bir el məsəlinə dönüb bu aşığın. Hər gəraylının bir sənət əsərinə, hər qoşması bir dastan tamlığına bənzəyir Qurbaninin.

Xalqımız bu ölməz sənətkarlardan söz açarkən, istər-istəməz yadımıza Aşıq Abbas Tufarqanlı düşür.

Onları bir-birindən cəmi bir əsrdən də az bir dövr ayırsa da, hər ikisinin taleyində bir eynilik olmuşdur. Bu eynilik onların “Qurbani” və “Abbas və Gülgəz” dastanlarında, bir sözlə, bütün sənət dünyasında tamamlanmışdır.

Hər iki haqq aşıqi öz qismətlərini gözəlliyin bir timsalında vəsf etmiş, bu adla gözəlləmələriynən tarixi dastanlarına yaraşıq vermişlər. Azərbaycan şifahi xalq ədəbiyyatının ulu adətlərindən yaranan Pəri obrazı, ilk öncə “Qurbani” dastanında pərvəriş tapmış, Qurbaninin qoşmalarında sınağa çəkilmişdir.

Özü xoşsifətli, adı Xoşnişan,

Yeriyir qabaqca Mikayıl, Pərim!
Firqəti zülfləri tarimar olmuş,
Asılıb gərdəndən həmayıl, Pərim!

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara mən oldum sayıl,
Qızıl qıtlığından tökdür həmayil,
Dünya olsun sana naqail, Pərim!

Qurbani Qurbandı, şahın dərdinə,
Dərviş bilər, xirqə nədi, dəri nə?
Ağam qıya baxdı, atdı dərinə,
Yetmiş il təqd etdi, Cəbrayıl, Pərim!

Bir əsrdən sonra yenə də Cənubi Azərbaycan elində Aşıq Abbas Tufarqanlı da beləcə vəsf edib öz Pərisini:

Səhər-səhər sər çeşmələr başında,
Gün kimi dağlara yayılan Pərim!
Hər kəs məndən sənə yaman qandırsa,
Ya əqrəb dişləsin, ya ilan, Pərim!

Qovma dərgahından şirin nökəri,
Geymərəm hər şalı, hər qələmgarı,
Hicran xəstəsiyəm, yeməm şəkəri,
Qoynundakı nara qayılam, Pərim!

Götür sürməni çək qaşına gəlsin,
Çal, əyri çalmanı başına gəlsin,
Abbasın sözləri xoşuna gəlsin,
Hurilər qızından sayılan Pərim!

İstər “Abbas və Gülgəz”, istərsə də “ Qurbani” dastanında hadisələrin bir-birini izləməsi eyni məcrada davam edir. Pərisinin vüsalına yetmək üçün Qurbaninin başına gələnlər, Aşıq Abbas Tufarqanlının da həyatında az qala eynilə təkrar olunur.

Hər iki aşıqin məşuqu yolunda sipər olan zalım vəzirlər də, eyni idealın, eyni yolun yolçularıdır. Bir xalqın tarixinə bir-birindən xəbərsiz qızıl xətlərlə yazılan bu iki sənət və məhəbbət aşıqlərinin sanki vüsal həsrətləri də bir-birinə bənzəmişdir. Onların ağlaması da, gülməsi də, hicranı da, hətta alqış və qarğış, giley-güzarı da bir-birinin oxşarıdır.

**Qurbani:**

Vəzir, sana qarğıyıram,
Haqq diləyin yetirməsin!
Göydən min bir bəla yensin,
Biri səndən ötüşməsin!

Evindən düşəsən naçaq,
Sağ gözünə batsın bıçaq,
Oğul-uşaq düşsün qaçaq,
İstədiyin gətirməsin!

Oturubsan ağ otaqda,
Qan qusasan laxta-laxta,
Səni görüm ölən vaxtda,
Dilin kəlmə gətirməsin!

Qurbani qaldı burada,
Çağır, xudam yetsin dada,
Meyidin qalsın arada,
El yığılıb götürməsin.

**Abbas Tufarqanlı:**

Başına döndüyüm, qurban olduğum,
Qoyma, dəli Becan yarım apardı,
Alışıb oduna büryan olduğum,
Qoyma, dəli Becan yarım apardı.

Şah Abbas hökmüylə naməni yazır,
Qurub kəcavəni, olubdu hazır,
İsfahandan gəldi bu zalım vəzir,
Qoyma, dəli Becan yarım apardı.

Mən Abbasam, heç vaxt söyləməm yalan,
Elimə, ölkəmə saldılar talan,
Xoca, dəli Becan, Allahverdi xan,
Qoyma, dəli Becan yarım apardı.

Sözün qüdrəti telli sazın ahənginə qarışanda, bu ilahi qüvvənin qarşısını alacaq qeyri bir qüvvə yer üzündə mövcud olmamışdır. Elə onunçün də, Qurbani kimi Aşıq Abbas Tufarqanlı da saraylara, şahlara, vəzirlərə sazın və sözün gücünə qalib gəlib, öz pərilərinə qovuşmuşlar.

5 əsr bundan irəli şifahi deyim tərzimizin ilkin təməl daşlarından birini qoyan Aşıq Qurbaninin həyatı kimi, ondan biz nəsillərə miras qalan yaradıcılığı da son dərəcə maraqlı və zəngin olmuşdur. Aşığın qoşmaları arasında elə sənət inciləri var ki, onun hər birinə ayrıca vaxt ayırmağa dəyər. Necə ki aşıq-şairin XVI əsrdə yazdığı “Bənövşə” şeiri 5 yüz ildən artıqdır ki, duyan könülləri heyran qoymaqdadır.

Qoşmada bir çox forma gözəllikləri də bizlərə Qurbanidən yadigar qalmışdır. “Dedim, dedi” qarşılıqlı təkrir formasının ilk nübarı məhz Qurbaniyə məxsusdur. Bu mürəkkəb qoşma tərzini sonralar çoxları sınaqdan keçirsə də, o təkrir yox,

təkrar kimi alınmış, forma məzmunu üstələmişdir. Qurbaninin ilkin variantı isə hələ də nümunə olaraq qalmaqdadır.

Dedim: Dilbər, getmə bir də danışaq,
Dedi: Sözün yoxdu, bəhanədi bu,
Dedim: Bir nəzər sal aşıq halıma,
Dedi: Əcəb dəli-divanədi bu.
Dedim: Ey vay, halım yaman olubdu,
Dedi: Qəmdən belim kaman olubdu,
Dedim: Vallah, sinəm meydan olubdu,
Dedi: Mən bilmərəm, xəzanədi bu.

Dedim: Qoy gözümə qıvrım tellərin,
Dedi: Lazım deyil vəhşi güllərin,
Dedim: Sən bizimsən, biz də ellərin,
Dedi: Aldanmayın, biganədi bu.
Dedim: Sənə aşiq olan can budu,
Dedi: Sənin eşqin axar bir sudu,
Dedim: Cavan ömrüm çürüyüb budu,
Dedi: Əbəs sözdü, əfsanədi bu.

Dedim: Qurbaniyəm, yarın adına,
Dedi: Elə sənsən düşən yadıma,
Dedim: Mən ha yandım eşqin oduna,
Dedi: Şama yanan pərvanədi bu!

Bu gün mahnılarımızı və şeir-sənət məclisimizi bəzəyən Qurbani yaradıcılığı haqqında hələ deməyə sözümüz çoxdur.

Əgər elin sözü yadigardırsa, bu yadigarı qoruyub saxlamaq, ona vaxtaşırı sığal çəkib sabahımıza da ibrət dərsi vermək bizlərin mənəvi borcudur…

# "DÖZ, BAĞRI DAŞ OLAN KÖNLÜM"

## III

Sazlı-sözlü dünyamızın ölməz ustadlarından biri olan Aşıq Abbas Tufarqanlıdan söhbət düşəndə qüdrətli sənətkarın söz inciləri ömrümzü, günümüzü təzələyir, könlümüzə nur çiləyir.

Səhər-səhər sər çeşmələr başında,
Gün kimi dağlara yayılan Pərim,
Hər kim məndən sənə yaman qandırsa,
Ya əqrəb dişləsin, ya ilan Pərim!

Adicə söhbətdi bu. Nənə-babalarımızın dilindən axıb gələn doğma, şirin bir söhbət. Amma qafiyələrin qüdrətiynən bu söhbət elə oxşanıb, cilalanıb ki, onun tək bircə kəlməsinə də toxunmağa qıymazsan. Yoxsa bu möhtəşəmliyin xanəsinə xələl gətirmiş olarsan. Deyimi kamil, mənası dərin, düzümü göyçək! "Yayılan", "Ya ilan" kimi rədif-qafiyələrin qədim çalarlarından axıb gələn məzmun dərinliyi onun özüynən qoşa yaranıb.

İnsan kamalına, əlbəttə, duyumlu ürəklərə heyranlıq gətirən bu əvəzsiz incilərin nə az, nə çox, tək beşcə yüz il yaşı var. Onu dili təzə uyuşan türk övladından tutmuş 100 yaşlı babasına qədər, hansının yanında tələffüz etsən bircə kəlməsinə də biganə qalmaz.

Bax, budur illərlə dilimizin dünəninə böhtanlar yağdıran düşmənlərə Aşıq Abbas Tufarqanlı səsinin dörd əsrlik ormanlar arxasından gələn sədasının cavabı.

Gözəlim qaşı qaradır,
Bayquşun meyli haradır,
Bu dünya karvansaradır,
Hər gələn qonaq əylənməz.

Zaman-zaman deyimlərimizin cərgəsində beləcə dilcavabı söylənib eldən-elə, məclisdən-məclisə yayılıbdı bu hikmətamiz deyimlər. Sənət dünyamızın sabahkı natahatlığı naminə bu gün onun qulluğunda duranlarımız var. Bu qiymətli zərrələri

biçim-biçim cəm edib onları yazıya aldıqca sabahkı nəsillərimizə ən gözəl yadigarlarımız sayılacaq kitab boğçalarımızın səhifələri bu sətirlərlə bəzənib. Artıq nə qədər vaxtdır ki, "Azərbaycan aşıqları və el şairləri" sırasından olan bu kitab bağlamaları Elmlər Akademiyasının əməkdaşları tərəfindən oxuculara təqdim edilib.

Və bu sarıdan məni narahat edən bəzi xətalar haqqında fikir söyləməyi mənəvi borc sayıram. Çünki Aşıq Abbas Tufarqanlının yaradıcılığı o qədər səmimidir ki, ona qeyri-səmimi yanaşmaq, sadəcə olaraq, mümkün deyildir.

Aşığın məşhur "Abbas və Gülgəz" dastanının kövrək məqamlarında dediyi kimi, "Könlüm" rədifli bir gəraylısı var. Vəzir Dəli Becan güclə saraya aparandan sonra kimsəsiz aşıq bir vaxt gedib-gəldiyi yollara boylana-boylana telli sazı sinəsinə sıxıb deyir:

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm!
Axırda zinhar bağlarsan,
Qəmə yoldaş olan könlüm!

Yarım gəlmir obasından,
Alım dərdi bəlasından,
Çərxi-fələk badəsindən,
İçib-sərxoş olan könül.

Abbas ağlar arsız-arsız,
Dünya, sənsən etibarsız,
Deyirdin dözərəm yarsız,
Döz, bağrı daş olan könlüm.[1]

Artıq neçə yüz illərdir ki, az qala hər kəsin dilinin əzbərinə çevrilən bu üççə bəndlik sənət əsəri yazıya alınarkən hər üç bənddə söz təhrifinə yer verilib. Bu söz

[1] Azərbaycan aşıqları və el şairləri, (I cild), "Elm" nəşriyyatı, Bakı, 1983, səh. 62.

dəyişkənliyiylə gəraylının ilkin mənasına xələl gətirilib, qüdrətli sənətkarın mətləbindən uzaq düşüb.

Nə ağlarsan, nə sızlarsan,

Bir dərdi-beş olan könlüm!

Axırda zünhar bağlarsan,

Qəmə yoldaş olan könlüm!

Üçüncü misradakı "zinhar" sözünün əvəzinə zünhar sözü gedib. Beləliklə, sözün ilkin çalarına xələl gətirilib.

Qədim anımlı ellərimizin dilində, bir söz var, "zinhar" sözü. Zinhar olmaq, zinhar bağlamaq, başqa tərzdə desək, vərəm bağlamaq. Ömrün qəmli çağında ustad sənətkar bu kəlməni gəraylının misrasına təsadüfən gətirməyib. Ayrılıq həsrətində qovrulan aşıq məhz "axırda zinhar bağlarsan" deyə gileylənmişdi. Bunun əvəzində "zünhar" bağlarsan misrasını işlədib izahını qurşaq bağlamaq kimi vermək isə sənətkarın ülvi məqsədini təhrif etmişlər.

Əvvəla, "zün" sözü dilimizə yabançıdı. Əlahəddə, əgər "qurşaq" mənasında işlənirsə, aşığın bu məramına tamamilə yaddı. Heç kim qəmli çağında qurşaq bağlamaz. El-obamızın adətlərində qurşaq bağlamağın tamam ayrı yol-ərkanı var…

İkinci bənddə dərdli aşıq deyir ki, "Yarım gəlmir obasından, alım dərdi bəlasından". Yollara boylanan baxışların ayrılıq nidası olan bu misranın əvəzində *"Bir yar gəlir obasından, alım dərdi-bəlasından"* sözlərinin işlənməsi də Abbas Tufarqanlının məramından çox-çox uzaqdır. Dünən Pərisindən ayrılan Abbas, bu gün yarın qadasın ala bilməzdi. Məhz onun yarı obasından gəlmədiyi üçün aşıq qəmlənir və ya "yarım gəlmir obasından" – deyir…

Üçüncü bənddəki *"Dünya, sənsən etibarsız"* misrasının əvəzinə "Dünya etibarsız" yerdəyişməsinin də lüzumu yoxdu.

Aşıq Abbas Tufarqanlı elə ölçülü-biçimli bir sənətkardı ki, bəzən onun qatar-qatar sözlərinin arasında tək bircə misranın da yadlığı nəzərə çarpır.

Abbasam, yoxdu məkanım,

Sənə qurban şirin canım,

Ölkəmizdə Pəri xanım,
Sidqini bağla mövlama.

Bütün bəndlərini söyləməyə ehtiyac duymadığımız bu gəraylının son bəndindəki "Ölkəmizdə" sözü şeirin qədim çalarına çox da uyuşmur və əlbəttə, onu belə deməyə ehtiyac da yoxdu.

Abbasam, yoxdu məkanım,
Sənə qurban şirin canım,
Qəm eyləmə, Pəri xanım,
Sidqini bağla mövlama.

Tamamilə haqlı olaraq ustad aşıqlarımızın və el bilicilərimizin bu oxusu və dilcavabı deyimlərdə aşığın ülvi məqsədi doğrulur, onun üslubu diqqəti oxşayır. Aşığın istəklisi Pəri xanımın, bu dünyada mövlama ümid bağlaması nə qədər təbii səslənirsə, "ölkəmizdə" sözü bu bəndə o qədər yamaq görünür.

Abbas Tufarqanlının dillər əzbəri olan gəraylılarından biri də "Gəlmədi" rədifli şeiridi. Aşıqlarımızın və xanəndələrimizin avazını bəzəyən bu nadir sənət incisi də ulu sənətkarın həsrət-gileyiylə bağlıdı. Onun Pərisi Xan sarayında dustaq edilərkən aşıq bu gəraylını telli sazının giley-güzarına qoşub səba yellərinin qanadında ona göndərmişdi.

Oğrun yollara baxmaqdan,
Bağrım qan oldu, gəlmədi,
Ağlamaqdan eynim yaşı,
Bir ümman oldu, gəlmədi.

Mənim yarım boyu bəstə,
Dərdindən olmuşam xəstə,
Gözüm qalıbdı, yol üstə,
Yenə dan oldu, gəlmədi.

Dağların qarı söküldü,

Axdı, çaylara töküldü,

Abbas deyər, bel büküldü,

Qədd kaman oldu, gəlmədi.

Qeyri deyimləri kimi aşığın bu gəraylısı da şirindi, axıcıdı. Özünün qeylü-qallı məhəbbət məcaralarıynan bağlı könül nisgilini misraların düzümündə elə bərqərar edib ki, ona dəymək, toxunmaq olmaz. Abbas Tufarqanlı üslubunun özünəməxsusluğu burada da nəzəri cəlb etməmiş deyil. Fəqət, gəraylının yazıya alınma variantında bir daha ilkin çalara xələl gəlmişdi.

Oğrun yollara baxmaqdan,

Bağrım qan oldu, yar gəlmir,

Ağlamaqdan eynim yaşı,

Sel, ümman oldu, yar gəlmir.[1]

"Bağrım qan oldu gəlmədi" rədif-qafiyəsi nə qədər axıcı, yerində deyimli və Aşıq Abbas Tufarqanlı ruhuna bağlıdırsa, "Bağrım qan oldu, yar gəlmir" misrası bir o qədər dediyimiz keyfiyyətlərdən uzaqdır.

Burada "Bağrım qan oldu…" ifadəsindən sonra elə bil birdən birə dilimizdə söz qırılır. Əgər "Bağrım qan oldu, gəlmədi" kimi çeşmələrimizin suyu qədər axımlı, bizi sözün sonluğuna çəkən bir deyim yadigarımız varsa, onu Aşıq Abbas Tufarqanlı ruhuna yadlaşdırmağa nə ehtiyac var?!

Qüdrətli el sənətkarının yazıya alınan qoşmaları da təhriflərdən xali deyildir. Onlardan ikicə bəndini misal gətirmək istərdik.

Mən gəlmişəm bu Dərbənddə qalmağa,

Bir tülək tərlanı ələ salmağa,

Düşmən öldürməyə, qisas almağa,

Qoçaq olur igidləri Dərbəndin.[2]

Bəndin ikinci misrası *"Bir tülək tərlanı tora salmağa"* əvəzinə *"bir tülək tərlanı ələ salmağa"* kimi çap olunub. Ümumiyyətlə, şifahi xalq deyimlərində *"Tülək tərlanın tora salınması"* kimi doğma ifadə Aşıq Abbas Tufarqanlı

[1] Azərbaycan aşıqları və el şairləri, (I cild), "Elm" nəşriyyatı, Bakı, 1983, səh. 62.

2. Azərbaycan aşıqları və el şairləri (I cild) "Elm" nəşriyyatı. Bakı, 1983, səh.72

yaradıcılığında da öz nişanələrini göstərmişdi. “*Tülək tərlanın ələ salınması*” ifadəsinə gəlincə, biz onun nəinki klassik üslubda, heç bu günkü poeziyamızda işlənməsinə də tərəfdar olmazdıq.

Məclisinə sürahilər düzülər,

Ala gözlər xumarlanıb süzülər,

Bir muyin üzülsə, canım üzülər,

Zümzüməsi əl-Osmana yetişər.

Könül butası Pəriyə görüşlərin birində dediyi “Yetişər” rədifli qoşması da aşığın nadir söz incilərindən biridir. Söylədiyimiz bu bənd də həmin qoşmadandır. Sözün mənası məlum, məqsədi anlaşıqlıdı. Əgər istəklisinin bircə şanəsi üzülərsə, aşiqin zümzüməsi əl-Osmana yetişər. Ölməz sənətkar “*zümzümə*” sözünü burada təsadüfən işlətməmişdi. Əvvəla, bu söz şifahi deyimlərimizin qədim zərrələrindən biridi və eyni zamanda o, bir neçə dərin çalara malikdi. Aşiqin bu zümzüməsi isə o zümzümədən deyildir. O, aşıq diliynən alınan fəryaddır, ah-nalədir.

Belə olan halda “*Zəlzələsi” al-Osmana yetişər*” desək, bir daha qədim sənət nümunələrimizdən birini təhrifə məruz qoymuş olarıq. Qoşmanın deyim tərzinə, aşığın şəxsi duyğularıynan bağlı onun ifadəsinə “zümzümə” kəlməsi bu qoşmada nə qədər yerinə düşürsə, “zəlzələ” sözü bir o qədər yad görünür.

Şifahi xalq ədəbiyyatımızın deyimləri arasında təcnis ən maraqlı formalardan biridir. Onların bölgüləri ararsında da cığalı təcnisin özünəməxsus yeri, deyim tərzi var. Bu səpkili şeirlərimiz özünün cığasıynan seçilir. Eyni zamanda cığalı təcnisin 2 hecalıq iki başlanğıc misralarındakı rədif-qafiyələri formaca eyni, məzmunca müxtəlif olur. Bununla belə cığalı təcnisdə bircə kəlmə də olsun, gəlişigözəl qafiyə tapılmasın gərək.

Yenə də min təəssüflər olsun ki, Aşıq Abbas Tufarqanlının adına yazılı qeydə alınan yeganə bir cığalı təcnis də təhriflərlə doludur.

Bir gözəlsən, şövqün düşüb cahana,

Yoxdur sənin kimi gözəl göz ala,

Mən aşiqəm cahana,

Canım qurban canana,

Haqqın əziz bəndəsi,

Xoş gəlmisən cahana.[1]

Nöqsan göz qabağındadır. “Göz ala və cahana” rədif-qafiyələri bir-birinə yaddır, cığalı təcnisdə bu səhvin qədəri tamamilə bağışlanmazdır. Fəqət bu səhv Aşıq Abbas Tufarqanlının deyil, kiminsə quraşdırmasıdır.

Ulu ustadlarımız hər sözün yerini yüz dəfə ölçüb bir dəfə biçəndən sonra ərsəyə gətiriblər. Aşıq Abbas Tufarqanlı yaradıcılığa da belə qənimət sənət incilərimizdəndir.

Son misralarına qədər onu cəm etmək və çapa almaq da bizlərin müqəddəs borcudur. Təkcə bir şərtlə ki!

Gəlin ellikcə, onları təhriflərdən, qondarma, yad və yerində deyilməyən misralardan qoruyağın!

## YƏHYA BƏY DİLQƏM

Yəhya bəy Dilqəm XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Şamxor (indiki Şəmkir) rayonunun Dəllər-Cırdaxan kəndində dünyaya gəlib. Əzəlindən təbiət gözəlliklərinə vurğun olan Dilqəmin uşaqlığı Kür qırağında keçib. Ömrünün qəmli çağlarında o, dərdini bu lal sulara söylədiyi vaxtlar çox olub.

Seyri-Gülüstanda, Kür kənarında,
Bu gün bir həsrətkeş qalıb, ağlaram,
Ayrılıq cövrünün, dost fərağanın,
Sevdası başıma gəlib, ağlaram.

Biz Dilqəmin həyatı ilə bağlı söhbətimizi onun uşaqlıq dostu ana Kürə gileyiylə təsadüfən başlamadıq. Bütün həyatı dərin sarsıntılar, ağır iztirablar içində keçən el sənətkarı həmişə taleyindən şikayətçi olub. Bu aşığın qismətinə düşən daşlı-kəsəkli ömür yollarıynan bağlıydı. Gəncliyindən dərin məhəbbətlə, saf, təmiz duyğularla sevdiyi əmisi qızıynan uğursuz məhəbbəti onun həmişəlik nisgilinə dönmüşdür.

Ay ağalar, bəylər, duran qazılar,

[1] Azərbaycan aşıqları və el şairləri (I cild) “Elm” nəşriyyatı, Bakı, 1983, səh. 65

Bu dərdlər sinəmdə azalarmola?
Bu gizli sirrimi aşkar eyləsəm,
Dillərə düşübən söz alarmola?
Yar odu ki, öz yarını qandıra,
Uçan könlü şikarına mindirə,
Bir çıraq ki haqqın özü yandıra
Seyrağub dəyməklə qaralarmola?

Əriyibən torpaqlara qatılsam,
Həna olub əllərinə yaxılsam,
Qul oluban bazarında satılsam,
Məni qulluğuna yar alarmola?

Dilqəmi öldürər bi dərd nə isə,
Loğman-təbib gor yaramı görürsə,
Zimistan könlümə yar əli dəysə,
Ürəknən tapıban yaz olarmola?

Yəhya bəy Dilqəmin özündən sonra qalan ədəbi irsi, onun həyatına bağlanan "Dilqəm" dastanı el sənətkarı haqqında müəyyən məlumatlar öyrənməyə imkan yaradır. Axtarışlar göstərir ki, o, yaradıcılığa çox erkən başlayıb. Həm ifaçı, həm də yaradıcı aşıq kimi sazıynan, süzü daim bir-birini tamamlayır. Dərdli aşıq məclislərdə daha çox öz şeirlərini oxuyur, küskün taleyindən şikayətlərini el-obaya bu qaydaynan çatdırarmış.

Yəhya bəy Dilqəm klassik aşıqlarımızın cərgəsində özünəməxsus ad-sanı olan bir sənətkardır. O, həm saz, həm söz, həm də ifaçı aşıq kimi el-obamızda çox zəngin irs qoyub gedib. Onun haqqında danışarkən hər üç yönümdə söhbət açmağa ehtiyac duyulur. Həyatın qəribə qanunları var. Bəzən dərdin ağırlığı insanı yenidən saflaşdırır, təkmilləşdirir, bir növ onu təzədən kəşf edir. Bunlar aşıq Dilqəmin gileyli şeirləri və adına bağlı dastanla yanaşı "Dilqəmi" havasında da duyulur.

Çox çətin çalara, zəngin xallara və sanballı döndərmələrə malik olan "Dilqəmi" qədim anımlı sazımızın ən dəyərli havalarından biridir.

Nələr yoxdur bu havada? Ocaq nisgili, yurd narahatlığı, Vətən təəssübü, el-oba həsrəti.

Və bir də, nakam məhəbbətin ahı-naləsi. Klassik aşıq havalarımızın ən gözəl nümunələrindən olan "Dilqəmi" aşığın ürək ağrılarını nəzmə çəkən bir kədərlə qoşa yaranıb.

Ərizə yazaram səba yelinə,
Ərizəm canana yetişirmola,
Fələk məni tərki-vətən eylədi,
Nazlı yar əhvalım soruşurmola.

Əzəldən aşıqəm, tuti dillərə,
Müsəlsəl saçlara, siyah tellərə,
Axdı eynim yaşı, döndü sellərə,
Yar içən sulara qarışırmola.

O qızıl gülləri dərməyən Dilqəm,
Dərib pünhan yerə sərməyən Dilqəm,
Bu dünyada yarı görməyən Dilqəm,
Yarəbb, o, dünyada görüşürmola.

Dilqəmin dillərdə qalan şeirlərindən məlum olur ki, o, bir şair kimi dərin təbə malik imiş. Daha çox qoşma və gəraylı janrında dediyi sözlərin əksəriyyəti onun uğursuz taleyindən şikayətləridi. Aşığın yaradıcılığına dərindən nəzər yetirərkən onda Molla Pənah Vaqifin təsiri duyulur. Badi-səbaya şikayətində, gözələ, eşqə, məhəbbətə müraciətlərində bu daha çox hiss olunur. Bunnan belə Dilqəmin özünəməxsus həyat amalı varmış. Qüdrətli sənətkarın fikrincə, xəyallarda təsvir edilən cənnət pəriləri, qılmanları, real həyatın özündədi. Yer üzünün gözəlləri necə varsa, şair diliynən, eləcə də təsvir edilməlidir. Onları əfsanələşdirməyəsə ehtiyac yoxdur.

Dilqəmin yaradıcılığındakı maraqlı cəhətlərdən biri də onun seçdiyi orijinal rədif-qafiyələrdi. “Yetirmola”, “Azalırmola”, “Varmola” kimi neçə-neçə bəndə rədif sonluqları aşığın özünəməxsusluğundan xəbər verir.

Gecə-gündüz qaldım zülmət içində,
Mən kimi zülmətdə qalan varmola.
Əvvəllər can deyib, can eşidənlər,
Heç bircə yanıma gələn varmola?

Hayıf oldu, əlim əldən üzüldü,
Mənim üçün bircə saat yüz ildi,
Bağlar xəzəl oldu, güllər pozuldu.
Mən kimi gülşəni solan varmola?

Biçarə Dilqəməm, sorram gələndən,
Ağladannan, göz yaşımı silənnən,
İstəkli dostlardan, qədir bilənnən,
Yarəbb, məni yada salan varmola?

Yəhya bəy Dilqəmin adıynan bağlı olan “Dilqəm” dastanı da neçə illərdir ki, aşıqların dilindən düşmür. Qüdrətli sənətkarın həyatı ilə bağlı maraqlı epizodlar, gərgin, dinamik əhvalatlarla zəngin olan kövrək duyumlu bu dastan olmuş əhvalatların təsviri baxımından maraqlıdır və bəzi dastanlar kimi uydurmalardan uzaqdır. Əfsanələrdən və mübaliğələrdən daha çox real həyat həqiqətlərini sevən Dilqəmin obrazı dastanda çox bariz şəkildə təsvir edilir. Onun saf məhəbbətinə qarşı doğma əmisi qızının xəyanətləri və Yəhya bəy Dilqəmin ömrünün axırına qədər də öz eşqinə sadiq qalması “Dilqəm” dastanının ana xəttini təşkil edir. Təəssüf ki, bu gözəl dastanı tamam-kamal bilən aşıqlarımız azdır ki, bu da onun geniş təbliğinə ziyan gətirir.

Əgər Yəhya bəy Dilqəmdən biz nəsillərə təkcə onun “Dilqəmi” havası yadigar qalmış olsaydı belə, onun böyüklüyünə kifayət edərdi. Əslində isə bu

qüdrətli aşıq-şairin çox zəngin irsi, maraqlı sənət yolu var. Hələliksə, onlardan bizə qaranlıq qalan cəhətlər çoxdur. Ona görə də Dilqəmin həyat və sənətiynən bağlı daha dərin araşdırmalara bundan belə də ehtiyac var.

# II
# “YALAN GƏLMƏZ AŞIQLARIN DİLİNƏ”

## ONDA BAHAR İDİ

1972-ci ilin baharı idi. Göyçə mahalını üzük qaşı kimi dövrəyə almış sıra dağların döşünə təbiətin əliynən min bir naxışlı xalılar sərilmiş, zirvələr sonsuz aydınlığa bələnmişdi. Quzeylərdə üşüyən dağ sonaları güneylərə dolaylanıb bu məkanın cənnət baxışından feyz alır, gözəllik qoynuna yeni gözəllik gətirirdilər.

Dərələrdə harınlamış köhlənlər bir-biri ilə əlbəyaxa oynaşa-oynaşa obaların qənşərinə çıxır, qulaqlarını şəkləyib el yoluna sarı boylanırdılar. Dağ vüqarlı çobanlar sürünün sərnəsini qartal baxışlarıynan süzür, könlünə yatan erkəyi kiməsə nişan verirdilər.

Bir başqa bahar idi bu bahar. Heç belə bahar görməmişdi Göyçə mahalı.

O gün obalarda, oymaqlarda köynəyinin yaxası açılmayan saz qalmamışdı. Göyçə gölünün qırçın ləpələrindən tutmuş Daşlı güneyin əlçatmaz zirvəsinə qədər şah pərdənin titrəmələri düzüm-düzüm düzülmüşdü. Qara zurnanın “Cəngi”si həsrət bir “Koroğlu” nidasıynan qayaları qucaqlayır, öz əks-sədasıynan onları hafizələrdə əbədiyyətə qovuşdururdu. Telli sazın ümman qanadlarıynan ayaqlaşa bilməyən yastı balaban onun arxasınca dizin-dizin sürünür, öz həzin oxşamalarını onun səsinə qoşmağa tələsirdi.

Gözəl baharlar görmüşdü Göyçə mahalı. Amma belə bahar görməmişdi…

Adamlar necə sevinirdilər o gün. Yol qırağına düzülüb gələnləri qarşılayan nər biləkli oğulların da el-obanın adına layiq qulluğa tələsən çadrasız-boyaqsız gözəllərin də beşikdəki körpələrin, yaylaqdakı ağbirçəklərin, ağsaqqalların da üzü gülür, qəlbi şövqə gəlirdi.

Bax beləcə, təbiət də sevinirdi, insanlar da…

Heç bir baharda belə qələbəlik görməmişdi Göyçə mahalı.

Ağkilsə kəndinə doğru sellənən insan axını ümmünlara bənzəyirdi. Onların arasında ömrün bütün zümrələrindən olanlar vardı. Alim də, şair də, fəhlə də, muzdlu da, aşıq da, xanəndə də. Diqqətlə zənd etdikcə adama elə gəlirdi ki, Təbrizdən, Marağadan, Dərbənddən tutmuş ta anamız Bakıya qədər qəlbi

istəyənlərin hamısı ilahinin mərhəməti ilə birdən-birə Azərbaycanımızın bu bir parça qəribsəmiş torpağına, onun sınanmış ocağına baş çəkməyə gəlmişdilər.

Nə gözəl bahar idi o bahar, nə gözəl gün idi o gün, İlahi! Günmü səmtini dəyişmişdi, yoxsa aymı?

Bəli, 150 il o gündən əvvəl dünyanın gözləri gülmüşdü. Cahanın can kitabına qüdrətin əliynən bir ad yazılmışdı. Ələsgər!

Aradan illər keçdikcə sənət dünyamızda yeni bir meyar şaxələnib qol-qanad açmışdı. Rişəsi Ağkilsə kəndindən başlayan bu gözəl kəlamlar müdrikləri heyran qoymuşdu. Telli sazın həyatına yeni bir tarix yazılmışdı.

Aşıq Ələsgər tarixi!

Bir zərgər kamallı, bir alim misallı, bir şair xəyallı, bir aşıq suallı, qüdrətdən ustad yaranan Ələsgər!

Aşıq olub diyar-diyar gəzənin,
Əvvəl başda pür kamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Bu qaydaynan dünyanın kamalına sığıal çəkə-çəkə bəşərin şöhrət dəftərinə qızıl hərflərlə yazıldı Aşıq Ələsgər. Amma biz nəsillərə elə gəldi ki, bu iki ad qoşa yaranıb əzəlindən. Aşıq Ələsgər deyəndə Göyçə, Göyçə deyəndə Aşıq Ələsgər düşdü yadımıza. Təbiətlə cəmiyyətin timsalında əkiz doğulmuşlar kimi!

Bax beləcə 150 il keçmişdi onun yarandığı gündən. Yer üzündə çox işlər olmuşdu bu müddətdə. Həyat öz axarında davam etdikcə sənət tarixinin səhifələrində çoxlarına xatirə nişanəsi qoyulmuş, neçəsinə əzəmətli heykəllər yapılmış, fəxri adlar verilmişdi.

El gözündə Ağrı dağına dönən ustad Ələsgərin ana yurdu Göyçə mahalında isə onun kasıb, müqəddəs məzarından qeyri bir xatirə nişanəsi yox idi.

Bir əsr yarım keçmişdi onun dünyaya göz açdığı gündən. Azərbaycan elləri Ağkilsə kəndinə bu minvalla axırdı ümman kimi. Aşığın doğma kəndində onun yer üzünə gəlişinin 150 illiyini qeyd etmək üçün.

Gözəl bahar idi o bahar. Yaman sevinirdi Göyçənin Həcər soylu qızları, qeyrət timsallı ər oğulları. Bir də onunçün sevinirdilər ki, Aşığın məzarının üstünə qoyulmuş büstü açılacaqdır. Nə yaxşı ki, yaddan çıxmamışdı ustad! Bu nə böyük səadət!

Telli sazın şadlığı yerə-göyə sığmırdı. İnsan axınını tuta biləcək elə bir ötrü mövcud olmadığından, bu şadlıq, bu şadyanalıq Göyçə baharının füsunkar qoynunda açıq havada, günəşin zərrin şüaları altında keçirdi. Bi mənzərəyə təkcə insanlar tamaşa etmirdilər. Ona qəlbi dağlar özünün əzəmətli əks-sədasıynan, qoca qartal göylərə yetəcək qıyıynan, xınalı kəkliklər məlahətli ötüşüynən, köhlənlər Qırat timsallı kişnərtisiynən qoşulurdular.

150 il bundan əvvəl dünyaya bir Ələsgər gəlmişdi. Bu əsr yarımın xatiratı belə keçirdi Göyçə mahalının Ağkilsə kəndində.

Xanəndələrin zənguləsi, aşıqların avazı dərələrdə kükrəyən çayların səsinə qarışıb dostu şad, düşməni məlul eləyirdi.

Kəlbəcər yaylaqlarından əlləri əsa görməyən 100 yaşlı nuranilər gədikləri pay-piyada aşıb gəlirdilər bu taya. Hələ ilməsinin sirri heç bir alim, heç bir bilici, heç bir münəccim tərəfindən açıla bilməyən əsrin yaşıdı ağbirçəklər əllərində toxuma hədiyyələri zirvələrdən qıvraq addımlarla Ağkilsə dərəsinə axışırdılar. Al yanağının odu yenicə sərnəmiş ağ duvaqlı bir gəlində kəlağayısının ucunu ehmalca üzündən atıb, qulac saçlarından üç tel ayırıb onu Dədə Qorqudun cürəsinə bənzətmiş, bir qıyqacı baxışnan könül həmdəmini süzüb astaca Ələsgərdən gümüldənmişdir.

Göz-gözə baxanda məhəbbət ilə,
Ciyər alışmağın nə damağı var!
Ortalıqda işvə, qəmzə, naz ola,

Küsüb-barışmağın nə damağı var!

Könül müştaq ola xətti-xalına,
Mələkə şəklinə, mah camalına,
Alma kimi yanağının alına,
Gözün sataşmağın nə damağı var!

Ömürlərinin ən bəxtəvər günlərinə saxladıqları sadə sığallı geyimləriylə bəzənən el qızları min naz ilə sıralanıb, sünbül saçaqlı kipriklərinin daldasında bığ yeri yenicə tərləyən ər oğullara sarı boylananda bir nəzərdən neçə sinələr birdən oxlanırdı, neçə könüllər birdən yaralanırdı. Hardasa bir igid də fürsət ələ düşən kimi gözaltısını bir Ələsgər kəlamıyla kəməndə salmaq, yerindəcə ovlamaq istəyirdi.

Səni görən aşıq düşməz həvəsdən,
Əl götürməz bu söhbətdən, bu bəhsdən,
Müxtəsəri meylin dönə hər kəsdən,
Gözündə nur, cəsədində qan olmaz.

Qüdrətdən çəkilib qaməti şahbaz,
Sən gələn yollara üzüm payəndaz,
Mən ölüm, aç üzün, çox eyləmə naz,
Göz gözə baxmasa mehriban olmaz.

Deyirlər baharın, bax o xoşbəxt günündə Göyçə mahalının elə bir evi olmayıb ki, orada qonaq süfrəsi açılıb, hər qapıda da erkək kəsilib, kabab çəkilib. Hər eyvandan saz səsi gəlib “Cəlili”nin, “Göyçə gülü”nün, “Sarıtel”in, “El havası”nın, “Ruhani”nin ürəkləri yerindən oynadan sədaları ərşi-əlanı xanəsindən titrədib. Kim nə deyibsə, Ələsgərdən deyib. Kim nə oxuyubsa, Ələsgərdən oxuyub. Kim nədən yazmaq istəyibsə, Ələsgəri vəsf edib.

Mən necə eyləyim, güman, Ələsgər,
Bir də yetirərmi zaman Ələsgər?
Qərib elli Növrəs İman, Ələsgər,

Xalqımın şöhrəti yadıma düşdü.

Bir vaxtlar Xəstə Bayraməlinin qələmindən süzülən bu mənəvi dəyərin sədasıydı Ağkilsə kəndində bu azman məclisi, ucu-bucağı görünməyən yığnağı zöhr edən o məclisdə hər obanın öz sözü, öz söhbəti. Hər kəsin öz nitqi, öz tövsiyəsi, öz hədiyyəsi vardı.

Dəli dağın qoynunda ayna bulaqların dirilik suyundan sonsuz pərvəriş tapan əsrin yaddaşı Cünun nəfəsli bir ağsaqqal üzünü Kəlbəcər yaylağına tutub əzəmətli nitqini hər iki mahalın dağlarına qoşurdu.

Kəşt elədim, bu dünyanı dolandım,
Kəlbəcərin xeyir-şəri yaxşıdı,
Məscid minarəsi, məktəbxanası,
Torpağı şirindi, yeri yaxşıdı.

Züleyxa təmkində gözəllər hamı,
Siması, libası qurğu nizamı,
“Qardaş” – deyib dindirirlər adamı,
Hörmətləri, mərfətləri yaxşıdı.

Hasanalı Kəlbəcərdə bir xandı,
Zümrüd gəlməlidi, fəsih zəbandı,
Kamal kamandarlı, atıb-vurandı,
Qovğa günü iyidləri yaxşıdı.

Dağlar qoynunda boy atıb, ilkin nəfəsini dağlardan alan dağlar oğlunun dilində də Ələsgərin dağları əzbər olub. Sanki o böyük ustadın da eyni dağlarla tutulub açılar, zirvəsi onunla bahəm dumanlanıb aydınlaşarmış.

Deyirlər baharın o bəxtəvər günündə dili yenicə uyuşan 3 yaşlı bir uşaq dədəsindən təvəqqə edibmiş ki, - “Bu gün o əmilərin yanında mən də Ələsgər babamdan söz demək istəyirəm!…”

Bahar fəsli, yaz ayları gələndə,

Süsənli, sünbüllü lalalı dağlar.

Yoxsulu, arbabı, şahı, gədanı,

Tutmaz bir-birindən aralı,dağlar!

Bax belə keçirdi bu bahar günlərinin birində Ələsgərin məclisi. Onu da dyirlər ki, Göyçə mahalının dağlarında görünməmiş bir iş olubmuş o gün. Daim dumanlı olan zirvələrdə bircə şənbə də bulud görünməyibmiş. Harda gizlənibmiş, hara qeybə çəkilibmiş, bilmirəm, amma beləymiş. Məclis əhlinin arasında bizləri istəyib-istəməyənlər varmış. Mənfur erməni daşnaklarından gur səslərdə söylənən alovlu danışanlar da olubmuş. Qədim Azərbaycan torpaqları olan İrəvan çuxurunun hər tərəfindən təşrif buyuranlar çox imiş. Bu gün onlar Ələsgər məzarının abadlığından, böyük sənətkarın qəbri üstündə açılacaq layiqli göz görkəmindən müxtəlif mənalar da söyləyiblərmiş.

Qəribə gün imiş o gün. Nurani bir qoca mənə söylədi ki, kürsüdə bu “dostluqdan”, bu qədirbilənlikdən müəmmalar söyləyən erməni nümayəndələrindən, pünhanda təsadüfən müxənnətlik tədbirləri eşidibmiş. O gündən bəri qəlbimin ən yaralı guşələrində sızıldayan bu məna bilmirəm hardan düşdü yadıma. Amma bircə onu bilirəm ki, bu gün Vətən təəssübünü göy əsgiyə bükən bu qiylü-qalların tədbiri çoxdan tökülürmüş.

Görəsən, niyə belə yaradıb bizi yaradan. Tarixlər boyu başımız nə qədər bəlalar çəkibsə, müxənnətdən nə qədər müxənnətlik görmüşüksə, ara sovuşan kimi sadəlövh qəlbimizin aldanışı yenə də ömrümüzü qeylü-qala qovuşdurub. Lakin bu mənada biz nəsilləri ulu babalarımızla müqayisə etmək yalnız sadəlövhlük olardı. Onlardan bizlərə qalan mənəvi miraslar isə belədir:

– Vətən deyəndə torpaq, torpaq deyəndə namus, namus deyəndə isə damarlarımızdan axan al qırmızı qan söylənir! Bunların isə yalnız və yalnız sonuncusundan köçmək olar.

Fəqət, bir şeyi bilmək istərdim. İndi Yeravan adlanan qədim İrəvandan üzü bu yana torpaqlarımızın darala-darala Xəzərə sarı gəlməsində biz kimi günahlandırmalıyıq? Bir qarış torpaqdan ötrü canını verib qanını tökməyə hazır olan ulu bir xalqı dəstə-dəstə sürülərə döndərib ağzını qayalara diriyən Vətən

oyunbazlarınımı? Kim bilir, bəlkə illərdən bəri bizləri cılızlaşdıran bələlərinə qarşı pərakəndə mübarizədə mənim xalqımın da özünəməxsus günahı vardır?!

Qoy ulu Ələsgər məni əfv etsin, söhbətimin səmtindən yayınmamışam, məqsəd həmin məqsəddir.

Göyçə baharının o xoş günündə qüdrətli el aşığına yapılan görüm nişanəsi haqqında söylənən “dostluq qədirbilənliyindən” gurultulu nitqləri dinlədikcə, anamız Bakıdan tutmuş Azərbaycanın ən ucqar nöqtələrinə qədər düzüm-düzüm düzülmüş yaraşıqlı heykəllər yada düşürdü. Neçə imperiya qəhrəmanı, neçə-neçə kafərlərin ağır xərc bahasına başa gələn “simvolları” xatırlanırdı.

Kimdir onlar? Adlarını saymaqla qurtarandımı?!

Yer üzündə beynəlmiləlçilik kəlməsini bizim qədər bayağılaşdıran ikinci bir nəsil tanımıram. Yaxşı, bəs onda vətənpərvərlik nədir görəsən?

Beyinlərimizi dəhşətli bir sual daim keyləşdirib, özümüzü özümüzə düşmən kəsdirib.

**Haralısan?**

Görəsən, dünyada öz arasında bu sualı bizim qədər işlədən və onun zəhərini, mənəvi və siyasi acısını dadan ikinci bir xalq mövcuddurmu?

Qoy oxucular elə bilməsinlər ki, ustad Ələsgərin o əsr yarımlıq ildönümünü öz səhifəsinə yazan tarixi gündə bu sualların səbəbini öyrənmək istəyən yox idi.

Yox, var idi. Onlar yenə də qayğılarını pünhanda gizlətməyi bacaran cəfakeş göyçəlilərin baxışlarındakı dərinliklərdə zöhr edirdi.

İllərlə din içində din bəsləmişdi Göyçə mahalı. Addım-addım əldən çıxan İrəvan çuxurunun əldən alınma tədbirləri ucqar nöqtədə dirənib qalmışdı. Bura ellərimizin toplu şəklində yaşayan yeganə sərnəsiydi. Coğrafi nöqteyi-nəzərdən Gədəbəyi və Kəlbəcəri düşmən gülləsindən qoruyacaq, dar macalda onları qəflətdən ayıldan, namərd hiyləsini anladacaq yeganə arxaydı. Amma yadlar halalca Qarabağımıza gözlərimizin qabağında ildən-ilə sahib çıxarkən, bizlər Azərbaycana ərazi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edən doğma Göyçə mahalına dərindən qayğıkeşlik göstərə bilməmişik.

Əlbəttə, bunun ağrılarını hələ sonralar çəkəcəyimiz indidən bəllidir.

Bilmirəm, Aşıq Əmrahın, Hüseyn Saraclının, Xındı Məmmədin narahat ruhu dolaşan Borçalımızı da bu minvalnanmı qoruyacağıq?

Xəyalım həmin xəyal, mətləbim həmin mətləbdir. Söz açdığımız həmin o baharın nurlu günündə deyilənlər deyilib, yazılanlar oxunandan sonra ustad Ələsgərin məzar görkəmində balaca bir büst açıldı.

Göyçə camaatı heç vaxt naşükür olmayıb taleyin qismətindən. Məgər ürəklərdə dağlardan uca heykəli yoxdurmu Aşıq Ələsgərin?! Neynək buna da min şükür.

İstər dara çəkdir, istəer qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm,
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.

Firqətindən saralıban, solanam,
İzin versən, yar, başına dolanam,
Əlli yol çapılam, yüz yol talanam,
Bir şey döyül dövlət-mal, incimərəm.

Ələsgərəm, yandım eşq atəşində,
Gözüm qaldı kipriyində, qaşında,
Qazdır məzarımı çeşmə başında,
Sal sinəmi üstündən yol, incimərəm.

Beləcə də bir az şenələn kimi oldu Dədə Ələsgərin məzarı. Obaların, oymaqların qibləgahına döndü bu səcdəgah yer. Neçə bahar keçdi o vaxtdan. Günlər bir-birin əvəz etdikcə o yerlərə gələn böyük də, kiçik də qoca da cavan da, yerli də, əcnəbi də böyük ustadın bu balaca büstünə baş çəkməmiş geri dönmədi. Göz bəbəyi kimi qoruyurdu göyçəlilər onu. Yadı da, doğması da, uzağı da, yaxını da gözləriynən qoruyurdular bu məzarı.

Çox fırtınalar görüb yarandığı gündən Göyçə mahalı. Çox bəlalar çəkib onun başı. Neçə-neçə qasırğalardan keçib, tufanlardan addıyıb. Amma son illər kimi illər görməyib.

Əzəl gündən tarixin qəribə qanunları var. Bəzən əcaib-qəraib varlığın siyasət meydanında təsadüfi gəlişiynən dünya dəyişir, müxənnətlər aləmə meydan oxuyur, mərd namərdə möhtac qalır.

Qədirbilməz nakəslərin də öz şakərləri var. Onlar həmişə pusquda dayanıb səmt küləyinin əsməsini güdürlər. Elə ki, əsdi, bax, onda çirkin niyyətlərin törətdiklərini təsəvvürə sığışdırmaq çətin olur.

Dünyanın bütün dövrlərində nakəs həmişə nakəs olub. Amma onların ən dəhşətli işlərini görmək biz nəsillərin payına düşdü.

Zaman-zaman torpaqlarımızı qarış-qarış itirdikcə, bu keçməkeşli günlərimizdə azman sərnələrimizi yadlar qamarladıqca, tarixi abidələrimiz məhv edildikcə bu biganəliyimiz özümüzə çatmadı…

Lakin sən demə, müxənnət dünyasının heç kəsin ağlına gəlməyən bəd əməlləri varmış. Belə əməl ki, ona lənət oxumaqla, ağılar söyləməklə ürək soyumaz.

Dünyada çox müharibələr olub, çox qalalar sökülüb, çox odlar ələnib. Amma heş yerdə belə görünməmiş xəyanətlər törənməyib. Bu gün ataları davada həlak olmuş oğullar onların məzarını uzaq-uzaq ölkələrdən axtarıb tapırlar; fəqət, bir neçə addımlıqda lap yaxın qonşuluqda dünya mədəniyyəti tarixinə qiymətli incilər bəxş edən böyük sənətkarların doğma ocağına yiyələnmək az imiş kimi, onların məzarlarına baş çəkməyimiz bizim üçün əlyetməzliyə dönüb.

İndi bizim həsrətimizə dönən ulu Göyçədə Miskin Abdalın, Aşıq Ələsgərin, Aşıq Alının, Xəstə Bayraməlinin məzarları murdar düşmənin tapdağında qalıb. Beləcə əsir olub onların son nişanələri müxənnətə.

Mən bu yazımda Sayat Novanın adını çəkməyi arzulamazdım. Lakin söz-sözü, mətləb-mətləbi çəkər, deyib babalarımız. Nədənsə, “Gəlin dost olaq”, “Qardaş olaq” – deyə güc-bəlaynan onların yaxalarını çəkdiyimiz vaxtlarda biz həmişə Ələsgərlə Sayat Novanın adını haradasa qoşa çəkməyə çalışmışıq. Həm də

onların birinin bir, digərinin isə başqa bir xalqın nümayəndəsi kimi. Əslində isə bu məsələnin çox dərin, səmimi və bir qədər də cəsarətli tədqiqata böyük ehtiyacı var.

Əvvəla, Sayat Novanın adındakı məna çalarından tutmuş onun həyat vərdişlərinə qədər türklüyə xaslıqdan qeyri bir əlamət görünmür. Eyni zamanda aşığın hər üç dildə yazdığı şeirləri saf-çürük edəndə onun sənətkarlıq səviyyəsi yalnız Azəri dilində söylənən qoşqularında təzahür edir. O ki qaldı bizim bariz fikrimizcə, çox maraqlı, mürəkkəb və orijinal janr xüsusiyyətlərinə malik olan təcnis sırf Azəri ədəbi-bədii mühiti ilə bağlıdır. Hətta oqədər ki, ən kamil tərcüməçilər belə onu bizim dildə qeyri dilə tərcümə etməyə çətinlik çəkir, bəzən rədif qafiyələrin bizdə olduğu kimi, başqa dildə səslənməsini qeyri-mümkün hesab edirlər. Əgər belədirsə, Sayat Novanın dərin mənalı təcnislərinin qeyri azəri tərəfindən yazılmasına inana bilmirik.

Uzaq Almaniyada, müəmmalı Amerikada dahi şairimiz Nizaminin azəriliyinə şübhə edilmədiyi vaxtlarda bizim bu kor “qonşularımız” mətləbə dəxli olmayan söhbətlərə belə gözügötürməməzlik edib, illərlə onu qeyri-azərbaycanlı kimi qələmə vermək üçün dəridən-qabıqdan çıxıblar. Bizlər isə əldə kifayət qədər fakt olduğu halda, qeyrisinin yiyələndiyi sənətkarımız haqqında dərinə getməkdən çəkinmişik.

Sənətkar həmişə sənətkardır. Özü dünyada olmasa da, Ələsgər kimi qüdrətli aşığın bəşəri ideyalar səpkisindəki tərənnümləri bütün yer üzünün mənəvi sərvət payıdır. Ələsgərin zəngin yaradıcılığı bütün bəşəriyyətin tükənməz sərvətidir. Aşıq sənətimizi öz uca adıynan dünya mədəniyyəti zirvələrinin sonsuzluğuna ucaldan ustad cəmi ellərin aşığı, bütün mahalların dilinin əzbəridir. Humanist ideyaları, qiymətli təşbehləri və insani nəsihətləri ilə bütün yer üzünə kamillik dərsi öyrədən Ələsgərin məzarını da məhbus eləmək dünya mədəniyyətinə xəyanət kimidi. Bu isə bizim tərəfimizdən Ələsgərin yurduna, yuvasına, doğma ocağına qəsd etmək ideyaları ilə hesablaşmaq deməkdir. Ulu Göyçənin torpaq nişanələrinə əl uzatmaq düşmən sarıdan bəşəri müqəddəsliyə kor niyyətlərlə baxmaq deməkdir…

Bu adi bir cinayət deyildir. Bu, bəşərin gözü görmədiyi, heç bir qanun məcəlləsinə sığışmayan müxənnətlik deməkdir.

Keşməkeşli günlərimizdə bu müxənnətliyi də gördü Göyçə mahalı. Elə onunçun də nə müddətdi dağlarını duman alıb onun. Yalçın qayalarda öz dərdini pünhan çəkən qoca qartal səsinin əks-səda verəcəyindən çəkinir. Göllərdə sonalar sahildən uzaqlaşıb, dərələrdə çayların səsi kövrəkləşib.

Bəşərə Ələsgər kimi neçə dərya kamallı sənətkar bəxş edən Göyçə mahalı zamanın zülmündən elə qəhərlənib ki, üstünü alan dumanda göz-gözü görmür. Orda gözəllərin müjgan oxu əvəzinə ər oğulların sinəsini namərd gülləsi yaralayıb açıb. Tarixlər boyu  başı min bəlalar çəkmiş Göyçə mahalı bu ağır günlərdə müxənnət əliynən elə dağlanıb ki, bu ağrını yarandığı gündən bəri qoca dünya çəkməyib.

Biz isə hələ ki çəkirik…

Neylək, qoy belə olsun. Qoy biz nəsillər bunu da görək, amma tarixin səhifələrinə silinməz və pozulmaz yazılarla həkk edək. Vaxt gələr, onun hər sətri bir qaya parçasına dönüb müxənnətlərin üstünə yeriyər, gələcək nəsillərimiz isə bizləri qınaya-qınaya “Qana-qan! İntiqama intiqam!” nidalarını qəhrəmanlıq nəğmələrinə qoşub ellərə yayarlar.

Haqq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun,
Insanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-cəlalı varıymış.
Atəş alıb çox da yanma, Ələsgər,
Sənətində heç usanma, Ələsgər,
Öz-özünə qubarlanma, Ələsgər,
Dünyanın Urustam-Zalı varıymış.

Bəli, indi ulu Göyçə namərd düşmən əlindədi, əziz oxucum.

Bax bu dərdi, bu möhnəti sona qədər susmaqla çəksək, Ələsgər kimi ulularımızın ruhu bizi bağışlamaz.

Qoy mənim bu haqq səsimi beşikdə yenicə uyuyan körpələrimiz də eşidib qulaqlarında sırğa etsinlər...

## ULU GÖYÇƏNİN SON DASTANI

Tarixlər boyu başı min bəlalar çəkən ulu Göyçənin hələ neçə deyilməmiş sözü, açılmamış sirri, yazılmamış dastanı var. Bir-birindən ağır zamanlar görən bu qədim diyar illərin qoynunda din içində din bəslədikcə kafər zülmünə, düşmən xəyanətinə mərdliklə sinə gərdi.

Və bu yolda nə qədər itkilər verdisə, qanlı səhnələr gördüsə, yenə son anda yadlar önündə əyilmədi, özünü tox tutdu. Bir tərəfdən arxasızlıq, köməksizlik, bir yandan da başına gələnləri nəinki yazıya almağa, hətta dilində izhar etməyə belə qoyulan qorxu, qadağa…

Bütün bunlar zaman-zaman, toylu, büsatlı görünən doğma mahalımızın ürəyində nələr çəkdiyini bir özü bildi, bir də ki…

Axı, bəzilərinin düşündüyü kimi, Göyçə mahalı təkcə aşıqlar məskəni deyildi. O həm də comərdlik, əyilməzlik və yenilməzlik nümunəsi olan igidlər, əsl səxavət timsallı xanlar, bəylər yurduydu. Müxtəlif dövrlərdə onlar öz doğma torpaqlarının bircə qarışından ötrü canlarında keçməyə daim hazır idilər.

Fəqət bu yolda verilən qurbanlar, tariximizin səhifələrində gələcək nəsillərimizə örnək olacaq qəhrəmanlıq səhnələri beləcə açılmamış qalırdı.

Bax, bu mənada “Səməd ağa dastanı”nın dünyaya gəlişi ellikcə hamımızın ürəyindən xəbər verən, mənəvi ehtiyacımızdan yaranan bir sənət nümunəsi olmuşdur…

Əsəri oxuduqca köhnə yaralarımız təzələnsə də, Göyçəmizin çoxlarına məlum olmayan qaranlıq səhifələri gözlərimiz önündə açılır, ağır-ağır vərəqlənir. El-obamızın yaxşı tanıdığı şirin dilli şairimiz, folklorumuzun yorulmaz cəfakeşlərindən olan mərhum Əli Qurbanın dastançılıq məharəti burada bir daha özünü biruzə verirdi…

İstər forma, istərsə də məna və məzmun sarıdan böyük maraq doğuran “Səməd ağa dastanı” vahid süjet ətrafında çox mətləblər açır.

Müəllif hadisələri əzəl başdan Növrəs İmanın diliynən nəql edir və dastanı onun adı ilə bağlayır. Bu da əsərə forma orijinallığı gətirməklə bərabər, həm də sənətkar kimi Növrəs İmanın cənubdakı həyat yollarına yenidən nəzər salır, onun şəxsiyyətini, adını, hörmət-izzətini oxucuya yenidən çatdırır.

Sinəm Tiğü xəncər, ox nişanası,
Təbibsiz incidir yaralar məni.
Könlüm olub bayğu viranxanası,
Vaxtsız zimistanam, qar alar məni.

Dilim yaralıdı, istər Abbası,
Başıma vurubdu Əkbər havası,
Uçdu can cəsəddən, yoxdu bənası,
İstər mənzil üçün haralar məni.

Baxtım yan dolandı, taleyim qıyğac,
Bulunmaz dərdim var, tapılmır əlac.
İman bir xəstədi dərmana möhtac,
İstəsə cəngindən yar alar məni.

Həyat və yaradıcılığının hələ çox dərin tədqiqi axtarışlara ehtiyacı olan qüdrətli el sənətkarı Növrəs İmanın sağlığında dediyi kimi, heç olmasa onu özündən sonra yaxşı tanımaq üçün dərin dəryalara baş vurmaq lazımdı:

Arif olan, huş ver sən bu sözlərə,
Namərd bir bəlanı gətirər sərə.
Kimdi səyyah olub düşə çöllərə,
İman kimi gəzə dətin dəryada…(5).

“Səməd ağa dastanı” real tarixi hadisələr zəminində yaranan bir sənət əsəridir və obrazlarının da əksəriyyəti yaxın keçmişimizin və bu günümüzün tarixi şəxsiyyətləridir. Dastanı diqqətlə sərf-nəzər etdikcə, onların hər biri ayrıca bir obraz kimi yenidən hərtərəfli açılır, təzədən öyrənilir.

“…Qadir ağa tələsik ayağa qalxdı, mülayim səsnən, xoş sifətnən. şirin qılıxnan, yağlı dilnən aşığa üz tutdu:

- Aşıx İman, dərdin də, nisgilin də, halın-əhvalın da bizə bəlli oldu. İltimas eliyirəm ki, mümkünsə şux-şən havalardan çal, oxu…

Aşıx İman bu fürsəti göydəndüşmə bildi. “Divani” kökündə olan sazını dərhal sinəsinə çəkdi, aramnan, təmkinnən “Divani” çaldı, ustadnamə oxudu:

Ələstdən bəli deyən sübhana baş endirər,
Məhəmmədə tabe olan Qurana baş endirər,
Özü birdi, adı min bir, vəhdəhü-əl-laşərik,
Əhli mömin görə bilməz, pünhana baş endirər!

Ölməyincə bu sevdadan çətin dönəm, osanam,
Həqiqətdən dərs almışam, təriqətdən söz qanam,
Şahi-mərdan sayəsində elm içində ümmanam,
Dəryaların qaydasıdı ümmana baş endirər!

Biçarə Aşıq Ələsgər, olma elmə nabələd,
Danışanda doğru danış, sözün çıxmasın qələt.
Çox qazansan, az qazansan, beş arşın ağdı xələt,
Mal dövlətə baş endirən əfsanə baş endirər!

– Bəli, mənim əzizlərim, möhtərəm ağalar! Sizə hardan deyim, hardan danışım? Ulu Göyçə mahalından. Göyçə mahalında kimnən? Zoddu Səməd ağadan…”

Bu minvalnan da Növrəs İman “Səməd ağa” dastanının söyləməsinə başlayır və onun haqqında gözlərimiz önündə yeni-yeni səhnələr açılır.

Öz mərdliyi, səxavəti,düzlüyü və comərdliyi ilə ad alan Kəsəmənli Səmədağa həm də müqəddəs torpaq oğlu, yaman gündə üzü dönməyən bir vətənpərvər kimi gözlərimiz önündə yenidən Ağrı dağına dönür. Adi halında daim kasıblara əl tutan, fəqir-füqəraya kömək olan Səməd ağa ulu Göyçənin dar macalında onu düşmən

tapdağından xilas etməkdən, yenidən öz el-obasına qaytarmaqdan ötrü canını da əsirgəmir.

Hadisələrin təfsilatını diqqətlə izləyərkən məlum olur ki, rəhmətlik Əli Qurbani Səməd ağa obrazını birtərəfli işləməyib. Bir zamanlar Dədə Ələsgərin:

Naxçıvan xanları, Şərur bəyləri,

Saxada Səmədə qul ola bilməz.

- misralarındakı konkret təsvirindən tutmuş, ta Səməd ağanın ölüm səhnəsinə qədər keçdiyi həyat yolunu olmuş hadisələrin nəqliynən böyük səbrlə ayrı-ayrı konkret süjetlərlə bizə çatdırır. Son anda namərd hiyləsinə aldandığını və artıq geriyə qayıtmağına heç bir ümid yolu qalmadığını biləndə belə, yenə öz təmkinini pozmur, düşmən qabağında vüqarını sındırmır.

İllərdən bəri hamımızı dəhşətə gətirən Aşıq Nəcəf faciəsi də müəllif tərəfindən yeni faktlarla açıqlanıb. Qarı düşmən onun kürəyinə qaynar samovarı bağladığı anlarda Nəcəf mərdi-mərdanə dayanır, kimsədən aman isrəmir. Lakin belə halda o üzünü dağlara tutub giley-güzarını ona söyləyərkən belə, bir varlıq kimi özü də dağlarla qoşa dayanır. Düşmənin görünməmiş xəyanətilə yanıb pörşələnən Aşıq Nəcəf, sözün əsl mənasında, əyilməz və yenilməz bir qəhrəmanlıq obrazı kimi tarixlərin silinməzlik yaddaşına köçür. Bu qanlı səhnədə Səməd ağa ilə Aşıq Nəcəf insan gözündə nə qədər böyüyürsə, qəddar erməni generalı və onun ətrafındakılar o qədər alçalır, rəzilləşir. Özü də müəllif bu ağır səhnəni qələmə alarkən, heç bir saxta emosional hissə qapılmayıb, bu tarixi hadisəni reallığıynan göstərmyə çalışıb.

“Alovun dilləri samovarın borusundan yuxarı qalxırdı. Bir qədər aralıda böyük otaxdan çıxan çiyni çinni, dolu əndamlı erməni əllərini belinə qoyub tamaşa eliyir, bu mənzərədən həzz ala-ala qürrələnirdi.

…O, tapançasını oynada-oynada, uca səsnən dedi:

- Oxu, ay Göyçənin şeyda bülbülü! Qoy bizim arvad dinnəsin, həzz alsın!

Aşıx Nəcəf gözünü dolandırdı, Göyçənin hər axar-baxarını nəzərdən keçirdi, hələ görünməmiş uca səsnən, şirin avaznan, şıqqıltılı zənguləynən oxudu:

Amansız bir çağla vidalaşıram,

Sana qurban gedir canım, a Göyçə.
Hüsnünə baxdıqca doluf daşıram,
Şöhrətim a Göyçə, şanım a Göyçə.

İmansız millətin dilinə düşdük,
Şeytan felinnən bəd felinə düşdük,
Nadan yağıların əlinə düşdük,
Bax, belə yanırıx, yanım, a Göyçə.

Yekəpər baxdı ki, Səməd ağa susdaldı. Ürəyi dayanmış, bağrı çatlamışdı ağanın. Bayaxkı şillənin zərbəsinnən sifətinin sızıltısı hələ də kəsməmiş Abelyan hay saldı ki, bəs, bir balaca şillə vurdum, ağanın ürəyi getdi. Bunnan da bu kor şeytan, qara tülkü vurduğu şillənin əvəzinə ağanın üstünə ad qoydu ki, Səməd ağa bir şillədən ölüf…"

Göyçənin görkəmli şəxsiyyətləri arasında haqqında daha çox deyilən, yazılan və söhbətlər açılan qüdrətli saz, söz ustadı Aşıq Ələsgərin ömür kitabından müəllif bizə yeni səhifələr vərəqləyir. Göyçənin yerindən oynadığı o vaxtlar qonşu Kəlbəcər elində dəyirmançılıq edən Dədə Ələsgərin eldən-obadan, doğma yurd-yuvadan, eyni zamanda, Səməd ağadan, Aşıq Nəcəfdən sarı narahatlığı yerə-göyə sığmadı. Sən demə, daim başına gələnləri qabaqcadan duyub hiss edən bu haqq vergili sənətkarın gecəli-gündüzlü nigaranlığı əbəs deyilmiş.

Bu mənada, guya ermənilər tərəfindən barışığa çağrılan Səməd ağanın onunla məsləhətə gələrkən, təsadüf nəticəsində görüşə bilməmələri və Aşıq Ələsgər bunu eşidərkən təlaş içində oğlu Bəşiri onun arxasında göndərməsi səhnələri də dastanın ən gərgin və qeyri-adi maraqla izlənən yerlərindəndir. Oxucu burada artıq iş işdən keçdiyini, Səməd ağanın düşmən hiyləsinə düşdüyünü, gərgin konfliktlərlə dolu səhifələri həyəcansız izləyə bilmir.

Beləliklə, əsl qəhrəmanlıq dastanı olan bu əsərin ana xəttində bir-biri ilə bağlı müxtəlif amillər dayanır.

Vətənpərvərlik, torpağa bağlılıq, el-oba, yurd-yuva istəyi. Bu yolda mərdlik, yenilməzlik və üzüdönməzlik göstərən tarixi şəxsiyyətlərin bütövlük rəmzi.

Bunların fövqündə isə çox cılız, iyrənc, rəzil, alçaq və murdar görünən erməni işdəkləri.

Müəllif bir-birini izləyən olmuş hadisələr axınında bunu ustalıqla, sadə, aydın və axıcı bir dillə qələmə alır. Sonralar Səməd ağa nəslindən olanların Gəncədə məskən salıb onun adına layiq həyat yollarını davam etdirmələri dastanın daha yeni, maraqlı və nikbin sonluqla tamamlanmasından xəbər verir.

Əlbəttə, bütün bunlarla belə, hər yeni yaranan sənət əsəri kimi, "Səməd ağa dastanı" da nöqsanlardan xali deyil.

Qeyd etdiyimiz kimi, bu dastandakı təsvirlər keçmişimizdə baş verən tarixi hadisələrdir, həmçinin obrazlar da beləcə tarixi şəxsiyyətlərdir. Ona görə də təsvir olunan əhvalatlar və onun iştirakçıları barədə söz-söhbətlər real həyat hadisələri zəminində inkişaf etməlidir. Belə olan halda, bəzən müəllifin Aşıq Ələsgərin adına şeirlər yazması qətiyyən məqsədəuyğun deyildi. Bu, oxucuları çaş-baş sala bilər. Doğrudur, əhvalatları nəql edərkən Əli müəllim hadisələr arasında bağlılıq yaratmaq üçün məcburən bu üsuldan istifadə etmişdir. Amma bütün hallarda bu, məqbul sayıla bilməz. Gərək müəllif Dədə Ələsgərlə bağlı səhnələri bir qədər konkret işləyərək yalnız onun sözlərindən istifadə edəydi. Əks təqdirdə bu, böyük zəhmətlər, axtarışlar sayəsində başa gələn "Səməd ağa dastanı"nın ən başlıca nöqsanı sayılmalıdır.

Göyçə qarannıxdan zülmətə düşdü,
Neçə şölə verən çırağı getdi!
Düşdü yaraşıxdan el məclisləri,
Büküldü şənniyin varağı getdi!
Səmədin qəlbiydi incədən-incə,
Yağı bəhrələndi ala çəkincə,
Yollandı səfərə öz ürəyincə,
Ellərə ölümün sorağı getdi!

Nəcəfsiz ağlıyar, gözdərim gülməz,
Durnam qatarına bir də düzülməz.

Ölüncə daranmaz, sığala gəlməz,
Könlümün telinin darağı getdi!
Yaman sırıx tutdu şeytanın fəndi,
Üzüldü qəlbimin qırılmış bəndi.
Mən tək qara geysin Kəsəmən kəndi,
Ağlasın Qazağın qırağı getdi!

Günahım nə oldu haqq qavağında,
Bağrım tamam yandı fələk dağında!
Ələsgər neynəsin düşgün çağında
Əlinin hasası, yarağı getdi!

Göründüyü kimi Əli Qurbanın böyük aşığın adına yazdığı şeirlər Ələsgər üslubuna tamamilə yaddır və dastanda – bir növ, yamaq kimi görünür…

Bariz nümunə üçün Aşıq Ələsgərin eyni rədifli bir qoşmasına diqqət yetirək.

Adladı gül fəsli, gəldi zimistan,
Xəzan vurdu, bağlar soldu da getdi.
Seyitbazlıq edib, şərab içənlər,
Canını odlara saldı da getdi.

İrvəni-sələmi halal bilənlər,
Orucdan, namazdan kənar olanlar,
Mənşər günü üzü qara gələnlər,
Nuri-cəhənnəmə daldı da getdi.

Aldanıb dünyanın cah-cəlalına,
Haram qarışdıran öz halalına.
Xəyanət eyləyən qonşu malına,
Haqqın divanında qaldı da getdi.

Sol əldə kağız var, sağ əldə qələm,

Bir yanda nəsə var, bir yanda ələm,
Ələsgərtək şirin zəban, xoş kəlam,
Bivəfa dünyaya gəldi də getdi.

Mövzusundan asılı olmayaraq eyni rədifli hər iki şeirin üslub və sənətkarlıq fərqi göz qabağında olduğu üçün izahatın dərinliyinə getməyə ehtiyac duymuruq…

Bundan əlavə, tədqiqatçılarımıza yaxşı məlumdur ki, Aşıq Nəcəfin özünün, oğlunun, qohum-qələvəsinin və yan-yörəsinin ermənilər tərəfindən əsir alınması, görünməmiş zülmlərə məruz qalması və nəhayət, qəddarcasına məhv edilməsi barədə fikirlərin haçalandığı vaxtlar olub. Bu nöqteyi-nəzərdən gərək müəllif daha dərin axtarışlar apara, zaman və məkan baxımından ayrı-ayrı adamlardan bu işlə bağlılığını təfsilatı ilə öyrənib, dastana daxil edəydi.

Əgər belə olsaydı əsər daha dolğun, inandırıcı və real alınardı.

Doğrudur, dastan yazılan zaman bunun çətinliklərini təsəvvür edirik. Onda nə qədər vaxt idi ki, Göyçə yerində deyildi. Onun sakinləri pərən-pərən düşüb, bir-birlərindən xəbər tuta bilmədən ayrı-ayrı yerlərdə məskunlaşmışdılar. Belə vəziyyətdə bu hadisələrdən az-çox xəbəri olan adamları axtarıb tapmaq çətin idi.

Lakin bununla belə, tariximizin bu günü və sabahı naminə çox böyük əhəmiyyətə malik olan bir dastanın oxuculara çatdırılmasında tələsikliyə yol vermək məqbul deyildi.

Heç şübhəsiz, bütün bu nöqsanlarla yanaşı, mərhum Əli Qurbanın “Səməd ağa dastanı” ulu Göyçənin ədəbi mühitində mühüm hadisəydi. Belə ki, ilk yazılı variant kimi bu əsər gərgin zəhmətlər, axtarışlar bahasına başa gəlmişdi…

## AŞIQ HÜSEYN BOZALQANLI

Yarım əsrdən çox xalqımızın ürək sözlərini, sevinc və kədərini tərənnüm etmiş ustad aşıq, respublikanın əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar ittifaqının üzvü Hüseyn Bozalqanlı özündən sonraya böyük irs qoyub getmişdir. Onun söz çələngindən oxuculara çox az şey məlumdur. Axtarışlar, tapıntılar göstərir ki, el şairinin külli miqdarda şeirləri, ondan çox dastanı, bir neçə hekayətləri var. Bəs bu məlum olmayanlar hardadır? El ağsaqqalları müdrik babalarımızın, nənələrimizin sinəsində, qəlblərin yaddaş dəftərində.

El ədəbiyyatını sinələrində gizli bir xəzinə kimi gəzdirən və Aşıq Hüseyni tanıyan ağsaqqallar onun haqqında çoxlu rəvayətlər, xatirələr danışırlar…Uşaqlıq illəri Kür boyunca uzanan yaşıl meşələr qoynunda keçmiş, yarpaqların həzin nəğmələrini dinləmiş, saz tutub, söz qoşmağa başlamışdır.

İlk mövzuları bulaqlar başında dəstə-dəstə gəzən gözəllər olub. Onların şirin qəhqəhələri, nazı-qəmzələri, vəsfi-halları şairin misralarında tərənnüm edilir.

Bir gecə mən sənə mehman olanda,
Sən məni istədin, ha mən də səni,
İlqar verib, dönüb biilqar olsan,
Məzəmmət eyləyə həm onda səni.

Qol boynuna salıb, sənə söz dedim,
Namə ha yazmadım, üzbəüz dedim,
Vədə verdin, üç saata gözlədim,
Səkkizdə, doqquzda, həm onda səni.

Hüseyn deyər mətləbinə çataydın,
Məclisimdə xoş ixtilat qataydın,
Həmişəlik eyvanımda yataydın,
Gəlib tapaydılar ha məndə səni.

Lakin çox keçmir ki, yoxsulluq, ağır güzəran, kənd koxasınım zülmü, el şairini sarsıdır, evləri yandırılır. Balaca Hüseyn müqavimət göstərəndə həbs edilir. Üç ilə yaxın sorğu-sualsız, qamçı altında, soyuq daşlar üstündə yatır. Köməksiz olan şair o zamanlar:

Əziziyəm ay ata,
Oğlun ölür, ay ata,
Başım cəllad əlində,
Sözüm keçmir həyata:

- deyə şikayət etməyə başlayır. Yaşının az olması ilə əlaqədar şairi həbsxanadan azad edirlər. Lakin ona yenidən dalbadal zərbələr dəyir. Atası öldürülür, bəzi qohumları incidilir, özü isə həmişə nəzarət altında yaşayır. Şair bu acınacaqlı həyatı zamanda görür:

Müxənnət zamana, beymürvətə fələk.
Qoymadı mətləbim, bir aləm indi,
Gözüm açdım qərinələr dolandım,
Görünür gözümə bir aləm indi.

Kamil bağban bağçasını suvara,
Plan çəkə, kanal vura, su vura,
Bir şah gördüm səməndinə suvara,
Tutmuşdu dəstində bir aləm indi.

Hüseynəm, əlimdən uçdu tərlanım,
Qırdı şikar bəndi, qaçdı tərlanım,
Uca dağ başını aşdı tərlanım.
Getdi qürbət eldə yad ələ mindi.

Artıq gənclik çağlarına dolmuş, çılğın təbiətli, kəskin sözlü şair həyata açıq gözlə baxır. Duyğuları, düşüncələri yaratdığı qoşmalarda öz əksini tapır.

Xəstə cismim bir cananın ucundan,

Yanıb atəşlərə əriyir, Lalə,
Hicranın ləşkəri, qəmin sultanı,
Saf çəkib, üstümə yeriyir, Lalə.

İstəyirəm qədəm qoyum elimə,
Qaşlarıyla qıfıl vurur dilimə,
Zülfün kəməndini salıb belimə,
Hüsnün sütununa sarıyır Lalə.

Leyli kimi hərdən çıxır eyvana,
Məcnun tək Hüseyni edir divanə,
Əlinə götürüb şirmayı şana,
Şahmar zülflərini darayır Lalə.

Uzun illər boyu "Hicran ləşkəri" və "qəm sultanından" ağrı-acı görmüş, uca eyvanlı ağ otaqlarda yaşayan zalımları qamçılayan şair deyir:

Nə lazımdır, naqafilə söz deyim,
Xatirinə ya dəyməyə, ya dəyə.
Sizin olsun, eyvan, otaq, alaçıq,
Bizə bəsdi ya kölgəlik, ya dəyə.

Hüseyn deyər mail oldum Gülxara,
Geyinmişdir atlas, ziba gülxara,
Qorxuram ki, qismət ola gül xara,
Bağban ölə, dal budağı yad əyə.

Burada ömrə-günə bağlı yüksək, nəcib insani duyğular tərənnüm edilir. Sənətkarlıq cəhətdən də bu adi qoşma yox, ustalıqla deyilmiş təcnisdir.

El şairinin müxəmməslərində, gəraylılarında, təcnislərində gözəllərin təkcə qələm qaşları, məzhun baxışları, yaqut dodaqları təsvir edilmir. Onların daxili gözəllikləri, əhdə vəfadarlığı obrazlı ifadə edilir…

Bu gözəllikdə məhəbbətin əbədiliyi yaşayır. Bu gözəllikdə incə, zərif duyğular tərənnüm edilir. Məhəbbətin ülvi mahiyyəti, poetik qüdrəti açılır. Şair zəkasının müdrikliyi görünür.

Həzərat, yaxşı baxın,
Qarşıda duran gözələ,
Ay qabaq, lalə yanaq,
Qaşları kaman gözələ!
Ya huridir, ya pəridir,
Behiştdə qılman gözələ.
Bu surətdə, bu camalda,
Kim deyər insan gözələ.

Hüseyn Bozalqanlı təbiətin vurğunu olub. Gözəllərin vəsf-halını tərənnüm etdiyi kimi, təbətin də bədii lövhələrini şeir dililə gözəl ifadə edib.

Lakin aşıq ən çox real həyat hadisələrilə bağlı özünün ifaedici qoşmaları ilə məşhur olmuşdur.

Xoca Əhməd özün salıb əngələ,
Torpağa, qəltanə, lilə, bükülmüş,
Danışdığı sözlər fisqi-fəsadlı,
Hiyləyə, fitnəyə, felə bükülmüş.

Sözlərimi çəkməyirəm dərinə,
Sərim qurban mərd igidin sərinə,
Axşam olcaq girir ocaq yerinə,
Kəsəyə, kömürə, külə bükülmüş.

Yazıq Hüseyn elmlərdən halıdı,
Öz ürək sözüdü, öz kamalıdı,
Burnu çarıq, lap İrəvan malıdı,
Noxtaya, palana, çula bükülmüş.

Görkəmli el sənətkarının şeirləri yüksək bədii obarzlarla zəngindir. O həmişə xalqın istəklərinin tərənnümçüsü olmuşdur. Nadanlığa, pisliyə, araqatanlara qarşı öz şeirlərilə daim mübarizə aparmışdır.

Nə qanır, nə qandırır,
Dad-aman nadan əlindən.
Qoymur ara düzəltməyə,
Xuliqan şeytan əlindən.
Namərd öldürər acından,
Doymaz dünya xəracından,
Ələkbər tamah ucundan,
Döşədi astan əlindən.

Hüseyn oldu işdən halı,
Çox çəkildi qeylü-qalı,
İki aylıq materialı,
Verdilər pünhan əlindən.

Hüseyn Bozalqanlı özündən əvvəlki şairlərin əsərlərini mükəmməl bilirmiş. Onların yaradıcılığındakı forma xüsusiyyətlərini, məna çalarlarını, sənətkarlıq sirlərini yaxşı öyrənibmiş. M.P.Vaqifin şeirlərində olduğu kimi Hüseyn Bozalqanlının əsərlərində də uzun saçlı qızların təbii gözəlliyi, onların sadəlövhlüyü incə bir zövqlə tərif edilir.

Çərşənbə günündə xas axşamında,
Sallandı qarşımda sona yeridi.
Başını oynatdı, gözüylə güldü,
Bir ox vurdu, şirin cana yeridi.

Quba qaz yerişli, maral baxışlı,
İnnabı dodaqlı, mirvari dişli,
Ucu gülabatın, xurmayı saçlı,
Telində şirmayı şana yeridi.

Yoxdur gözəlliyə qüsur, bəhana,
Camalın şöləsi düşüb cahana,
Hüseyni eylədi dəli-divana,
Məcnun kimi biyabana yeridi.

Bu qoşma gözəlliyin xalq dilində tərənnümü və obrazlı ifadələridir. Hüseyn Bozalqanlı gözəlin portretini şeir dili ilə canlandırır.

Gərdanı minadı, əndamı nazik,
İncə barmaqlarda qızıldan üzük.

- deməklə burada şair, rəssam xəyalında ilahiləşdirilmiş gözəl bir qadın obrazı yaradır.

Bahar gəldi, çiçək açdı.
Güllər qırmızı geyindi,
Çırtıq dəydi, üz qanadı,
Xallar qırmızı geyindi.
Yarım yuxudan oyandı,
İncidi, küsdü, usandı,
Barmaq buxağa dayandı,
Əllər qırmızı geyindi.

Yarpaqları güldən təzə,
Ağzı qaymaq, dili məzə,
Hüseyn, canan gəldi bizə,
Yollar qırmızı geyindi.

Aşıq Hüseyn Bozalqanlının müxtəlif illərdə oxuculara bir neçə kitabı təqdim olunub. Həmin kitabların üçünün toplayanı və tərtibatçısı rəhmətlik Şəmşad Rzadır. Və yeri gəlmişkən deyək ki, el sənətimizi yaxşı bilən Şəmşad Rzanın Aşıq Hüseyn Bozalqanlının təbliğində gördüyü işlər xüsusi qeyd olunmalıdı, xatırlanmalıdır…

Heç şübhəsiz, bu toplananlar hələ el sənətkarının tam külliyatı deyil. Onun yaddaşlarda “gizlənib” qalan şeirləri hələ çoxdur. Bütün bunları bir yerə cəm eləmək fikir ədəbiyyatımızın xeyrinə olardı…

## DƏMİRÇİ AŞIQ HÜSEYN

Dəmirçi Hüseynin həyatına varmazdan əvvəl saxlanclardan gələn bir-iki el ifadəsi demək elə bilirəm ki, yerinə düşərdi. Bu söz, bu ifadə həm də onun doğulduğu, inkişaf tapdığı yerlə, el-obayla bağlıdır. Daha doğrusu, onun doğulub boy verdiyi kəndin adamları sırf folklorla, sazla, sözlə bağlıdır.

El sənəti, folklor xalqın yaddaşındadı. Onu gərək vaxtında düzüb qaydaya salasan. Dünyamızın insanlarının təfəkkürünə yol tapacaq səviyyəyə çatdırasan. Və mühafizə edəsən, qoruyasan. Yazıya alasan. Torpaq su ilə qovuşmayanda quruyub məhv olduğu kimi, elin yaddaşını qurdalamayanda da çox şeyləri itirmiş oluruq. Bayatı, qoşma, oxşama, ümumiyyətlə, söz adilə yaşayan, yazılan bütün şeir növləri abidələrimizdi, tariximizdi, təfəkkürümüzün formalaşmasıdı. Birincilərin itirilməsi milli adət-ənənəmizlə bağlı çox nüansların, tarixi mənbələrin itirilməsi deməkdir.

Söz söyləyən, boy boylayan el ağsaqqalları heç zaman yanılmayıblar.

Hər şeydən öncə elin yaddaşını yaşadıblar. Bu həqiqətən də belədi. Ta üzü Dədə Qorquddan bəri həyatımız, tariximiz müdrik el adamlarının sözlərinə, nağıl və bayatılarına söykənib.

Bəlkə də tariximizin elə səhifəsi var ki, bircə bayatı ilə açıqlanıb. Odur ki, insafla desək, xalqımız-tarixin gözüylə baxsaq, özünün yaratdığı bayatısı ilə - sənət abidələrilə nəfəs alıb, ona çox güvənib. Bu çeşmədən, bu qaynaqdan su içib. İnsanın taleyində inam, ümid işığı yaradan da qaynaqlarımızdı, dastanlarımızdı, bilməcələrimizdi.

El aşığı ozanlar var. Əllərindəki qolça qopuz-sazdı. El anası, el aşığı, el ozanı deyirlər ona. Belə bir ozanın söz-saz dünyasından söz açırıq…Bozalqanlı Dəmirçi aşıq Hüseyndən: Məşhur, ustad Dəmirçi aşıq Hüseynin mərhum oğlu şair Şəmşad Rza bayatı ilə bağlı atasının ona söylədiyi bir faktı açıqlamışdı vaxtilə mənə…

"…Yadımdadır, tanış bir ailənin evinə qonaq getmişdim.Yan otaqda,nənnidə uşaq ağlayırdı. Ev sahibi, dostum həyat yoldaşı Zeynəbə işarə etdi ki, uşağı kiritsin. Zeynəb ana uşağı qucağına aldı. Nə qədər o qolunun, bu qolunun üstünə aldı, gəzdirdi, yırğaladısa, uşaq kirimədi, sakitləşmədi. Uşağın atası da çalışdı mümkün olmadı. Uşağın öz anası Ceyran xanım da onu sakitləşdirə bilmədi. Nəhayət evin ağbirçək anası, nənə uşağı qolunun üstünə alıb layla çaldı. Bu səs sərin su kimi elə bil, uşağın damarına axdı. Sən demə, uşaq xoş səs, səsdə qılıq, mehribanlıq istəyirmiş.

Dedim:

- Anası, həmişə belə halda uşağa bayatı de. Analarımız bizi laylalar üstündə böyüdüblər.

Ev sahibi gülümsədi:

- Uşağın nəinki anası, heç mənim həyat yoldaşım da bayatı bilmir. Layla bilmir, nə çalsın. Bu laylanı çalan, bayatı deyən də mənim anamdı. 83 yaşı var. Sinəsi xəzinədi anamın. Bilmədiyi dastan, nağıl yoxdur.

Bu vaxt ağ saçlı nənə də dilləndi:

- Min dəfə demişəm, ay gəlin, uşağa kiri deməzlər. Uşağa layla çalarlar. Bayatı deyərlər. Bunlar necə gəlindilər, nə təhər anadılar bilmirəm…Altı oğul, üç qız böyütmüşəm. Hamsını da bayatılarla, nəğmələrlə. Səsindəki kövrəkliklə, həzinliklə, məharətli dönümlərlə bizim də ürəyimizi riqqətə gətirmişdi nənə. Bir də onda bildik ki, uşaq kiriyib. Elə bil körpə bu səsdə əriyib, mənalara dönüb. Bayatılar onun yuxu dərmanına çevrilib.

Əlinin babası var,
Çiynində əbası var,
Özü pis oğlan deyil,
Nə gavur anası var.

Möhkəm gülüşdük. Soruşdum:

- Uşağın adı nədi?

- Əli.

- Hər şey aydındır – dedim.

Aldım üzük qaşını,

Kim bağlayıb başını,

Nənə qurban ağlama,

Sil gözünün yaşını.

Uşaq yatmışdı…

Bəli, bax beləcə Dəmirçi Hüseyn də körpələri bayatılarında uyudur, cəngi havalarında isə qəhrəmanları, igidləri səfərbər edirdi.

Dəmirçi Hüseynin sözünə qüvvət, əslində bu günün gözüylə baxanda görürsən ki, ozan yazıçıdır, şairdir, el dərdini ipə-sapa düzəndi. Ən nəhayət, yaddaşlarda əbədi səsi, sözü, nəğməsi, havacatları qalan el ağsaqqalıdı.

Bozalqanlı Aşıq Hüseyn kimi…”

Əziz oxucular, biz bu sənətkarın ömür kitabının yalnız bir səhifəsini sizə demək istəyirik. Onun zəngin ömür dünyası, özünəməxsus sözü, söhbəti, havacatları, bayatıları var. Keçdiyi ömür yolu neçə-neçə monoqrafiyalara sığmaz. Bayatıları el aşıqlarının dilində, yaddaşında bu gün də boy verməkdədi. Səsi onu tanıyanların beynində yuva qurub. O səbəbdən də ona həm də səsdi Hüseyn deyiblər.

Bir dəfə Tovuzun Qazqulu kəndində toyda Koroğlu bozuğunu oxuyan aşığın səsini Bozalqanlı kəndində eşidən dəllək Məhəmməd həyat yoldaşına deyir.

- Ay arvad, kənddə kimin toyudu?

Qadın cavab verib:

- Heç kimin.

- Bə Hüseyn əmim harda oxuyur? Bəlkə qonaqlıqdı?

Qadın yenə cavab verdi:

- Nə deyim, ay kişi, bəlkə də…

Sabahı dəmirçi Hüseynin özündən dəllək Məhəmməd soruşanda cavab verir ki:

- Qazquluda Avdı adlı bir kişinin oğul toyunda idi. Orada oxuyurdum. Adamlar ona möcüzə kimi baxıblar. Neçə toyda otuzluq lampa onun səsindən

sönüb. Rəhmətlik ustad Aşıq Qədirlə (Aşıq Əkbər Cəfərovun ustadı olub) Bozalqanlıda Binnət adlı bir kişinin bacısı Mələyin toyu imiş.

Ovçu Bağır adlı birisi dəmirçi Hüseynin sazına yüzlük bağlayıb xahiş edir:

- Hüseyn əmi, bir Qarabağ şikəstəsi oxu, amma birini də Qədir əmi oxusun.

- Baş üstə - deyə aşıq Hüseyn sazı Qarabağ şikəstəsinə kökləyir. Oxuya-oxuya otuzluq lampanın altında dayanır. Otuzluq lampa səsin gücündən tamamilə öləziyənə qədər səs uzanır. Toy məclisi konsert zalına dönür. Hamı yer-yerdən qışqırır:

- Əhsən, Hüseyn əmi!

- Səsinlə yaşa, Hüseyn kişi…

- Var ol…

- Allah səni saxlasın, a kişi…

Aşığın başına pullar yağış kimi yağır…

Möcüzəni özünə döndərmək üçün Aşıq Qədir ikinci otuzluq lampanın altına gəlib üfürməyə başlayır…

- Mən aşıq Hüseyndən tez söndürəcəm, - deyir. Mərəkə adamları buna da gülüşürlər…

Sonra Hüseyn kişi gəlini gətirməyə gedəndə, bayırda tut ağacının altındaca bir qara zurnaya çoban bayatısı oxuyur. O səs bu gün də həmin toyda olanların yaddaşındadı…Beynindədi…Təkcə o cürə oxuyub o səsi bizə çatdıran, bizə qaytaran ozan yoxdu…

Dəmirçi Hüseynin sənətkarlıq sirlərini açıqlaya biləsi yüzlərlə belə misal gətirmək olar.

Dəmirçi Hüseyn 1885-ci ildə Tovuzun Bozalqanlı obasında dünyaya gəlib. Bu o kənddi ki, şərq ədəbiyyatına, milli Azərbaycan xəzinəsinə bir neçə qüdrətli sənətkar bəxş edib. Şair Hüseyn Bozalqanlı, Xəyyat Mirzə, Şair Vəli. Eyni zamanda yenilməzlik tariximizdə özünə əbədi yer tapan qəhrəmanlar yetişdirib. Qaçaq Kərəmin müasiri və silahdaşı Qara Tanrıverdi, Telli Əsəd, Mamoy Kalvayı Əsəd və ilaxır, və s. ...Keçmişinin barından bəhrələnən, sabahına sədaqətli olan Bozalqanlı kəndi öz ucalıq, böyüklük qayğısını, isti əllərini qeyrətli oğul və

qızlarının, qüdrətli sənətkarlarının çiyinlərinə qoyub bu gün də. Həmin isti, sığallı əllərin hərarətindən intişar tapıb ustad Dəmirçi Hüseyn də, aşıq Vəli də, aşıq Qədir də, aşıq, şair Xalıqverdi də, Aşıq Əkbər də, Aşıq Mahmud və Məhəmməd qardaşları da…Və neçə-neçə belə sənətkarlarımız da…

Dəmirçi Hüseynin atası Rza, Rzanın atası Rzaqulu və Rzaqulunun ata və babası Şahqulu, Səfiqulu da qüdrətli sənətkarlar olublar. Sazla, sözlə yaşayıblar. Dəmirçilik sənətinə yiyələniblər. Hər biri neçə-neçə sənətkar yetişdirib. Bütün bunlar onu deməyə əsas verir ki, dəmirçi aşıq Hüseyn təsadüfi şəxsiyyət olmayıb. Görüb, götürdüyü Tanrıdan, bir də əzəli nəslindən gələn töhfədi. Onun düzəltdiyi karetlər, milli at fiqurları Gəncə mahalında, Gürcüstanda böyük şöhrət qazanıbmış. Maşınabənzər göy laydırlı arabalar üçün tez-tez sifarişlər alarmış. Şinli ağac təkərlər, boyunduruq, laydır, cüt, gavahın, çin və onlarla adda kənd təsərrüfatında işlənən kustar texnikanın ustası səviyyəsinə qalxıbmış. Gündüzlər dəmir döyən, xəncər düzəldən bu ustadın kobud barmaqları axşamlar keçirdiyi toylarda incələr, simlər üstə gəzişərmiş…

Düzdə məni,
Qoyubsan düzdə məni,
Kətan barmaqlarınla,
Özün ək, düzdə məni.

Bu bayatıdakı kotan, düz, ək ifadələri sənətkarın torpağa, elə bağlılığından, kustar avadanlıqlara nə qədər yaxın olmağından irəli gəlir.

Saz, söz sənətində bişib-bərkidiyi kimi, dəmirçilikdə də önəmli sınaqlardan keçib. Deyilənə görə, üçpudluq dəmirçi zindanını uşaq topu kimi əllərində atıb-tutarmış. Başının üstündən atarmış. Əl sıxmalarında neçə barmaqların uclarını çatladıb. Qan göyə fışqırıb. Bəlkə bu güc, bu qüvvət onun dəmirçilik sənətilə bağlıydı. Düzdü, hardasa bunun köməyi, təsiri var. Amma deyilənə görə ən çox bu onun qədim türk qəbilələrindən olan Rzaqullar nəslindən gələndi. Dəmirçi aşıq Hüseynin ata-babası, əmiləri də güclü, qüvvətli adamlar olublar. Görünür, bu güc özü də Tanrının töhvəsidi. Nəslin qanında, ruhunda ot kimi göyərib. Şəcərə qohumlarından bir-birinə keçib. Dəmirçi aşıq Hüseynin pəhləvanla güləşindən bu

gün də danışırlar. Vəhşiləşmiş bir qara kəli tək başına yıxıb başını kəsdiyindən heyrətlə söhbət açırlar. Hətta yeri gələndə ona kompleks adam deyiblər. Bu da onun bir neçə sənətə tam yiyələnməsindən irəli gəlir. Üç yerdə zindana çəkic döyəcləyərmiş. Bozalqanlı kəndində, Ermənistanın Çənbərək kəndində və bir də Tovuzun sement zavodunda. Ayda hərəsində 10 gün iş aparıb. El, oba adamları ondan həmişə razı qalıblar. Sənətkarlığına baş əyiblər. Heç zaman zarafatından da qalmayıb. Sinəsi el misraları ilə dolu olub.

Bir dəfə kənddə Sarı Hasan adlı bir kişi onun yanına gəlir. Qəzetə bükdüyü enli ağızlı bıçağını çıxarıb deyir.

- Ustad, bəlkə yiyən ola? Bıçağımı bir balaca ovxarlıyım, ağrın alım.

Aşıq, dəmirşi qımışır:

- Ay Hasan, a kişi, yiyəm olsa burda nə gəzirəm. Mən də gedib bir vəzifə sahibi olaram. Daha dəmirlə, daşla əlləşmərəm ki.

Sonra Sarı Hasan soruşur:

- Təkərin birini neçə günə hazırlayırsan?

- Neçə günə deyəndə, hansı adam necədisə, onun təkəri də elə hazırlanır. Neçə günə demə, necə, hansı materialdan hazırlayırsan de…

Hasan kişi gülümsəyir, daha dillənmir. Bu cürə lövhələr dəmirçi aşıq Hüseynin həyatında çoxdu. Həyatı çox şaxəli olan aşıq həm də rusların torpaqlarımıza gəlişinə qarşı çıxıb. Neçə il qaçaq olub. Kürqırağı meşələrdə, Dağıstan dağlarında yaşayıb. Uzun müddət Sovet hökümətinə tabe olmayıb. Rövşən adlı boz atı dağlara səs salıb. Artıq qohumlarının incidildiyini, bəzilərinin isə güllələndiyini eşidib üzə çıxıb. Bir neçə dəfə danışıqlara aparılsa da, kəndin baş bilənləri onu Sarı ayıların ağzında alıblar. Yaxşı sənətkar kimi onu ələ verməyiblər. Daha doğrusu, kənd adamları ayağa qalxıb. Ömrünün axırına kimi qan içən ruslarla barışmayıb…

***

Tarixin dəmir sınaqlarından çıxan dəmirçi aşıq Hüseyn Bozalqanlı şair aşıq Hüseynə 7 il qulluq edib.Yəni, ona şagird olub. Özü də yaşlı vaxtında Rza kişi

Hüseyn Bozalqanlının yanına gedib. Xeyli söhbətdən sonra nə üçün gəldiyini ona açıqlayıb.

– Yaşı çox olsa da, Hüseyn, bizim gədənin bu sənətə həvəsi çoxdu.

Aşıq Hüseyn Rza kişini xeyli dinlədikdən sonra deyib:

– Rza, gəlibsən, xoş gəlibsən, oğlun Hüseyni də yaxşı tanıyıram. Əgər mən deyən olsa, gözüm üstə. Yox, xoşuma gəlməsə, onda incimə.

Rza kişi xeyli fikirləşir:

– O, nədi mənə deyə bilərsənmi?

Ustad cavab verir:

– Xeyr, oğlun sınaqlardan çıxandan sonra bilərsən.

Rza kişi ürəyində xeyli götür-qoy edir. “Görəsən, o nə sınaqdı belə? Bəlkə saz çalmaq, kökləmək, söz bilmək sınağıdı bu? Təki belə olsun. Az-çox çalmaq qabiliyyəti var, söz də ki, sinəsi doludu”. Öz-özünə ürək-dirək verib ayrılır. Şagird Hüseyn on gün ustad şair Hüseynin yanına gəlib gedir. On birinci gün ustad şagirdinə deyir:

– Oğlum, ay Hüseyn, atana de sabah səninlə birlikdə yanıma gəlsin.

Ustad Rza kişini məhəbbətlə qarşılayır. Elə ilk söhbətində deyir:

– Rza kişi, oğlun sınaqlardan çıxdı. Bu gündən mənim şagirdimdi.

Rza kişi sevinir. Ürəyi qürurla dolur. Həm də oğlunda razı kimi dillənir.

– Elə bilirəm pis olmaz. Sənin bir sözünü də yerə salmaz. İndiyə kimi mənim oğlum idi. Bundan sonra həm də sənin oğlundu, Ustad! Amma o hansı sınaqlardı, bilmədim. Həm də bilsəm yaxşıdı. Görüm oğlumun qabında bir şey varmı?

– Var, Rza kişi, var. O iki sınağın biri yaddaşdı, o biri də aşıq üçün səsdi. Qalanını öyrətmək olar. O iki şeyi Tanrı verir.Onları öyrətmək olmaz. Aşığın aşıq olması üçün səs və yaddaş başlıca şərtdir. Hər ikisi oğlunda var.

…Beləcə yeddi il Dəmirçi Hüseyn şair Hüseyn Bozalqanlının sözünü, söhbətini, qabiliyyətini, sənətkarlığını özündə əks etdi. Onun dediklərini ürəyinə toxum kimi səpdi. Nağıllar, dastanlar qatarlandı sinəsində. Özü də fəxr etdi ki, Ələsgərlə üzbəüz deyişən qüdrətli bir şairin şagirdidi. Beləcə vaxt başa çatdı. Bir gün Hüseyn Bozalqanlı şagirdinə dedi:

– Oğul, Hüseyn, artıq sən özün ustalıq zirvəsinə qədər ucalmısan. İstəmərəm ki, sənə şagird kimi baxsınlar. Daha sən özün ayrıca toylara gedə bilərsən.

Ən böyük toy məclislərini keçirməyə belə səndə qabiliyyət var. Get. Amma bu dediklərimi yadında möhkəm saxla. Allahını, atanı və mən qocanı heç vaxt unutma. Nə vaxt dara düşsən yanıma gəl.

Sübh tezdən şair Hüseyn Bozalqanlı həyətdən gələn səs-küyə bayıra çıxır. Bir də görür ki, Rza kişi bir cüt qızılı düyə gətirib. Həyətdəki tut ağacına bağlayır. Salam-kalamdan sonra ustad soruşur:

– Bağlama, bir dayan görüm, Rza kişi, bunlar nədir?

Rza kişi gülümsəyir.

– Ağrın alım, ustad, bunlar halallıq almaq üçündü. Zəhmət haqqındı.

Hüseyn Bozalqanlı şəyirdinə xeyir-dua verir. Sözünün sonunda isə deyir:

– Bunlar lazım deyildi. Onun yaxşı sənətkarlığı mənim şərəfimdi. Yaxşı bayatıları da var, demişəm yazsın. Söz həmişə canlıdı, yaşayandı. Söz yaşayırsa, demək, sahibini də yaşadacaq. Bu qayğı, bu nəsihət Hüseynin ömrü boyu yol yoldaşı olub. Bu sözlərdən qüvvət tapıb, inam tapıb.

Beləcə ömrünü, taleyini saza, sözə bağlayır. Sazın zilini zil, bəmini bəm ruhunda yaşadır. Ustad aşıqlardan məşhur Mirzə Bayramovla, şair Vəlilə, öysüzlü şair Səmədlə, şair Nəcəflə, Aşıq Əsədlə, Aşıq Zülfüqarla, Azaflı Mikayılla və digər saz-söz adamlarilə bir cərgədə dayanır. Dəfələrlə festival iştirakçısı olur. Öncül yerlərdən birini tutur. Dövlət tədbirlərində, filarmoniyada, digər saraylarda keçirilən konsertlərdə fəal iştirak edir. Təsadüfi deyil ki, el-obamızın dahi bəstəkarı Üzeyir Hacıbəyov vaxtilə onun səsini dağlardan tökülən gur şəlaləyə bənzədib. Oxuduğu Koroğlu havalarına dönə-dönə qulaq asıb. “Səhnədə Qıratı əsl bu aşıq minməlidi”, deyib. Onu da deyib ki, Bozalqanlı kəndi özü boyda aşıqlar filarmoniyasıdı. Oraya həmişə diqqət, qayğı göstərmək lazımdı.

Və Üzeyir bəy bu sözləri heç də təsadüfi deməyib. Çünki o kəndin yetirdiyi böyük sənətkarları yaxşı tanıyırdı. Onların hər birinə də xüsusi hörməti vardı. İşlədiyi illərdə filarmoniyada gedən bütün tədbirlərdə onun dəvətilə Bozalqanlı kəndində şair və aşıqlar iştirak edirdilər…Dəmirçi aşıq Hüseyn isə aşıq Mirzədən,

aşıq Əsəddən sonra həmişə diqqət mərkəzində olub. Bu, ən çox onun kövrək, zil səsinə, bildiyi dərin məzmunlu dastanlara, şeirlərə görə idi.

Can üzülüb, can gedib,
Kiprikləri xan gedib.
Kim baxıb gözlərinə,
Arasından qan gedib.

El arasında belə deyirlər ki, gözü dəyməli adamlar da var. Hətta bir baxışla daşı sındırır. Bəh, bəh, bəh…bu nə süddü, nə gözəl inəkdi deməklə ona xəta yetirir. Ona görə də bu gün də diqqətdə olan körpələrin bələyinə, cavanların paltarına göz muncuğu tikirlər. Hətta bəzi sürücülər maşınlarına sarı tikan sancırlar ki, göz dəyməsin. Dəmirçi aşıq Hüseyn həmin fikrin daha incə məqamlarından istifadə edib.

Ən zərif hisslərə toxunub. Gözəlin gözəlliyini göz önündə obrazlaşdırıb. “Kim baxıb gözlərinə, arasından qan gedib” deməklə sözün incəliyindən, gücündən bu cür bəhrələnib. Əlbəttə, heç də baxmaqla gözün içindən qan getməz. Məsələ gözəlliyi görmək, onu duymaq, poetik zirvəyə qaldırmaqdır. Həmin gözələ qarşı olan sonsuz istəkdi, məhəbbətdi. Bu isə dəmirçi aşıq Hüseynin bütün bayatılarının ana xəttini təşkil edir. Onun çap olunmamış, sinələrdə uyuyan bayatıları çoxdu. Bu kitabda verdiklərimiz isə onun bayatılarının yalnız bir hissəsini təşkil edir. Mindən çox bayatısı oğlu şair – yazıçı rəhmətlik Şəmşad Rza tərəfindən əldə edilib. Atası haqqında mənə faktları çatdıran Şəmşad Rza olub. Beləliklə, dəmirçi aşıq Hüseynin bayatılarının bir hissəsini sizin müzakirənizə verirəm, əziz oxucular. Səsi, şəxsiyyəti, dəmirçiliyi, soykökü barədə az-çox məlumat aldıq. Bəs bayatılarındakı dəyər, incəlik? …Bu barədə yenə söz sizin, hörmətli oxucularımızındır.

**Dəmirçi aşıq Hüseyn**

## BAYATILAR

Nə dərdim
Nə həsrətim, nə dərdim,
Girdim yarın bağına,
Bilən yoxdu nə dərdim.

Əzizim dərdi məndə,
Yar güldü dərdiməndə,
Mən dərdli,
Yarımın da
Böyüyür dərdi məndə.

Əzizim, güləmmərəm,
Gül dərib gül əmmərəm,
Yar üzün görməmişəm,
Danışıb güləmmərəm.

Gözdə məni,
Ölüncə gözdə məni,
Axtarsan tez taparsan,
O qara gözdə məni.

Gül arada,
Bir danış, gül arada,
Xoşbəxtəm yarım ilə,
Bitibdi gül arada.

Əzizim, baxanda gəl,
Gün keçib yaxanda gəl,
Gəlmədin xoş günümdə,
Göz yaşım axanda gəl.

Bu dağlar o dağlardan,
Küsmüşəm bulaqlardan,
Dünya gidi dünyadı,
Gəl öpüm dodaqlardan.

Sular yaman çağlayıb,
Ahı məni dağlayıb,
Qar üçün dağa getməm,
Yar qəlbi buz bağlayıb.

Sözüm yox, yar o yardı,
Hər işə yarıyardı.
Bir zaman yar bizi də,
Axtarıb arıyardı.

Taleyim kəmdi mənim,
Gözlərim nəmdi mənim,
Bir üzüm sevincdirsə,
Bir üzüm qəmdi mənim.

Güləm mən,
Bağrı qanlı güləm mən,
Bu günəcən gülmədim,
Daha çətin güləm mən.

Yar qaladı,
Sanardım yar qaladı,
Sinəm üstə ocağı,
Yar çatdı, yar qaladı.

Özgə dərdi,
Gül əkdim, özgə dərdi,
Öz dərdim azmış kimi,
Çəkirəm özgə dərdi.

Daş qaladı,
Zülmətdi, daş qaladı,
Neylədim bu fələyə,
Başıma daş qaladı.

El köçüb, kimim qalıb,
Saz sınıb simim qalıb,
Dəniz çəkilib gedib,
Quruda gəmim qalıb.

Səndə nə var,
Dumanda, çəndə nə var.
Şeirdən, sözdən başqa,
Bilmirsən məndə nə var.

Yar baxdı yana döndü,
Kirpik kamana döndü,
Keçirdiyim xoş günlər,
Qan oldu, qana döndü.

Yazda məni,

Yaz da sən, poz da məni,

Allahın rəhmi olsa,

Öldürər yazda məni.

## ZAL CABBARLI

Qədim Kəlbəcərin bəxtəvər çağları idi. Gülşən seyrinə çıxan bülbüllər qızılgülün eşqinə min nəğmə qoşur, xınalı kəkliklərin qaqqıltıları dərələrdə əks-səda verirdi.

El öz obasından, yaylaqlar sürüsündən, güneylər köhlənlərin kişnərtisindən ayrı düşməmişdi hələ.

Və bir də telli sazı Kəlbəcərsiz, Kəlbəcəri Şəmşirli xatirələrdən, Əli Qurban, Bəhman Vətənoğlu söz-söhbətindən, Mehdixan Kəlbəcərli, Zal Cabbarlı, deyimlərindən ayrı təsəvvür etmək çətin olardı. Beləcə yaşayırdı Kəlbəcər. Yazırdı, yaradırdı, deyirdi, gülürdü, çalıb-çağırırdı…

Üzbəüz dayandığı qarı düşmən bir yana qalsın, öz içimizdəki mələk donlu xəyanətkarlardan xəbərsiz-ətərsiz yaşayırdı ulu Kəlbəcər.

Hər kahısında qədim bir el havasının ürəkləri yerindən oynadan sədası bu cənnət guşənin təbiət gözəlliyinə qarışıb ürəklərə məlhəm eləyirdi.

Belə səfalı günlərin birində el şairi Zal Cabbarlı göylərə baş çəkən nəhəng bir ağacın kölgəsində oturub ətrafı seyr edirdi. Bu halətdə yenicə pardaqlayan budağın üstünə çıxıb öz nəğməsini oxuyan quşların biri qəflət özü də heç bir maneəsiz əcələ tuş gəldi. Hansı ağrının gücündənsə Zalın oturduğu tərəfə, düz onun qabağına düşüb çırpına-çırpına göz qırpımındaca canını otlara tapşırırdı. Həssas qəlbli, incə deyimli şair bircə anın içində heyrətdə qaldı.

“Sən bir dünyanın işinə bax!” dedi öz-özünə. Gör yaratdığını, verdiyi canı öz canlısından necə də geri alır qəfləti…İndicə bu quşcığaz budaqda oturub öz nəğməsini oxumurdumu? Bu cənnət gözəlliyinə baxa-baxa şövqlənib cəh-cəh vurmurdumu? Axı, bu da canlılardan biridi. Onun da ürəyi var?!

Qeyri-adi düşüncələr içərisində quşun cəsədini ehmalca götürüb bir səmtə qoyandan sonra cibindən dəftər-qələmini çıxarıb ürəyinin sözünü kağıza köçürmək istədi:

Günün gəlib keçməsinə tələsmə,<br>
Hər gün can evindən, ömürdən gedir.<br>
Can bir quşdur, yaxşı saxla qəfəsdə,

Uçur xəyal kimi o birdən gedir.

Şairlik dünyasının da özünəməxsus sirləri, ayrıca qəribəlikləri var. Bəzən bir dastana sığmayacaq qədər ürək döyüntüləri bircə bəndə bəs edər. Bəzən də…

Zal Cabbarlı bu bircə bənd qoşmasını yazandan sonra şeirin məbədini ərsəyə gətirə bilmədi.

Ha düşündü, ha daşındı, daxili duyğuları sözünə baxmadı ki, baxmadı.

Xeyli götür-qoydan sonra ulu Göyçənin qarşı qayalarına, azman dağlarına sarı boylandı. Ani olaraq ağlına nə gəldisə dəftərinin ağ səhifələrindən birini açıb Ələsgər ocağına nə görmüşdüsə, nə duymuşdusa eləcə bir namə yazdı…

"…Bu bircə bənddən sonra, elə bil nitqim də, qələmim də quruyub qaldı. Xahiş edirəm mənim bu bircə sətrimə dörd bənddə əlavə edib qoşmanı tamamlayasınız…"

Zal Cabbarlının həyat həqiqətindən doğan bu nağılvarı məktubu əldən-ələ, dildən-dilə düşdü…

Tanınmış ocağın nə qədər yazarı varsa heç biri bəndləri tamamlamağa, özgə deyimlərinə əlavə deyim qoşmağa girişmədi.

Nəhayət, naməni o vaxt Zərkənd orta məktəbinin direktoru işələyən el sənətimizin gözəl bilicisi, şair təbiətli Həbib Səmədova verdilər. Həbib müəllim xeyli düşünüb-daşınandan sonra bu kövrək əhvalatla bağlı yaranan bircə bəndin yalqız qalmasını rəva görmədi. Ona dörd bənd əlavə etdi. Və həmin bəndlərin həyat fəlsəfəsini daha çox tamamlayan bir bəndi də beləcə dönmüşdü onda hər iki mahalın məclislərində, saz-söhbətlərində zərbi-məsələ…

Kim niyə yaşayır bilmirsə bunu,
Həyatda diri tək sanmayın onu,
Beləsi yetəndə ömrünün sonu,
Qəbirdə yatmağa qəbirdən gedir.

O gündən bəri el yığnaqlarında, aşıqların dilində əzbər olan bu eşidimli, maraqlı əhvalatın bir tərəfi də ariflərin nəzərindən yayınmamışdı.

El sənətimizin uludan-ulu qanunları var. Hər deyim öz tapşırmasıynan tamamlanır.

Bax, bunu yaxşı bilən Həbib müəllim də, belə əhvalatdan doğan beş bəndlik qoşmada ilk müəllifin zəhmətini itirmədi.*”Həbib, söylə Zala gözəldir sözü, eşidənlər bunu bəyənir düzü”* misralarıynan ustalıqla tanındı.

Dağlar diyarı Kəlbəcərin unudulmaz el sənətkarı Zal Cabbarlının həyat və yaradıcılığı ilə bağlı olmuş və olduğundan da maraqlı söyləmələr, belə əhvalatlar çoxdur.

Sənət dünyamıza neçə-neçə yaddaqalımlı incilər bəxş edən bu mərhum el sənətkarı Kəlbəcər elinin Qamışlı kəndində dünyaya gəlibmiş.

Ağlı kəsdiyi gündən dörd yanını dövrələyən sıra dağlardan ilham aldıqca Zal Cabbarlı bu yerlərin abü-havasıynan öz aləmində beləcə bərkdən-boşdan çıxmışdı.

Özünəməxsus dünyagörüşü, savadı vardı. Bir ziyalı kimi Kəlbəcərdə gənc kadrların yetişib təhsil sahibi olmalarında xüsusi əməyi var idi. Deyirlər hər bir adam onu yetirən mühitin övladı kimi böyüyür, onun təbiətindən qidalanıb ərsəyə yetir. Sadə təbiətli, təmiz havalı, cənnət guşəli Kəlbəcərdə dağların abu-kövsər kimi təmiz sularından içə-içə saz-sözə məlhəm olan el sənətkarı Zal Cabbarlı bax, beləcə böyümüşdü, yetişib püxtələşmişdi o yerlərdə…

Saxlayıb qoynunda verən pərvəriş,
Anam da, dayəm də budağdı mənim,
O hələ cavandı, mən qocalmışam,
Ağarıb saçlarım, budağdı mənim.

Bir tük də qalmayıb sərimdə qara,
Elə bil qar yağıb sərim də qara.
Tükülüb, açılıb, dönüb dağlara,
Oxlayan sinəmi budağdı mənim.
Zal heç istəməz ki, baxsın yassara,
Tərlan uymaz nə yığnağa, ya sara,
Bayqusan, get xarabada yas ara,
Bülbüləm, məskənim budaqdı mənim.

1941-ci ilə qədər Kəlbəcər rayon maarif şöbəsinin müdiri vəzifəsində çalışan Zal müəllim doğma diyarının maariflənməsi sahəsində çox işlər görmüşdür. Vəzifəsinə ciddi və tələbkar, həyatda səmimi və mülayim olan Zal müəllimin təbiəti onun yaradıcılığına da sirayət eləmişdi.

Aşıq qardaş, götür sazı sinənə,
Əvvəl bir "Divani" çal, ağrın alım.
Həzin-həzin dilə gəlsin urfanı,
Məclisi əlinə al, ağrın alım.

Dil açdı müxəmməs Ağır Şərili,
"Dübeyti", "Dilqəmi", oynaq "Cəlili",
"Yanıq Kərəmi"lə bu "Göyçə gülü",
Qoy tapsın tüllərə yol, ağrın alım.

Baş "Sarıtel", şərxatayı "Ovşarı",
Dəli Koroğludur elin vüqarı,
Asta-asta dinsin el havaları,
Ona qulaq assın Zal, ağrın alım.

Sənət bilicilərimizə yaxşı məlumdur ki, sazda dil açan hər havanın məclisdə öz yeri, öz xanəsi var. El şairi "Ağrın alım" qoşmasını da *"Aşıq qardaş, sazı götür əlinə, əvvəl bir "Divani" çal, ağrın alım"* misraları ilə başlaması təsadüfi deyil.

Xalqımızın bu ulu, ölməz sənətini dərindən bilən, onun elmi və nəzəri köklərinə əsaslanan Zal Cabbarlı yaxşı bilirdi ki, aşıq məclisi hansı hava ilə başlayıb, hansı hava ilə də tamamlamalıdır.

Kəlbəcər ədəbi mühitinin qədim ənənələrinə sadiq qalan bu kamil el sənətkarı bütün ömrü boyu öz yaradıcılığında buna əməl etmişdir.

Çox maraqlıdır ki, Zal Cabbarlı bəzi qoşma, gəraylı, təcnis, müxəmməs, divani və qeyri janrlı şeirlərində Kəlbəcər ləhcəsində yazdığı rədif-qafiələrində onun istər mühitlə bağlı, istər də fərdi yaradıcılığına xas olan bir şirinlik nəzərə

çarpır. Bu baxımdan mərhum el sənətkarının “dayna” rədifli gəraylısı özündən sonra da yumor şirinliyi, qafiyə səmimiliyi ilə sevilir, maraqla dinlənir.

Heyran-heyran, həsrət-həsrət,
Qoy ha baxsın gözdü, dayna,
Yanağında gül rəngi var,
Elə bilək yazdı, dayna.

Dindir könlüm gəlsin dilə,
Sızldatma bilə-bilə,
Deyib, danış gülə-gülə,
Şirin söhbət, sözdü, dayna.

Görmürsənmi qocalıb Zal?
Baş ağarıb, saqqalı çal,
Özün deynən, bir busə al,
Qurtarmaz ki, üzdü, dayna?!

Zal Cabbarlının yaradıcılığı təkcə onun şeirləri ilə tamamlanmırdı.

1955-ci ildən sonra bir neçə vaxt Kəlbəcər rayonunda çıxan “Yenilik” qəzetində redaktor vəzifəsində çalışan Zal müəllim müxtəlif səpkili publisistik məqalələrilə də qədirbilən ellərimizin yaddaşında silinməz izlər buraxmışdır.

Mən Zal Cabbarlı haqqında bu xırdaca qeydlərimi qələmə alarkən stolumun üstündəki kağızlar arasında Zal Cabbarlı haqqında 4 səhifəlik bir məktub diqqətimi çəkdi.

Onun son sətirləri belədir: - “Hörmətli Maşallah Xudubəyli, Zal müəllim erməni faşızmin növbəti xəyanətkarlığı illərində dünyasını dəyişdi. Çox vətənpərvər və insanpərvər kişi idi. Allah ona rəhmət eləsin…

Amma mənim sizdən bir xahişim var. Bir çox sənətkarlarımız kimi Kəlbəcərli Zal Cabbarlını da unutmayın. Yeri gələndə onun ədəbi irsini də arayın, qələmə alın. Onun iki ali təhsilli oğlu və bir filoloq qızı var. Bəlkə onlar atalarının

şeirlərinin sorağını və arxivinin harada olması barədə sizə məlumat verələr. Bir də ki, belə xeyirxahlıq üçün qamışlı camaatı bir daha sizə minnətdar olardı.

Səmimiyyətlə Nəbi Köçkün Göyçəli.

Xanlar rayonu, Murudlu, indiki Dərələyəz kəndi…"

Hörmətli Nəbi kişi, nəzərdə saxlayın ki, mən Zal Cabbarlının övladlarını tanıyıram.Və bu qısa qeydlərimi də təkcə Qamışlı camaatının xatiri üçün yox, el sənətimizin uğrunda öz mənəvi borcumu nəzərə alaraq aparıram. Siz də sağ olun ki, onunla maraqlanıb, əziyyət çəkib mənə məktub yazıbsınız…

Çünki Zal Cabbarlı kimi maarifpərvər ziyalını, publisist yazarı və lirik təbiətli el şairini ayağımız yer, əlimiz qələm tuturkən unutmağa haqqımız yoxdur.

Və "Sənətkarın ömrü onun sənətinin ömrü qədərdir" – deyib aqillərimiz. Elə bilirəm ki, mərhum el sənətkarı Zal Cabbarlının adı da onun sənətinin yaşı qədər anılacaq, xatırlanacaqdır.

O da, sınaqlardan çıxmış bir həyat həqiqətidir ki, vətənpərvər insanın özü dünyasını dəyişəndə ruhu doğma diyarının axşam səhərində olur.

Gün o gün olsun ki, Azərbaycanımızın dilbər guşələrindən biri olan doğma Kəlbəcər öz doğmalarına qovuşsun, Zal Cabbarlı kimi neçə-neçə fədailərimizin narahat ruhu öz axarına dönsün.

# III
# “AQİL MƏCLİSİNDƏ, NATİQ YANINDA”

## ZƏKİ İSLAM

Son hadisələrlə, erməni faşizminin növbəti xəyanətiylə bağlı ulu Göyçənin müsibətlərə düçar olacağına az qalırdı. Düşmən öz daxili xəyanət planlarını nə qədər gizli qursa da, ilanın zəhəri dodağına axır, əqrəbin toxumu üzə çıxırdı.

Qədimdən qədim mahalımızın sabahı canıyananları narahat edir, düşündürürdü. Lakin bütöv bir xalqın vaxtında görə bilmədiyi tədbir tək bir fərdin işi deyildi. İllərdən bəri üzümüzə gülə-gülə çörəyimizi yeyib, suyumuzu içən, qapı-bacamızda yalmana-yalmana pünhanda tələ quran erməni fitnəsi artıq öz işini görür, Qarabağın son kilidi olan ulu Göyçənin əhatəsi daralırdı.

Belə vaxtlarda el-oba təəssübkeşliyi ilə yaşayan sənət adamlarımız da öz imkanları daxilində sözlərini deyir, könüllər dünyasını duyuq salmağa çalışırdı.

Xəyalı daim göyçəlilərin axşam-səhərində olan, yeri gəldikcə onların dərd-sərinə şərik çıxan, mərhum şairimiz Hüseyn Arif belə günlərin birində "Göyçəlilər, dağılmayan Göyçədən"adlı qoşmasını yazıb özünün təsəlli məktubunda mahalın baş bilənlərinə göndərir.

Göyçə qədim, Göyçə ulu Göyçədi,
Göyçəlilər, dağılmayın Göyçədən.
Var-dövlətli, mal-qoyunlu Göyçədir,
Göyçəlilər, dağılmayın Göyçədən.

Toxulcada axdı bulud, ötdü çən,
Xəbər tutdum durnaların köçündən,
Atla keçdim Ağbulağın içindən,
Göyçəlilər, dağılmayın Göyçədən.

Göyçə eli şöhrətlidir ellərin,
"Göyçə gülü" əzbəridir dillərin,
Göyçə gölü göyçəyidir göllərin,
Göyçəlilər, dağılmayın Göyçədən.
Xoş ləhcəni, şirin dili saxlayın,

Həm sevinci, həm niskili saxlayın,
Zodda zodu, Cildə cili saxlayın,
Göyçəlilər, dağılmayın Göyçədən.

Aləm bilir, hər hörmətim sizədir,
Dədə-baba məhəbbətim sizədir,
Mən Arifəm, vəsiyyətim sizədir,
Göyçəlilər, dağılmayın Göyçədən.

Göyçə mahalına yetişdiyi gündən dillər əzbərinə döndü bu şeir. Necə deyərlər, artıq alışmaqda olan sinələrə az da olsa təsəlli suyu çiləyə-çiləyə evdən-evə, məclisdən-məclisə gəzib dolaşdı.

Lakin bu vaxta qədər "həm sevinci, həm də nisgili saxlayan" mahal sakinlərinin nisgili artıq sevincini ötüb keçməkdəydi...

Bununla belə ulu Göyçənin nikbin əhval-ruhiyyəli el sənətkarları Hüseyn Arifin bu çağırışını cavabsız qoymadılar. Aşıqların dilində reallıqdan yaranmış sənədli bir dastan kimi söyləndikcə dildən-dilə, eldən-elə yayılırdı.

Onların ən öncülü, ən istiqanlısı bu sazlı-sözlü diyarın şair oğlu Zəki müəllim idi.

Ulu Göyçənin hər qarış torpağından ötrü canından keçməyə hazır olan Zəki İslam!

Hüseyn Arif, vəsiyyətinə baş əydim,
Göyçəlilər köçməyəcək Göyçədən,
Şahlar şahı, yerin, göyün panahı,
Keçməyibdi, keçməyəcək Göyçədən.

Şah İsmayıl demiş Miskin Abdala,
"Qardaşımsan, qal yanımda, a bala",
Aşıq demiş: - "Əgər dözsəm bu hala",
Qəbrim, ruhum köçməyəcək Göyçədən.

Dəfələrlə boşalıbdı, dolubdu,
Ziddiyyətlə açan güllər solubdu,
Göyçəlilər Göyçəli tək olubdu,
Özlərini seçməyəcək Göyçədən.

Peşqurd vaxtı peşqurd almış arandan,
Dalda şələ, dağ yolunda borandan,
Azanları gədiklərdə dumandan,
Keçməmişlər, keçməyəcək Göyçədən.

Gedənləri ad qazanıb, ad alıb,
Şöhrətlənib, insan kimi ucalıb,
Mərdliyinə, düzlüyünə düz qalıb,
Köçənlər də köçməyəcək Göyçədən.

Hər qayada hər bir əsrin sirri var,
Yad gözündə gözlərinin tiri var,
Ürəklərdə Qəşəmlinin yeri var,
El oğlu tək köçməyəcək Göyçədən.

Gözəlləri gözəl kimi yaranıb,
Sığal verib, cilvilənib, daranıb,
Namusu, qeyrəti gözəl yaranıb,
Özgə gözəl seçməyəcək Göyçədən.

İnəyin kərəsi, beçənin balı,
Əmliyin kababı xoş edir halı,
Dolaylarda kəhər atın ağ nalı,
Düşməyibdi, düşməyəcək Göyçədən.

Biz pürkamal ustadları gözlərik,
Nəvəsiyik, izləmişik, izlərik,
Göyçədə yaşayan bizik, bizlərik,
Dağlar köçməz, köçməyəcək Göyçədən.

Hər bir evdə açılmamış dastan var,
Qəhrəmandan yazılmamış dastan var,
Zəki İslam, hər könüldə islam var,
Aslan keçmir, keçməyəcək Göyçədən.

Fəqət, kənar seyrçilərə, Göyçəni özlərinə yalnız bahardan-bahara istirahət yeri bilənlərə dərindən çata bilməzdi bu deyimlərin mənəvi tərəfi. İllərin qoynunda Zəki İslam özünün qılıncdan kəsərli sözləri, müdrik tədbirləri ilə erməni yağılarına cavab verə-verə yaşayırdı doğma ocağında. Onun başı ağrılar çəkdikcə el yolunda, Vətən yolunda, özünə xoş bilirdi bunları.

Onun könülsüz və əlçatmaz addımları ayrılsa da, ürəyi ayrılmadı ana Göyçədən.

Mənim şah vüqarım, doğru ilqarım,
Gözümün işığı qaldı Göyçədə.
Ana yurdum ana kimi əzizdi,
Elim-günüm şirin baldı Göyçədə.

Azərbaycan ürəyimdi, ürəyim,
Bədəndə sinəmdi, enli kürəyim,
Qarabağdı hər vüqarım, gərəyim,
Cəsarət Rüstəmi-zaldı Göyçədə.
Doymaq olmur el sözündən-səsindən,
Kövrəlirəm söz düşəndə bəhsindən,
Zəki İslam bəxtin zəmanəsindən,
Ayrılıq təbini çaldı Göyçədə.

Beləcə zorla, güclə aldılar onu Göyçədən, Göyçəsini ondan. Bəşər tarixinə qanlı hərflərlə yazılan 1988-ci ilin erməni xəyanətləri başladığı gündən Zəki İslamın yanıqlı ürəyi nələr çəkibsə, hamısını sətirbəsətir sinəsindən kağızlara ələyib.

Gündüzlər xəyalı, gecələr röyası doğma diyarından bircə an da ayrı düşmür...

Gecə yuxum, gündüz ruhum,
Hələm Göyçədə-Göyçədə,
Müşki-ənbər dərdə dərman,
Güləm Göyçədə-Göyçədə.

Altı bahar, altı qışdı,
Altı il də altı yaşdı,
Deyəmmərəm başdan-başdı,
İlim Göyçədə-Göyçədə.

Babalarım, nənələrim,
Allah haqdı, özü Kərim,
Hər addımım, şah əsərim,
Qələm Göyçədə-Göyçədə.

Xəyal gəzir, göz ağlayır,
Kəlmə-kəlmə söz ağlayır,
Dərə-təpə, düz ağlayır,
Lələm Göyçədə-Göyçədə.
Zəki İslam, dolan daşar,
Qayıdar el, dalar aşar,
Belə getməz, bir gün coşar,
Ələm Göyçədə-Göyçədə.

Onun mənəvi vüqarı da zahiri görkəmi kimidi. Əyilməz və yenilməz. Amma düşmənin güc gəldiyi vaxtlarda, zor əliynən el-obasından ayrı düşəndə də sabaha olan ümidini qırmayıb.

Gülməyin də yerini bilib, ağlamağın da.

Bütün bunlarla yanaşı özünün bütün imkanlarını yad əlində inləyən torpaqlarının sabahkı işartısına həsr edib.

*“Elimi görməyə həssas gümanlı”* sözlərini də təsadüfən işlətməyib bu incə duyumlu el sənətkarı.

Eli görmək, onun xeyrinə, şərinə canı-dildən şərik olmaq niyyəti isə ancaq doğma diyarın qoynunda hasil ola bilər.

Bax, bu gümanda, bu arzuda, bu niyyətdədir ulu Göyçənin məhsuldar el sənətkarı Zəki İslam...

Vətən həsrətində, el həsrətində,
Ağlayan da mənəm, gülən də mənəm,
Dağılmışdıq, dağıtdılar elimdən,
Gəlməyən də mənəm, gələn də mənəm.

Elə bil gövhərəm, başı dumanlı,
Qəribəm qürbətdə ahlı-amanlı,
Elimi görməyə həssas gümanlı,
Bilməyən də mənəm, bilən də mənəm.

Hanı elə insan tuta əlimnən,
Zəkiyə şad xəbər verə elimnən,
Dağılan yurdundan, viran cilindən,
Gülməyən də mənəm, gülən də mənəm.

Əsl insan kamalı, sənətkar əqli dünyada hər mətləbə qadirdi. Məhəbbət isə çox geniş məfhumdur.

Bircə içim sudan, bir ovuc torpaqdan, bir parça daşdan başlayan Vətən məhəbbəti, bircə duyumluq ana istəyində tamamlanır.

Onlardan şaxələnən eşqin sevdası da bu minvalnan dönür pünhan bir qayğının giley-güzarına, ərkyana diləyinə...

Gülüstansan güllərini,
Qoyma özgə üzə barı.
Varlığımsan, həyatımsan,
Salma dərdim üzə barı.

Sifətində, buxağında,
Ürəyində, dodağında,
Sevincində, yatağında,
Mən də gələm sizə barı.

Kimin ki ürəyi əsl Vətən təəssübündən doğulubsa, beləsinin həyat amalı dönməzdir, hissi, duyğusu təmizdir.

Müqəddəs vərdişlər isə daim bir-birinə bağlıdır. Bütün bunlar şəxsiyyətin simasında sənətə sirayət edir, sevginin özünə səmimi münasibətlər bəsləyir...

Mənim həsrət baxışlarım,
Görən səni unudurmu?!
Can deyirəm, qurban ollam,
Qulaqların eşidirmi?!

Mənliyindən əyilməyim,
Yersiz danışıb, gülməyin,
Qovrulmağın, bükülməyin,
Məhəbbətin işidirmi?!

Aç tarixi varaq-varaq,
Sən sevginin hökmünə bax,
Zəki İslam, üzdəniraq,
O da səni unudurmu?!

“Ocağı insan yaşadar” deyib ulularımız. Ulu Göyçənin maraqlı el sənətkarı Zəki İslam harda olubsa, həmişə doğma yurdunun mənəvi vərdişlərini yan-yörəsinə də aşılayıb.

Heç vaxt el-obasının xeyrindən, şərindən qalmadığı kimi özünün də xeyirxah əməllərini kimsədən əsirgəməyib.

Bu gün Vətənin qürbətdə qaldığı bir vaxtda Zəki İslam Göyçənin ədəbi mühitini yaşadanların səsinə səs verir, onların önündə addımlayır.

Özü ata ikən bir şair kimi şair övladına bu kitabın müəllifinə göstərdiyi qayğıkeşlik də məhz bu mənəvi duyğuların məhsuludur.

Mənim dərdim, sənin dərdin eynidi,
Ata demə, ata dərdi çətindi,
Ata üzü görməmişik, Maşallah,
Babayam, yenə də birdi, çətindi.

Dəcəllik eləyib ata yormadıq,
Övlad olub qulluğunda durmadıq,
Kim deyər ki, aramadıq, sormadıq,
Zaman bizə sinə gərdi, çətindi.

Anam yol gözləyir, hər saat, hər an,
Əlli dörd ildir ki, səbri durmadan,
İstəsə düzəldər qadiri-sübhan,
Anam mənim üçün pirdi, çətindi.

Lala ana Lalasıdı Göyçənin,
Balalar da balasıdı Göyçənin,
Cənnətə bax, havasıdı Göyçənin,
Gözüm niyə qaçqın gördü, çətindi.

Xəstə Bayraməli eli yandırır,

İslam pürzə kimi külü yandırır,

Zəkiyə əl atma, əli yandırır,

Şükür, yaradana, sirdi, çətindi.

İstər bir xeyriyyəçi, istər də el şairi kimi Zəki İslam ulu Göyçənin sənət təbliğindən qalmır, özünün Vətən həsrətini bu mənəvi dəyərləri ilə ovudur.

Belə yaddan çıxmayacaq anları çoxdu Zəki müəllimin.

1995-ci il aprel ayının 14-də Azərbaycan Dövlət Filarmoniyasında ulu Göyçənin qüdrətli söz ustadı, şair Xəstə Bayraməlinin 95 illik yubileyi ilə bağlı saysız-hesabsız insan axınında keçirilən ədəbi məclisin şöhrəti bütün Şərq aləminə yayılanda Zəki İslam bu tədbirin təbəssüm dadını ilkin duyanlardan biri oldu.

Qədirbilən el sənətkarı özünün fəal iştirakı ilə kifayətlənmədi. Eyni zamanda, Xəstə Bayraməlinin adına və onun oğluna həsr etdiyi qoşmaları öz səmimiliyi, sadəliyi ilə seçilir, könül oxşayır...

Axı bu yubiley tədbiri Xəstə Bayraməlinin söz incilərindəki bəşəri məhəbbət mövzusundan başlayıb Göyçə adlı qədim bir diyarın el-oba ayrılığında tamamlanırdı.

Elə Zəki İslamın deyimləri də məhz bu mənanın fövqündə dayanır.

Bülbüllər sevindi, ilhama gəldi,
Nəğmələr qoşdular gül xəstəsindən,
Göyçə mahalından, Göyçə elində,
Bir oğul doğuldu el xəstəsindən.

“Xəstə” ləqəbinin mənası dərin,
Bilənlərə canım qurban, afərin,
Belə bir ustadın, baş sənətkarın,
Üzmərəm əlimi əl xəstəsindən.

Görənlər söz açır, pür kamalından,
Uca qamətindən, nur camalından,

Oxuduq, dərs aldıq hər kəlamından,
Şair xəstəsindən, el xəstəsindən.

“Mənim Göyçəm”, deyə ucalan səsi,
Xəstə Bayraməli, Vətən kəlməsi,
“Mənim ana dilim” dilim həvəsi,
Göstərdi özünü dil xəstəsindən.

Zəki İslam haqqa nəzər salıbdı,
Biz Göyçəsiz, Göyçə bizsiz qalıbdı,
Altı ildi, sazım qəmli çalıbdı,
Zaman ayaq açır, il xəstəsindən.

Bəli, sazını qəmli çaldığı gündən bəri Zəki İslamın nikbin əhvali-ruhiyyəsi də öz əvvəlki dəyanətiynə yaşayır. Axı babalarımız onu da deyiblər ki, “hər şeyin öz vaxtı var”

“Vaxtsız torpaq düşməz” deyib atalar,
Hər şeyin öz vaxtı, öz vədəsi var,
Təbib qarşı gələr, yara sağalar,
Ağlama, sızlama, döz, vədəsi var.

Sərçə kol axtarar, bülbül istər gül,
Nadana yol qanqal, yol da göstər gül,
Qəlbin kimi istər ağla, istər gül,
Ocağın səngiyən köz vədəsi var.

Mərdə düşmən olar namərd nəzəri,
Duya bilməz nə zərgəri, nə zəri,
Taleyin qüdrəti, haqqın nəzəri,
Zəkiyə baxmağın göz vədəsi var.

Bir çox mövzularda yaradıcılığını inkişaf etdirən el şairinin nəsihətamiz sözləri də gəncliyin sabahına dəyərli tövsiyələridir.

Mərdlik, üzüdönməzlik, dəyanət, gələcəyə ümidli baxış!

Bütün bu keyfiyyətlərin sonluğu isə bir daha Vətən, torpaq, el-oba istəyinin sonluğunda tamamlanır Zəki müəllimin deyimlərində.

Onu yaxından tanıyanlar bir fikri mütəmadi işlədirlər:

- "Zəki İslam əsil Allah adamıdır".

Mən ağlım kəsəndən, gözüm görəndən,
Allahu Məhəmməd, Əli demişəm,
On iki imama, Həzrət Abbasa,
Üz tutub xudaya, bəli, demişəm.

Ustadlar ustadı, ustad pirinə,
Allahın sağ əli, merac şirinə,
Göydə bölünəni yerdə yerinə,
Düz tutan Əliyə, bəli demişəm.

Fatmeyi-Zəhraya Qurbandı canım,
Heydəri-kərrarim, şahi-mərdanım,
Mən Zəki İslamam, şöhrətim-şanım,
Əzəldən, Əlidi, Əli demişəm.

Beləcə əli daim Tanrı ətəyindədir, haqqa-ədalətə baş əyən Zəki İslamın. O, müqəddəs dinimizi duyaraqdan, onun hər mətləbini bütün incəliklərinə qədər anlayaraqdan sevir, ona əsl dinsevər kimi sitayiş edir.

İslamın humanist qanunlarına anlayaraqdan sitayiş edənlər isə həmişə elinə, obasına, Vətəninə, torpağına gərəkli adamlar olublar.

İllər ötüb dolandıqca,
Keçir yaşdan-yaşa dağlar,
Gül-çiçəyə boylandıqca,

Fikirləşir, yaşa, dağlar!

Daşlarında qatar-qatar,
Qoyun otlar, quzu yatar,
Hər könüldə öz sözün var,
Gəlir qələm coşa, dağlar!

Tarixini aldım ələ,
Oxuyuram gülə-gülə,
Neçə əsrə, neçə ilə,
Aylar, illər qoşa dağlar.

Duman gələr, dərə dolar,
Qar yağanda çovğun olar,
Lalə, nərgiz tezcə solar,
Boyun bükər, daşa dağlar.

Axan sular coşub-daşır,
Zəki, sözlərin yaraşır,
Gədiklərdən karvan aşır,
Çəkir ellər haşa, dağlar!

İndi Zəki İslam o dağlardan ayrı düşüb. Nə müddətdi boynu bükük bənövşələr alqırmızı lalələr bağrı yanıq qalıb.

Dərələrdən axan çayların nəğmələri həzinləşib, uca zirvələrdə buludlar daha da kövrəkləşib.

Amma el də yaşayır, elin sənəti də...Arada isə bir çəkilməz həsrət var: **AYRILIQ!**

Qürbətdə qalan Vətənin ayrılığı!

İnsan iradəsi, insan zəkası, el-oba birliyi ona da qələm çəkməyə qadirdi.

Bax, bu nikbin duyğularla boylanır ömrün sabahına Zəki İslam yaradıcılığı.

## ÇOPUR ƏLƏSGƏR

Ulu diyarlarımızdan biri olan Tovuz elində bir kənd var. Bozalqanlı kəndi. Onun adını çəkəndə sazlı-sözlü dünyamızın neçə-neçə adlı-sanlı sənət ustaları, söz-söhbət xiridarları yada düşür. Dəmirçi aşıq Hüseynin gur səsi ayların, illərin qoynundan üzü bəri dalğalanıb dərələrdən axan nəğməkar çayların səsinə qarışır. Aşıq Hüseyn Bozalqanlının ölməz inciləri könlümüzdə qatarlaşıb, dilimizin əzbərinə dönür.

Bu minvalnan da özləri gedib sözləri, söhbətləri, dərin mənalı şirin havaları bu ülvi sənətin ölməzliyinə qovuşub, el-obamızın daimi anılacaq xatiratına dönüb.

Onların cərgəsində Bozalqanlı kəndini saz-söz ustadlarından biri kimi qədirbilən ellərimizin dilindən düşməyən bir ad da var. Ələs Tağıyev. Aşıq Ələs özünə görə yadda qalan, könül oxşayan səsi, dadlı-duzlu söhbətləriynən sayılıb-seçilən elə sənətkarlarımızdan olub.

Bu söhbətimizin səbəbkarı Aşıq Ələsgər Tağıyev də, neçə il öncə aşıq Ələsin komasında dünyaya göz açıb. Hələ ata barmaqlarının pərdələr üzərində gəzintisindən eşitdiyi sehrli saz havacatları da ana laylası qədər doğma, şirin olub uşaqlığından ona.

Di gəl tale yazısı ona ata ustadlığını qismət eləmədi. Ələs kişi dünyasını dəyişəndə Ələsgərin 12 yaşı vardı.

Aşıq Ələs ömrünün axır çağlarında sənət dostu Aşıq Hüseyn Bozalqanlını yanına çağırıb demişdi: - “Hüseyn, bir Allah bilir ki, mən səni bu dünyada qardaşdan artıq bilmişəm. Dostluğuna, düzlüyünə, sədaqətinə, etibarına inanmışam. İndi hiss eləyirəm ki, ömrümün axır çağlarıdı. Bu uşaqdan sarı nigaran gedirəm bu dünyadan. Gözün onun üstündə olsun. Saza, sözə meyli, həvəsi var. Səsi də pis deyil. İşdi, bir vaxt mənim yolumu tutmaq istəsə, onun ustadlığını öz boynuna götürərsən, əlindən tutub yol-ərkan göstərərsən.

Dəmirçi aşıq Hüseyn dostunun bu son vəsiyyətindən kövrəlmiş, ona ürək-dirək vermişdi. Vaxtsız ölüm öz işini görəndən sonra aradan aylar, illər keçmiş, adı yetimlik ünvanına yazılmış Ələsgər böyüyüb boya-başa çatmışdı. Lakin ata qanından gələn irsilik onun varlığını çulğamaqdaydı. Əlləri ata əllərindən vaxtsız

vədəsiz üzüldüyü gündən bəri taleyindən nə qədər küskün olsa da, sazdan ayrıla bilmirdi. Bir yandan damarlarından axan ata qanının təsiri, bir tərəfdən də Bozalqanlı aşıq məktəbindən görüb-götürdüyü həyat dərsləri. Bununla belə ustad tövsiyələrinə, ustad öyüd-nəsihətlərinə ehiyacı vardı. Bax, bu yerdə atasının dostluq tövsiyələri gərəyi oldu.

Ötən günlərin söhbətidi. Bir dəfə o, ustadı Aşıq Dəmirçi Hüseyn Bozalqanlının yanına gəlib fikirli-fikirli dedi:

- Ustad, sənə bir sözüm var. Amma deməyə ürək eləmirəm.

- Nə deyirsən, oğul, de görüm. Özün bilirsən ki, mən səni əziz dostumun ciyərparası kimi ürəkdən istəyirəm. Sən də ürəyindəkiləri məndən gizlətmə. De görüm nə deyirsən.

- Ustad, beynimə yaman fikir gəlib, istəyirəm aşıq sənətini buraxam, gedib kolxozda suçuluğumu eləyib başımı girləyəm. Dəmirçi Aşıq Hüseyn şəyirdindən gözləmədiyi bu sözlərdən əvvəlcə tutulmuş, fikrini cəmləyəndən sonra onu danlamışdı.

Hər dəfə aşığı dinləyəndə biz də belə düşünürük, belə fikirləşirik. Rəhmətlik ustadı demişkən, Aşıq Ələsgər Tağıyevin Allah vergisi olan azman səsi var. Oxuduqca açılır, pərvazlanır. Bülbül nəfəsli Aşıq Əkbərlə çiyin-çiyinə məclislər apardığı vaxtlarda onların söz-söhbəti də beləcə yanaşı düşdüyü vaxtlar çox olub.

Hərəsinin öz yol-ərkanı var bu ustadların. Səsin gözəlliyi öz yerində, nəfəsin tükənməzliyi, bir də Allah vergisi…

Mərhum Aşıq Əkbərin ona qabaq verib irəli buraxdığı çağlarda el-obasının diliynən dediyi kimi: - Başla görək, ə, a "Paravoz" Ələsgər, başla…" sözləri necə səmimi, necə ürəkdən gəlimli səsləşərdi…

Elə ki Ələkbər Tağıyev irəli durub barmaqlarını zil pərdənin boynuna sıxdı, bax, onda bu ləqəbin mətləbini əzəlcə bilməyənlər də yerindəcə anlayıblar. Deməli, bu gur, davamlı, axımlı səsin sahibinə ona görə "çopur" Ələsgərdən əlavə həm də "Paravoz" Ələsgər deyiblər.

Bir dəfə yaxın sənət dostlarımdan biri zarafatyana Ələsgər Tağıyevə deyib ki, Ələsgər, zəndinən baxanda heç sənin üzündəki çopurluq o qədər də sezilmir. Gəlsənə camaata "Çopur Ələsgər" deməyi tərgidək?!

Ələsgər bir arif təbəssümüynən cavab verib ki, - Yox qardaş, nə danışırsan? Rəhmətlik atam Ələsgər adını mənə verməknən çiynimə ağır yük qoyub. Çünki mən də aşıqlıq sənətinə qulluq edirəm. Hərdən adımı "Aşıq Ələsgər" deyə çağıranda ustadlar ustadı Aşıq Ələsgərin qeybdən gələn zəhmi məni basır, onun adı, şöhrəti qabağında sıxılıram. Yenə də yaxşı ki, "Çopur" ləqəbim var. Onu gec-gec eşidəndə darıxıram. Allah el-obaya kömək olsun.

Beləcə sadədi, səmimidi, ürəyəyatımlıdı Aşıq Ələsgər Tağıyev. Həyatda necə varsa, sənətində də eləcə olduğu kimi görünür. İbarəlikdən uzaqdı. Səsi kimi söhbəti də şirindi, dadlı-duzludu. Dastan söyləmələrində onun maraqlı dönümləri, nəzəri cəlb edən bir adəti var. Bəzən çıxdığı haşiyə adama əzəlcə gözlənilməz gəlir. Elə ki dastanla bağlı hadisənin məzmununa qaynayıb qarışan sonluğu görəndə, duyan könüllər ona heyran kəsilir. Özü də o həmişə dastanda yumorlu haşiyələr çıxır. Belə hallarda bütün məclis zəhimli gülüş selində axırkən onun özünün dodağı qaçmır.

Bu gün Aşıq Ələsgər Tağıyev öz kamil sənətiynən nə qədər şöhrətlənib, ad-san qazanıbsa, o qədər nazilib, sadələşib. "Ağac bar gətirdikcə başını aşağı dikər" müdrik kəlamını özünə bayraq eləyən ustad sənətkar bu yolda özünə hörmət qazanıb. Haqqında söz düşəndə "Çopur Ələsgər"in xatirini istəməyən, sənətini sevməyən az adam tapılar, ya da heç tapılmaz" kimi xoş fikirlər tez-tez söylənir. Bax, beləcə də bir insan kimi, bir sənətkar kimi dinlənir, sevilir, öyülür…

Gəncə-Tovuz aşıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Aşıq Ələsgər Tağıyev el sənətimizin, klassik saz havalarımızın mahir təbliğatçılarından biridi. O, "Kərəmi" və "Koroğlu" havalarını, "Köhnə Şərili"ni, "Göyçə gülü", "Cəlili", "Dübeyti", "Qaytarma", "El havası", "Orta Sarıtel", "Baş Sarıtel", "Qaraçı" və "Aran gözəlləməsi" kimi onlarla saz havalarımızı yenidən yaşadır. Məclisdən məclisə təzə abu-havaynan dilləndirir.

Bununla belə ustad sənətkar bu havaların qədim çalarına yüngül xallar gətirməyin əleyhinədi.

- Havanı yerli-yerində çala bilmirsənsə onun qol-qabırğasını qırma, - deyir. – Hər saz havasının öz yeri-yatağı, öz xalları, öz döndərmələri var. Gərək onu qoruyub saxlayaq ki, biz də bu sənətin yollarında bu gündən sabaha bir iş görmüş olaq, bir iz, bir öyüd-nəsihət qoyub gedə bilək.

Vaxtının ən müdrik çağlarında deyir bu sözləri, bu ustad eyliyindən doğan qiymətli tövsiyələri Aşıq Ələsgər Tağıyev əhli-hal ömür yollarında həm həyatın, həm sənətin hər üzünü, hər çətinliyini görüb. Uğur qazandıqca ustadlara rəhmət oxuyub, darıxanda telli saza sığınıb. Bu ulu sənətimizi, mənəvi dünyamızın əvəzsiz yaraşığını duymayan duyğusuzlara qarşı barışmaz olub, ondan həzz almağı bacaranları özününkü bilib, onlara güvənib. Qiymətini eldən alıb, şövqünü, həvəsini sənətin gözəlliyindən.

Aşıq Ələsgər Tağıyev hər yerdə öz sənətinə eyni halda məsuliyyətlə yanaşır, onunla ürəkdən, istiqanlı davranır. Aşıq hər yerdə öz sənəti ilə fəxr edir.

İstər bir adamın yanında olsun, istər min adamın. Təkcə bir şərtlə ki, onu dinlyənlər sazın-sözün qiymətini yerində verə bilsinlər, onun dəyərini anlasınlar.

Həm bir insan, vətəndaş, həm də bir el sənətinin təəssübkeşi kimi daim narahatdı Aşıq Ələsgər Tağıyev. “Sazım da, sözüm-söhbətim də, özüm də nə müddətdi səksəkəliyik – dedi, hal-əhval tutanda, torpaqlarımızdan ötrü nə gecəmiz var, nə gündüzümüz. Allah mərdiməzarın, müxənnətin öyünü yıxsın. Bizlər kimin toyuğuna daş atmışıq ki. Müxənnət elə həmişə müxənnətdi…”

Ayrılanda əlini sıxıb dedim:

- Darıxma, ustad, qoy Tovuz elinin mard oğulları düşmən qabağında dönməz olsunlar. Vaxt gələr namərd də, müxənnət də öz bəlasını bular, inşallah. Sən halal ocaqların haqq səsi olan telli sazını sinənə bərk sıx. Çünki bizim Misri qılıncımız ömrün hər macalında telli sazımıznan qoşa dayanıblar dost-düşmən qabağında…

# MƏHƏRRƏM HÜSEYNLİ

Aşıq Məhərrəm Hüseynli bir sənətkar kimi el-obasında yaxşı tanınır. Özünəməxsus səhnə mədəniyyəti, yarı-yaraşığı, sərbəst söhbətlərində dinləyiciləri özünə cəlb etməyi bacarır…

Sevib-seçdiyi sənətə ürəkdən bağlılığı ona ömür yollarında xeyli uğur qazandırıb. Aşıqlar oylağı Tovuz elindən başlayan kövrək addımları sənətin çox da hamar olmayan yollarında günü-gündən bərkiyib, mətinləşib. Ustadlardan öyrənib, görüb-götürdükcə bu sərnədə öz cığırını açıb.Səsində qomrovluğuna, mütaliəsində hafizəsinə güvənib, çalıb-çağırdıqca açılıb, arayıb-axtardıqca biliyini artırıb.

Aşıq Məhərrəm Hüseynli də, bir çox başqa sənətdaşlar kimi ilk həvəsini el məclislərində, toy şənliklərində artırıb. Kənddə-kəsəkdə, qohum-qonşuda keçirilən saz-söz yığnaqlarından qalmayıb. Hərəsindən də, nə isə götürüb, hansı incinisə mənimsəyib.

Və nəhayət seyrçilik mövqeyindən ustad mineynəsinə qədəm qoyub, sənətin çətin sınaq dövrlərini başlayıb.

Mikayıl Azaflı müdrikliyi çox şagirdlərin yoluna çıraq tutub, neçə-neçə nabələdlərin əlindən tutub, onlara bələdçilik edib. Çox arzuları muradına çatdırıb, neçə çılğın gəncliyin mayedən zilə keçən fitri işartısını görüb, onu yerində qiymətləndirib. Sonra da, onlardan nə qayğısını əsirgəməyib, nə zəhmətini.

Məhərrəmi də beləcə alıb öz qartal qanadının altına vaxdilə o böyük ustad. Həyat və sənət dərsi keçib ona. Arif qanan məclisində ədəb-ərkanından tutmuş, aqilli-cahilli el yığnaqlarında dədələrimizin müdrik tövsiyələrini aşılayıb ona…

Sonralarsa Aşıq əkbər şuxluğundan, onun səsindəki təbii qomrovluqdan yük tutub özünə. Zildə davamlılıq, pəs məqamların şirinliyini və zəngulələrinin çevik döndərmələrini saxlaya bilmək məharətini mənimsəməyə çalışıb…

Və nəhayət, Koroğluya bənzəyib Koroğlu aşıqlarının cərgəsinə qarışmaq vərdişini isə özündən sonra da əsil “Koroğlu aşığı” kimi daim yaşayacaq və anılacaq İmran Həsənovun ustadlıq eyliyindən qazanıb…

Beləcə də adi ustadlardan, öz yanından özünü kamil sayanlardan almayıb dərsini Məhərrəm Hüseynli.

Bu minvalnan da, az-çox nə qazanıbsa sənət yollarında, bax bu ustadlarına minnətdardır, onların ünvanına dualar oxuyur.

Ömrünün ən qaynar çağlarını yaşayan el sənətkarının özü də, sazlı-sözlü Tovuz elinin Qaradaş kəndində dünyaya gəlib. Təbii ki, ağlı kəsdiyi gündən doğulduğu mühitin abu-havasından qidalandıqca səsinə yeni məhəbbət, avazına yenidən həvəs gəlib. Yavaş-yavaş el-oba şənliklərinə ayaq açıb. Ustadlarından qayğı gördükcə sənətinin sabahına olan ümidləri çoxalıb. Hələ 15-cə yaşından dastanlarımızı sinədəftər eləməyə başlayıb. “Abbas və Gülgəz” dastanını, Türk dünyamızın baş ucalığı olan Koroğlumuzun bütün boylarını, Aşıq Ələsgər və Hüseyn Bozqanlı barədə əhvalatları bir yandan öyrənib, bir tərəfdən də yeri gəldikcə ustadlarının kölgəsinə sığına-sığına el məclislərində söyləyib.

Aşıqlıq sənətinin saysız-hesabsız meyarlarından biri olan hafizə yaddaşlığı Məhərrəm Hüseynliyə də xas olan yaxşı cəhətlərdəndir. O, hər hansı dastanı və ya əhvalatı sinəsinə köçürməkdə çətinlik çəkmir, ləngimədən onu qavrayıb repertuarına daxil edir, günü-gündən onu zənginləşdirir.

Sevib-seçdiyi ustadlarının, xüsusilə İmran Həsənovun məsləhətilə təhsilini də davam etdirməyi unutmayıb. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) müvəffəq qiymətlərlə bitirib.

Anamız Bakı şəhərinə belə bağlanıb gənclik həyatının ən gözəl çağlarında Məhərrəm Hüseynli.

Amma özü daim el-oba yığnaqlarnda, kəndin-kəsəyin toyunda, düyünündə.

Heç şübhəsiz ali təhsilli aşıqlarımız çox olub. Onların arasında bu təhsildən bəhrələnib bilik dairəsini genişləndirən də var, onu bilmərrə unudub, sənət yollarında bir tərəfli istiqamət götürənlər də...

Aşıq Məhərrəm isə birincilərdən olub. Daimi mütaliəsilə nəzəri biliyini artırmağa çalışıb. Ali məktəb müəllimlərindən mənimsədiyi elmiynən, ustadlarından aldığı örnəklər vəhdəti ona uğurlar qazandırıb.Vaxtaşırı dövri mətbuatda çıxışlar edib, gördüklərindən, bildiklərindən bəzi anların təəssüratını oxucularla bölüşüb.

Müxtəlif illərdə “Şəhriyar”, “Ədəbiyyat incəsənət”, “İki sahil”, “Açıq söz”, “Həqiqət”, “Ulu Göyçə”, “Sahil”, “Oğuz eli”, “Azərbaycan dünyası”, “İncəsənət”, “Təbriz”, “Azərbaycan yolları”, “Dəmir yolu”, “Mühakimə”, “Vətəndaş həmrəyliyi” və başqa bu kimi qəzetlərdə neçə-neçə məqalələri dərc edilib.

Bu baxımdan onun bir aşıq kimi yaradıcılığa meyl göstərməsi də təsadüfi deyil. Müxtəlif vaxtlarda dərc etdirdiyi “Elin mərdi olsa”, “Dağların qartal oğlu” kitabları, bəzi qəzetlərdə çıxan müxtəlif səpgili aşıq şeirləri onun özünəməxsus çalışqanlığına, mütaliə həvəsinə dəlalət edir.

Əli əldən üzüləni,
Tərifləmə, tərifləmə,
Dərdi-qəmnən əziləni,
Təhrifləmə, təhrifləmə.

Sözün varsa, sözünü de,
Özün varsan, özünü de,
Düzün varsa, düzünü de,
Hərifləmə, hərifləmə.

Nələr gördüm bu fələkdə,
Min arzulu bir diləkdə,
Yandın fitnəli kələkdə,
Körükləmə, körükləmə.

Bu taleyin sınağı var,
Min-min ağır yığnağı var,
Mərdin mərd də qonağı var,
Qəribləmə-qəribləmə.

Duy Məhərrəm köməyini,
Zəhər etmə yeməyini,

Cəfakeşin əməyini,

Şərikləmə-şərikləmə.

Həyat yollarında bir fərd kimi aşıq Məhərrəm Hüseynli bacarıqlıdı. Daim axtarışda, el-el, oba-oba gəzintilərdədi. Saymağa ehtiyac duymadığımız bir çoz xarici ölkələrdə olub, sənət adamları ilə ayrı-ayrı kollektivlərlə yaradıcılıq əlaqələrində görüb-götürüb, bu yolla çox şey qazanıb. Bir çox baxış müsabiqələrinin qalibi kimi mükafatlara layiq görülüb. Onun fəallığı bu sarıdan həmişə Məhərrəm Hüseynliyə uğur qazandırıb. Vaxtaşırı efirdə, ekranda səslənir, potensial imkanlarını tamaşaçılara və dinləyicilərə aşkarlayır. Bu yolla həm sənətdəki fəaliyyətini isbat edir, həm də qulluq etdiyi sənətə sədaqəti ilə el yolunda təmənnasız qulluğunu. Bu nöqteyi-nəzərdən Aşıq Məhərrəmin başqa yönümdə də fəallığı müsbət nəticələr verib. Bu zamana qədər dünyasını dəyişənlərin və öz müasirlərinin bir sənət adamı olmaqla xatirə və görüm tədbirlərinin keçirilməsində xüsusi təşkilatçılıq qabiliyyəti də özünə xas olan müsbət cəhətlərdəndir.

Bu əlamətlərinə görə Azərbaycan Aşıqlar Birliyinə dəvət edildikdən sonar Məhərrəm Hüseynli öz vəzifəsinə ürəkdən yanaşıb. Bu sarıdan da əlindən gələni əsirgəməyib. Orada keçirilən ən mühüm tədbirlərin fəal təşkilatçılarından olub. 1984-cü ildə keçirilən 4-cü Aşıqlar Qurultayının nümayəndəsi və Azərbaycan Aşıqlar Birliyinin üzvü kimi də üzərinə düşən sənət öhdəliklərinə canıyananlıqla yanaşıb.

Bir ifaçı aşıq kimi Məhərrəm Hüseynlinin səsi bütövdür, davamlıdır. O, zil səsə malikdir. Və bu sənət məxsusluğu ilə el-oba arasında Koroğlu aşıqlarımızdan biri kimi tanınır.

Ümumiyyətlə, “Koroğlu aşığı” adını daşıyan el sənətkarlarımız bu çağırışa yalnız zil səslərinin olması ilə deyil, bir çox başqa sənət vərdişləri ilə də layiq görülüblər. Aşıq var ki, səsi zildir, lakin Koroğlu yolunu gedə bilmir. Ölməz qəhrəmanın odlu zənguləsinə, zəhmli boğaz titrəməsinə, dağları yerindən oynadan nərəsinə və ağır zəhminə münasib cövlan etmək hər aşığa nəsib olmur. Məhərrəm Hüseynli məhz öz ustadları İmran Həsənov və Əkbər Cəfərov sınağından çıxan

şəxsi mənimsəmələrilə qazandığı sənət vərdişlərinin sayəsidir ki, hər hansı bir məclisə varanda əzəlcə “Aşıq Koroğludan de” – sifarişini alır.

Məhərrəm Hüseynli aşıq sənətinə xas olan bir neçə qeyri əlamətləri də özündə cəmləşdirə bilib.

Səhnə mədəniyyəti, natiqlik məharəti, dərin yaddaşı, arif-qanan məclisinə layiq ədəb-ərkanı, yorulmaz mütaliəçiliyi, hazırcavablığı, bir çox dastanlarımızı, rəvayətlərimizi onun məzmun və mündəricəsinə uyğun tərzdə dinləyici və tamaşaçı diqqətinə çatdıra bilməsi və s…

Başladığı işi sona çatdırmaqda daim iradəsini dönməzliyinə güvənən el sənətkarı indi ömrünün və sənətinin ən gözəl çağlarını yaşayır, sabahına tükənməz arzular bəsləyir…

# MEHDİXAN KƏLBƏCƏRLİ

İnsan qoynunda göz açıb boya-başa çatdığı mühitin övladıdır. Hər kəs onun ab-havasından alar öz qidasını. O torpaqnan, o havaynan, o suynan, bir sözlə təbiətin qismət elədiyi nemətlərnən yetişər, onunla ərsəyə çatar.

Sənət dünyamızda yeri gəldikcə işlətdiyimiz bir fikrin dərindən-dətin kökləri var.

- Təbiət şairi!..

- Həyat şairi!..

Sazı duymadan, onun səsini eşitməklə sazdan yazmasan daha yaxşıdır.

Əzəldən dağlar qoynundan uzaqlarda doğulub ömrün yetkin çağlarında bir-iki günlüyə onun seyrinə çıxmaq və ya şəkillərdə görməklə dağları poetik dillə vəsf etmək olmaz…

Çaylara xəritədə baxmaqla onların dərələrdən süzülən nəğməkarlığını nəzmə çəkə bilməzsən..

Nə boynu bükük bənövşələrlə, nə də bağrı yanıq lalələrlə onların dilini bilmədən dinişmək olmaz…

Qartalın duruşunu, kəkliyin qaqqıltısını, ceyranın ürkəkliyini, maralın qaçışını təbiət qoynunda seyr etmədən onların dünyasına poetik anımlı söz demək çətin olar…

Bir sözlə, təbiət şairi olmaq üçün gərək təbiətin qoynunda doğulub vaxtında dərdinə, sirrinə bələd olasan, onun dilini biləsən.

Bax bu mənada illərlə bir-birnə arxa, söykək olan qədim Kəlbəcərlə ulu Göyçənin füsunkarlığı həmişə bir-birini tamamladığı kimi, onların şeir, sənət dünyasında da təbii bir bənzərlik mövcud olmuşdur.

Elə bu yerdəcə Dədə Ələsgərin tək bircə misrası sızıltı kimi ürəyimdən keçir:

“Gələndə ustad kəlamı, köhnə yaram qan verir…”

Belə ustad kəlamlarımız da bir deyil, beş deyil…

Yenə ulu Göyçənin çal-çağırlı günlərindən biri idi. nağıllı-dastanlı, sözlü-söhbətli, ustad deyimli günlərindən biriydi.

Telli saz dinləndikcə aşığın şövqü pərvazlanırdı..

Mehdixandan oxuyurdu, şair Mehdixan Kəlbəcərlidən.

Hökmüm işləsəydi fələk hökmü tək,
Mən insan ömrünü yüzə yazardım,
Öz ağlımla hər nə varsa düşünüb,
Baxmazdım şeytana, sözə yazardım.

Tərlanlar yurduna qoymazdım sarı,
Bərabər bölərdim, dövləti, varı,
Hörməti azaldan köhnə paltarı,
Cındır libasları təzə yazardım.

Ağartmazdım cavanların saçını,
Döndərməzdim yapalağa laçını,
Qanana verərdim zərli qamçını,
Qanmazı noxtaya, bezə yazardım.

Mərdləri Rüstəmi-zal eyləyərdim,
Namərdi qocaldıb çal eyləyərdim.
Əğyarı möhnətə qul eyləyərdim,
Sevəni sevdiyi qıza yazardım.

Əqrəb tək pünhanda yatanları mən,
Haqqı nahaqlara satanları mən,
Dostların arasın qatanları mən,
Ömürlük zindana cəza yazardım.

Ədalət yolundan çaş ürəklərə,
Nəmli torpaq kimi yaş ürəklərə,
Xain ürəklərə, daş ürəklərə,

Zəhərlə sulanmış nizə yazardım.

Mehdixan hər zaman el dərdi çəkər,
Dolanar başında qəmli kölgələr,
Əlimdə ixtiyar olsaydı əgər,
Nə yazsam, a dostlar, sizə yazardım.

Nə gözəl sözlərdi, nə dəyərli hikmətlərdi bunlar!.. – deyirdi dinləyənlər yerbəyerdən…

Əqrəb tək pünhanda yatanları mən,
Haqqı nahaqlara satanları mən,
Dostların arasın qatanları mən,
Ömürlük zindana cəza yazardım.

Başdan-başa həyatdı bu.

Sərasər bütövlük, təmizlik, saflıq, yaxşılıq dastanının poetik təsvir epiloqudu bu gərəkli deyimlər.

Və onun hikmətamiz sözlərini götür-qoy edənlər arasında özünü tanıyanlar da vardı, tanımayanlar da…

Bir də hamı onu bilirdi ki, Mehdixan müəllim, bax, bu dağın o biri üzündə yaşayır. Doğma, əziz, istiqanlı Kəlbəcərin ana qoynunda…

Kəlbəcərim, dağdan ağır,
Dərdlərinə qurban olum.
Bu dövranın qarşısında,
Şərtlərinə qurban olum.

Hər çəkiclə döyülməyən,
Şirin olub yeyilməyən,
Polad kimi əyilməyən,
Sərtlərinə qurban olum.
Səxavətdən toxum əkən,

El yolunda qəddin bükən,
Qeyrət günü qeyrət çəkən,
Mərdlərinə qurban olum,
Mərdlərinə qurban olum.

Belə deyir, belə yazır şair Mehdixan Kəlbəcərli. Axı o da təbiət şairidi, həyat şairidi əzəldən!

Qoynunda boya-başa yetdiyi doğma diyarının övladıdı Mehdixan müəllim!

Fəqət neçə illər bundan əzəl, qarı düşmənin fitnəkarlıq tədbirləri pünhanda öz işini görürkən, o məclis əhli bilmirdi ki, bir müddətdən sonra o üzlü-bu üzlü iki doğma mahalın sakinləri karvan-karvan bu yerlərdən qovulacaq, gözəllik məskənləri yadlar əlinə keçəcək.

Əylə, sarban, əylə qardaş,
Qoyma gedə bu karvanı.
Bu karvanı eylə bir daş,
Qoyma gedə bu karvanı.

Tez ol, qardaş, tez ol, sarban,
Bağla ylu, vermə aman,
Qəm yüküdü gedən karvan,
Qoyma gedə bu karvanı.

Qoy axdıqca axsın qanı,
Qoy Vətəndə çıxsın canı,
Eşit, sarban, Mehdixanı,
Qoyma gedə bu karvanı.
Qoyma gedə bu karvanı.

Bu minvalnan da kimsə saxlaya bilmədi karvanı yolundan. Nə sarbanı anlaşıldı onun, nə taleyin hökmü əl tutmadı o qaçqınlığa…

Bax o gündən də beləcə yazıldı qaçqınıaq ünvanına şair Mehdixan Kəlbəcərlinin adı…

Beləcə döndü öz Vətənində qəribə bu sənətkar…

Belə qaldı qürbətdə onun istəkli mahalı…

Yaman olur Vətənin qürbətdə qalmağı. İllah da ki, Mehdixan müəllim kimi el-oba istəkli, torpaq canlı, təbiət duyğulu bir sənətkar üçün…

Bütün yaradıcılığı boyu doğma Kəlbəcərin gözəlliklərini, onun dağlardan uca vüqarını, əvəzsiz gözəlliyini, təmiz havasını, kövsər sularını, ayna göllərini, nəğməkar çaylarını, məxmər çöllərini şeir diliynən oxşayan Mehdixan müəllimin yad əliynən öz halal obasından didərgin salınmağının nə demək olduğunu bilənlər bilər…

Şair vüqarlı, qarlı dağlarından aralı düşən el şairinin giley-güzarı da, əzəli tərifnamələri kimi təbiidir, ürəyi silkələyəndir…

Allah, Allah, yandı canım,
Doğma ellər deyə-deyə.
Xoş baxışlar, gülər üzlər,
Şirin dillər deyə-deyə.

Tül geyimli göy yaylaqlar,
Çal-çağırlı şən oylaqlar,
Ayna göllər, buz bulaqlar,
Daşqın sellər deyə-deyə.

Şair könlüm yaman ağlar,
“Şah vüqarlı, qarlı dağlar”.
Bənövşəli, barlı bağlar,
Məxmər çöllər deyə-deyə.

Nə deyirsə ürəkdən deyir, nə yazırsa canından, qanından süzülüb gəlir bu el sənətkarının.

Bir zamanlar hələ doğma Kəlbəcərinin bu günkü halında xəbərsiz olduğu günlərdə o deyirdi:

“Mehdixan hər zaman el dərdi çəkər…”

Və elə, beləcə də tanıyıb əzəldən el-obası onu. Axşam-səhəri elnən olan, onunla açılan, onunla qidalanıb, onunla qəmlənən Mehdixan Kəlbəcərlini…

Deməli, onun bu günkü kədəri də təbiidir, ah-naləsi də…

Ata-baba yurdum mənim,
Yenə yada düşdü, Allah!
Yenə bağrım kabab oldu,
Bu həsrətdə bişdi, Allah!

Damarımda dayandı qan,
Əsdi bədən, titrədi can,
Gözlərimin qabağından,
Yenə nələr keçdi, Allah!

Bu hikməti çoxu bilmir,
Yurdsuz insan deyib-gülmür,
Doğma yurdsuz keçən ömür,
Ömür deyil, heçdi, Allah!

Mehdixan müəllim çox yerində deyir ki: - “Bu hikməti çoxu bilmir”, çünki “Doğma yurdsuz keçən ömür” milyonlar üstündə, xəzinə içində keçsə belə, çox çətin keçən ömürdür…

Belə ömür isə əsl səntkara xas olan xüsusiyyətdir.

Təkcə bir şərtlə ki, o sənətkar vətəndaş olsun, əsl Vətəndaş!

Necə ki, Mehdixan Kəlbəcərli bu hislərlə yaşayır, bu duyğularla nəfəs alır.

Elə bu amalnan da, doğma diyarı yad əlində əsir olduğu gündən bəri öz yurdunun zərrələrini özündə yaşadır, mənəvi dünyasını xəyalında gəzdirir.

Doğma Kəlbəcərim dustaq olanda,
Dağılan elini verdi, gətirdim!
Dedi, dözümlüsən, dərya dərdini,
Gözümün selini verdi, gətirdim!

Yanan mahalımın, yanan obamın,
Yanan sarayımın, yanan komamın,
Yanan çarpayımın, yanan yubamın,
Soyumuş külünü verdi, gətirdim!

Yaxşı bax üzümə, qan qardaşım, sən,
Görürsən əliboş gəlməmişəm mən,
Kövhər mədənindən, ləl mədənindən,
Bir neçə ləlini verdi, gətirdim!

Doğru sözlərimdən incimə, fateh,
Zəmanət vermişəm, götürmüşəm beh,
Dərdini deməyə mənəm cavabdeh,
Danışan dilini verdi, gətirdim!

“Qürbət səni əldən salacaq”, dedi,
“Bir gün səbr kasan dolacaq”, dedi,
“Haçansa gərəyin olacaq”, dedi,
Qisasçı əlini verdi, gətirdim!

Bəli, Mehdixan müəllim onu da təsadüfən demir ki..
-“Haçansa gərəyin olacaq”, dedi,
Qisasçı əlini verdi, gətirdim!

Axı kimsə anadan nə döyüşçü doğulur, nə də qisasçı…

Lakin insanlığın əzəldən yaranmış bir həyat fəlsəfəsi var.

Gərək düşmənin görünməmiş xəyanəti cavabsız qalmasın.

Məgər illərdən bəri unutqanlıq bəlası olmayıbmı biz nəsillərin özünü-özünə yadlaşdıran?!

Bax budur, Mehdixan müəllimi bir şair, bir vətəndaş kimi narahat edən.

Bir yandan da bu narahatlğın içində onun şəxsi amalını özündə yaşadan daxili inamı.

Axı, dağlar oğlunun inamı da dağlara boy verər, binadan gözü-könlü bağlandığı o yerlərin qisası yerdə qalsa gələcək nəsillər bizi qınayar!..

Öyrəşibdir gözüm, könlüm binadan,
Dağlara tükənməz məhəbbətim var.
Əlim çatmır, ünüm yetmir hələlik,
Qəlbimi göynədən hərarətim var.

Çıxmaz xəyalımdan o çağlar mənim,
Əksimi saxlayar bulaqlar mənim,
Məkkəm, Mədinəmdi o dağlar mənim,
Andıma, əhdimə sədaqətim var.

Mehdixanın könlün kimsə yapacaq,
Yolundakı qayaları çapacaq,
Yusifini qoca Yaqub tapacaq,
Dözümümdə səbrim, dəyanətim var.

Bəli, bax, bu səbrdi, bu dəyanətdi, bu sabahın intiqamla dolu ümid çırağıdı bu gün Mehdixan müəllimi yaşadan. Yoxsa, hər kimsə kimi onun da öz şəxsi qayğıları yoxdurmu?!

Amma əsl vətəndaş – şair kimi onun Vətən dərdi bütün şəxsi dərdlərini yalan eylədi…

Ürəyimdə neçə-neçə dərdimi,
Yurdumun həsrəti yalan eylədi.
Qar ələdi birdən-birə başıma,
Yolumu, izimi duman eylədi.

Zərbələri çox sərt dəydi üzümə,
Dar qəfəsdə buxov oldu dizimə,

Tor gətirdi bu dərd mənim gözümə,

Qəlbimi qönçə tək al qan eylədi.

Bu qoşmanın son iki misrasındakı məna çaları da, bir çoxları fikirlərində olduğu kimi bəşəri ideyalara işarədir.

Təbiət şairinin diliynən:

“Alqış o kəslərə, görmədi qürbət,

Canını Vətənə qurban eylədi.”

Söylənən sözlərdə “Düşmənlə son damla qanına qədər döyüş, vətən yolunda, torpaq yolunda, son damla qanından keç, amma onu qürbətdə qoyub qaçma” ideyası hakimdir..

Fəqət, baxır hansı vəziyyətdə, hansı şəraitdə..

Hələliksə Mehdixan Kəlbəcərlinin koması dağılıb, od-ocağı sönsə də, ümid çırağı sönməyib. O yanır, sabaha ümidlidir.

Komam dağılsa da, odum sönsə də,

Hələlik sönməyib ümid çırağım,

Haçansa qoynuna qayıtmalıyam,

Ey ata məskənim, ana torpağım!

Həyatın qəribə qanunları var. Bəzən insan ömür yollarında elə qəribə, görünməmiş hadisələrlə rastlaşır ki, adam gördüklərinə inana bilmir.

Vətəni qürbətdə qaldığı gündən Mehdixan müəllim də gördüklərinə inana bilmir.

Bununla belə, o “İnanmıram” rədifli maraqlı qoşmasında nələrin şahidi olduğunu və ana yurdun başına nələr gəldiyini şeir diliynən, özü də çox usatalıqnan çatdıra bilir.

Deyirlər, elsizdi darıxır dağlar,

Deyirlər, bağbansız saralır bağlar,

Deyirlər, tək qalıb, çox ana ağlar,

İnanan inansın, mən inanmıram!

Deyirlər bəd gəlib yurdun baharı,
Çoxunu tutubdu tamah azarı,
Hardasa açıblar “Torpaq bazarı”,
İnanan inansın, mən inanmıram!

Deyirlər satıldıq yağıya, yada,
Deyirlər, yurdumuz qalandı oda,
Deyirlər, bir kimsə, çatmadı dada,
İnanan inansın, mən inanmıram!

Böhtan demə nə şəhərə, nə kəndə,
Belə şeylər olmaz bizim Vətəndə,
Gözümlə görsəm də bunları mən də,
İnanan inansın, mən inanmıram!

Bu söhbətimi iki ömür-gün qonşusu qədim Kəlbəcərin və ulu Göyçənin qarşılıqlı təbiət və sənət eyniliyilə başlamağım sözgəlişi deyildi, əziz oxucum!

Ömrün şad və qəmgin dəqiqələrində bu iki mahal daim bir-birinin dərdinə və şadlığına şərik olmuş, sınaq yollarında qoşa addımlamışlar.

Və elə bil taleyi əzəlindən onların qismətinə yazdığı birlik qismətilə bahəm, ayrılıq qismətini də beləcə qoşa yazıbmış onların ömür dəftərinə…

Elə bir ömür kitabı ki, orada neçə söylənəsi dastan düzülür, oxumalı şair deyişməsi, dinləməli sənətkar gözəlləməsi mövcuddur. Bu iki yurddan sənət adamlarının bir-birinə qarşılıqlı vəsfi də onların mənəvi sənət dünyasından doğub, onun əqidə, məslək və bir də yuxarıda dediyim kimi, təbiət bənzərliyindən irəli gəlmişdir.

“Zər qədrini zərgər bilər” – deyib babalarımız. Mehdixan Kəlbəcərlinin həssas şair duyumlu sənət qədirbilənliyi də, belə qarşılıqlı sənət incilərinin meydana gəlməsindən xali deyildir.

Onun ulu Göyçənin qüdrətli söz ustadı şair Xəstə Bayraməliyə ta ağlı kəsdiyi gündən bəslədiyi mənəvi məhəbbəti də, məhz bu ülvi duyğuların məhsuludur.

Babam Alı olub, dədəm Ələsgər,
İman alovludur gözümdə mənim,
Anam Bəsti olub, atam da Qurban,
Şəmşir varlığımdı, özümdü mənim.

Yadigar qalıbdı bir gül dəstəsi,
O dəstədən duydum ata nəfəsi,
Şair Bayraməli, o söz xəstəsi,
Dilimdə ən şirin sözümdü mənim.

Mehdixan müəllimin yaradıcılığında söhbət açılmalı mövzular çoxdur. Fəqət ömrümüzün, günümüzün, Kəlbəcərimizin, Göyçəmizin belə vaxtlarında, el şairinin özü demişkən, yurd həsrətindən qeyri bir söhbət açmağa Mehdixan özü də razı olmazdı.

Bununla bağlı bir neçə gün əvvəl üzləşdiyim qəribə bir epizodun təfsilatını bu yazımın sonunda qeyd etməyim də ürəyimin tələbidi.

İşimin çoxluğu ilə bağlı şəhərin seyrinə çıxmağa vaxtım az olur.

Yay günlərinin birində axşamüstü evə qayıdarkən bir bakılı tanışımla rastlaşdım. Hal-əhval tutanda sonra soruşdu ki:

- Hardasan, balam, axır vaxtlar səni görmək olmur?

Ağlıma gələn zarafatyana bir sınaq məqsədilə:

- Göyçəyə getmişdim – dedim, - ordan da Kəlbəcərə dəydim, bir az təbiət qoynunda gəzib-dolaşdım, indi oraların gözəl çağlarıdır..

Çox ciddi şəkildə üzünü turşudub:

- Ala, sən beləsən də, - dedi – belə şeylər olanda deməzsən ki, gedib o dağların başında kabablayaq…

Onsuz da qəfləti ağlıma gələn "zarafat" sınağımnan özüm də eymənmişdim. Tanışımın tam ciddi cavabını eşidəndə bir anda varlığım donuqlandı. Özümə gələr-gəlməz ondan uzaqlaşdım.

Evə çatan kimi şəxsi kitabxanama girəndə yadıma düşdü ki, axı mən Mehdixan Kəlbəcərlidən yazmalıyam?!

Fikirli-fikirli şairin "Ürəyimdə bir Vətənin dərdi var" adlı kitabını götürüb vərəqləməyə başladım. Gözlərin bir qoşmada ilişib qaldı. Sən demə yanqı həmin yanqı imiş..

Nadan adamların xəyanətindən,
Görəsən, neçə min ürəklər yanır?!
Neçə min arzular kül olub gedir,
Neçə min müqəddəs diləklər yanır.

Fürsətim düşəndə naqis, nadana,
Söz keçmir, qalırsan sən yana-yana,
Ürəyin ağrısı yazılar qana,
Damarlar gərilir, biləklər yanır.

Mehdixanam, oddur sinəmdə ürək,
Yandırar, a qardaş, kənar dur görək,
Gündüzlər gülürəm, divanələr tək,
Gecələr ahımdan fələklər yanır.

Nə yaxşı ki, ürək sərinlədən söz var, söhbət var. Nə yaxşı ki, bu torpağın dərdini çəkənlər, onun halına yananlar var. Və na yaxşı ki, belə vaxtda sözün silaha döndüyü çağlar var…

Yağı düşmən, əlini çək,
Bura mənim Vətənimdir.
Sevimlidir ürəyim tək,
Bura mənim Vətənimdir.

Torpağı ləl, daşı almaz,
Yayda, qışda gülü solmaz,
Sənin belə yurdun olmaz,
Bura mənim Vətənimdir.

Uca dağlar sıra-sıra,
Sancılıbdı buludlara,
De sən hara, zirvə hara,
Bura mənim Vətənimdir.

Koroğlu at çapıb burda,
Nəbi qollar çatıb burda,
Şah Xətai yatıb burda,
Bura mənim Vətənimdir,
Bura mənim Vətənimdir.

Vətənin bir yanı qürbətdə qaldığı gündən bəri belə yazır, belə deyir, belə səsləyir Mehdixan Kəlbəcərli el-obasını onu harayına.

Nə müddətdi belə dönüb onun qələmi odlu silaha..

Gün gələr, onun gücünü düşmən anlayar. Bax, onda el şairi Mehdixan Kəlbəcərli də öz el-obasıynan doğma yurduna qovuşar…

# IV

# BİR GÖVDƏNİN ÜÇ BUDAĞI

## HƏSƏN XƏYALLI

Sazımızın, sözümüzün qədim məskənlərindən olan ulu Göyçənin haqqında nə qədər yazılıb, nə qədər deyilibsə, bütün bunlar azdır, dəryadan süzülən damladır.Çox dərin və diqqətli tədqiqata ehtiyacı olan o qədim diyarın hər qarışında, hər çınqılının, hər daşının, kəsəyinin altında neçə-neçə qatı açılmayan müdrik kəlamlarla dolu dastanlar yatır.

Göyçə mahalının onlarla, bəlkə də yüzlərlə sənət fədailəri olub ki, hələ onların barəsində geniş oxucu və dinləyici kütləsinin ətraflı məlumatı yoxdur.

Bax, burada bir mühüm amili nəzərə almaq gərəkdir.

Hər hansı sənət adamının haqqında uzaqdan-uzağa, ya da ötərgi sphbət əsnasında eşitmək, "Bəli, filan mahalın filan kəndində belə bir aşıq, ya da şair olub" – demək azdır. Və etiraf edək ki, bunun ən ağır qəbahəti biz tədqiqatçıların üzərinə düşür.

Belə halda hər birimizin günahını daha dərin axtarışlar aparmaq, ömrümüzün verdiyi fürsətin, bir də daxili imkanlarımızın el yolunda gördüyü işlər yuya bilər…

Mən bu sətirləri yazırkən, qələm dostlarımdan biri iş otağıma daxil olub hal-əhval tutandan sonra masamın üstündəki kağızlara göz gəzdirə-gəzdirə dedi ki, "Nə bərk yapışıbsan bu qələm-dəftərdən, a qardaş? Arxayın ola bilərsən ki, indi nə elmliklə maraqlanan oxucu var, nə də bədiilik axtaran oxucu dinləyici, tamaşaçı…Özünü çox əziyyətə salıb dərinə getmə…"

Həmkarımın fikrində zaman baxımından bir həqiqət olsa da, onunla razılaşmadım…

"….Yox, əzizim, elə deyil. Əgər biz də belə düşünsək, onda oxucularımızın nə günahı? Bir də ki, aşıqlar demişkəm, *"Dəyişər zamana, vaxt belə getməz"*. Axı bəşər övladının ən dəyərli mənəvi dayağı sözdür. Söz olmasa, sonsuz varlığın bahalı zivrəri də qiymətdən düşər. Kitabına, qələm-dəftərinə biganə qalan bir xalq, özünü hörmətdən salmış olar…"

Qoy məni oxucularım da, indi haqqında söz açdığım el sənətkarının ruhu da bağışlasın bu haşiyə üçün.

Əslində ulu Göyçənin ölməz ustadlarından biri olan Həsən Xəyallının əlimdə olan qiymətli kalamları mənim bu qeydimi olduğu kimi oxuculara çatdırmağa vadar elədi. Və nə yaxşı ki, biz dayaza gedənlərdən olmamışıq…

Qəvvas olan dərinləri axtarar,
Naşılar həmişə dayazdan gedər.
Bayquşun məskəni xarabalıqdı,
Bülbül gül eşqiylə avaza gedər.

Nadanlar sözündən inciməmişəm,
Namərd süfrəsindən nan yeməmişəm,
Atalar sözüdü, mən deməmişəm,
“Təkə təklənəndə güdaza gedər”

Ay Xəyallı Həsən, ömür nəzilər,
Əcəl çatar, əlin eldən üzülər,
Aşiqin görəndə gözlər süzülər,
Gah işvəyə gedər, gah naza gedər.

Bax, belə deyib, belə yazıb, belə qoşub öz kalamlarını axarlı incilərə Həsən Xəyallı. Bülbülün gülün eşqiylə şövqlənməsini qafiyələrdə oxşayan el şairlərimiz çox olub. Amma Həsən Xəyallı *“Bülbül gül eşqiylə avaza gedər”* deyəndə bircə özünə bənzəyibmiş. Və ya ulu babalarımızın bitib-tükənməyən söz xəzinəsini arayıb-axtaranda, onun dəruni mənasına varanda üstündən yan keçməyib, bütün mənalılığı və gözəlliyiynən, həm də səmimi etirafıynan şirin dilli qoşmasının gözünə qatıb, *“Atalar sözüdü, mən deməmişəm, Təkə təklənəndə güdaza gedər”* – deyə onu daha da şirinləşdirib.

Göyçə ədəbi mühitinə xas olan təbiilik, sadəlik içində dərin məna çalarına malik olmaq Həsən Xəyallının yaradıcılığına da sirayət etmişdir. Lakin qədim mahalın çoxsaylı yazarları arasında el sənətimizin dünyəviliyinə qoşulacaq ustadlardan olan Xəyallının özünəməxsus yaradıcılıq yolu olmuşdur.

Həsən Xəyallının sözləri mövzu baxımından rəngarəngdir. Bütün halda mövcud həyat həqiqətlərini boyaqsız verməyə çalışan el sənətkarı bu yaradıcılıq prinsipinə sona qədər sadiq qalmışdır.

İstər vəsfi-halında, istər gözəllərə yön çevirəndə, istər də fələyə giley-güzar eləyəndə…

Bir yaxşı bax sitəminə, ay üzü qara fələk,
Bu dərdimi, bu qəmimi söyləyim mən hara, fələk,
Əyibsən gərdənimi salıbsan yatağa məni,
Məskən edibsən canımı yaman bəd azara, fələk!

Neçə-neçə aşiqləri ayırdın min həsrət ilə,
Cəmşidləri, Abbasları öldürdün min zillət ilə,
Neçəsin yoldan azdırdın, bircə tikə qismət ilə,
Ha çağırdım, ha yalvardım, gəlmədin bir kara, fələk!

Sən sur verdin, yol göstərdin, Nəmrudi Allah söylədin,
Yaratdın dev-fərişdəni, qənim bismillah eylədin,
Neçəsini yetim qoydun, yaman sən günah eylədin,
Paraladın ürəyimi, oldu parça-parça, fələk!

Fələyin gərdişindən umduqları qisməti olmayanda, dünyamızı da beləcə qınayarmış o…

Ərbabı, sultanı dolandırırsan,
Dolandır karı da, koru da, dünya!
Bir sirri-qüdrətsən, kuyində sənin,
Gördük töhməti də, zoru da, dünya!
İşindən halıyam, deyiləm naşı,
Üzdə şırım çəkib gözümün yaşı,
Yandırır cismimi məhşər atəşi,
Bizə çox görürsən goru da, dünya.

Bir gün yaranmışlar gedəcək bir gün,
Can torpaq altında olacaq  bir gün,
Tapdaqdan, danlaqdan qalan ömür-gün,
Çətin Xəyallını yarıda, dünya!

Mənim sazlı-sözlü dünyamın azman sərnəsinə varanda məramımız quru sxolastikadan, statistik məlumatlardan çox uzaq olub. Apardığımız tədqiqatlar nəticəsində bu və ya başqa sənətkarın yaradıcılıq səviyyəsini obyektiv təqdimə və təhlilə çalışmaqla, onların hər biri haqqında bizə qədərki, araşdırmaların qədərini də nəzərə almışıq. Bu baxımdan mənim şəxsi qənaətim belədir ki, Həsən Xəyallı da bəzi sənət fədailərimiz kimi vaxtında tədqiq olunmayan, öz səviyyəsində yaradıcılıq imkanları el-obaya, geniş maraq dairəsinə çatdırılmayan şairlərimizdən olub…Ona görə də Həsən Xəyallının dünyaya göz açdığı məkan haqqında qısaca da olsa məlumat verməyə ehtiyac duyuram.

Daşkənd ulu Göyçənin dağlar qoynunda məskən salan qədim obalarından olub. Erməni xəyanətinin bəşər tarixində görünməmiş xəyanətinin qurbanı olan, özünün zil və təmiz səsilə könüllərdə əbədi məskən salan Aşıq Nəcəf, müqəddəsliyi və möcüzələriynən insanları heyrətə gətirən Seyid Bayram məhz bu kəndin döşündə ərsəyə gəliblər…

Zaman keçdikcə onların sələfləri yetişib ki, mən ayrı-ayrı vaxtlarda yeri gəldikcə onların haqqında tədqiqi axtarışlar aparmağa, fikir söyləməyə çalışmışam ki, burada təkrara ehtiyac duymuram.

İndiki söhbətimin fövqündə dayanan bu el sənətkarının sazlı-sözlü həyatımıza gəliş payı da bir növ ulu Göyçənin intibah dövrünə təsadüf etmişdir. Mahalın qüdrətli sənətkarları Aşıq Ələsgərlə, Aşıq Nəcəflə, ustad Abdulla ilə, şair Xəstə Bayraməli və qonşu Tovuz elindən olan Bozalqanlı Aşıq Hüseynlə yaxınlıq etmiş, qabaq-qarşı yaradıcılıq təmasında olmuşdur.

Ömrünün 81-ci baharında dünyasını dəyişən el şairi təxminən 50-60 illik yaradıcılıq dövründən gələcək nəsillərinə zəngin irs qoyub getmişdir. Şairin qatar-qatar qoşmaları, dodaqdəyməz təcnisləri, cığalı təcnisləri, gəraylı təcnisləri, divani,

müxəmməs, cinas bayatıları və nəzirələrindən ibarət yadigar deyimləri onun dərinliyindən, ustadlığından xəbər verən nişanələrdir.

Qoy görünsün zirvələrin,
Dağıt, duman-çəni, dağlar!
Yetir əlim nazlı yara,
Ağlar qoyma məni, dağlar!

Yazda səsə səs eyləyən,
Qışda kəsakəs eyləyən,
Bir-biriylə bəhs eyliyən,
Ay ətəyi sini, dağlar!

Yarı görsən belə de ki.
Yenə sənsən ürəkdəki,
Ölməyəydim o qədər ki.,
Görəydim o günü, dağlar!

Gör hardadı, soraq eylə,
Yarı yaddan iraq eylə,
Üz döndərmə, qonaq eylə,
Xəyallı Həsəni. dağlar!

*“Zər qədrini zərgər bilər”* – deyib babalarımız. Onun Dədə Ələsgərlə bağlı dedikləri də bu qədirbilənliyin nəticəsidir.

Sən oldun dünyada söz ümmanının,
Əşrəfi, incisi, ləli, Ələsgər!
Götür telli sazı, Səhnəbanının,
Ayağı altında ləli, Ələsgər!

Ey sənət ustadı, ey söz ustadı,
Sən qaldırdın zirvələrə bu adı,

Dost bildin yaxını, dost bildin yadı,
Üzmədin kimsədən əli, Ələsgər!

Səni dahi bildi bütün bəndələr,
Aşıqlar, şairlər, həm xanəndələr,
Baxdı kamalına yüz danəndələr,
Dedi aşıqlığın, bəli, Ələsgər!

Arif məclisində dedin bir xanə,
Hər ürəkdə qala yapdın bir xanə,
Baş əymədin bir sultana, bir xana,
Dedin adlarına zəli, Ələsgər!

Xəyallı dərsini alıb yurdunda,
Şirin xəyallara dalıb yurdunda,
Bir qətrə sıçrayıb, qalıb yurdunda,
Haqverdi, İsmixan, Əli, Ələsgər!

Dövrünün savadlı adamlarından sayılan Həsən Xəyallı mahalın igid oğullarından olan, dayısı Hacı Rəhimin yanında dini təhsil almışdı. Onun hazırcavablığında və geniş dünyagörüşünə malik olmasında bu təhsilin böyük təsiri olmuşdur.

Bozalqanlı Aşıq Hüseynlə şair Həsən Xəyallının deyişməsində biz bunun bir daha şahidi oluruq.

**Hüseyn Bozalqanlı:**

Səndən xəbər alım, Həsən Xəyallı,
İlk nuru dünyaya kim şəfəq saçdı?!
İllər ilə bağlı qalan qapının,
Sirli qıfılını kimiydi, açdı?

**Həsən Xəyallı:**

Al cavabın deyim, aşıq Hüseyn,
İlk nuru dünyaya Məhəmməd saçdı.
İllər ilə bağlı qalan qapının,
Sirli qıfılını Əliydi, açdı.

**Hüseyn Bozalqanlı:**

O kim idi Allah ona qarğadı,
O səbəbdən qaçdı ağzının dadı.
Yer ilə göy gərdiş nəyə bağlıdı,
Kimiydi qovuldu behişdən qaçdı?!

**Həsən Xəyallı:**

Şeytan idi Allah ona qarğadı,
O səbəbdən qaçdı ağzının dadı,
Yerlə göy gərdişi löhə bağladı,
Adəm də qovuldu, behişdən qaçdı.

**Hüseyn Bozalqanlı:**

Hüseyn inanır, həqiqət vardı,
O kimdi dar gündə kimsəyə yardı,
Məhəmmədə gələn nə xiridardı,
O nəyi endirdi, nəyi ucaltdı?

**Həsən Xəyallı:**

Həsən Xəyallının aşkardı sözü,
Xızırdı dar gündə kökməkdi özü,
Məhəmmədə gələn Qurandı düzü,
Nahaqqı endirdi, haqqı ucaltdı.

El sənətimizin sərhədi son dərəcə genişdir və bu aləmdə özünü sınayan hər kəsin fərdi üslubu nəsildən-nəsilə olduğu kimi çatdırılmalıdır. Bu mənada Həsən Xəyallı ifaçılıqdan daha çox yaradıcılığa meyl etmiş, ömrünün sonlarına qədər yazıb-yaratmağından qalmamışdır.

Hal-hazırda mərhum şairin əlimizdə 2000 bəndə yaxın əlyazması var. Onları diqqətlə sərf-nəzər etdikcə aydın olur ki, el şairi hansı mövzuya müraciət edibsə, sonluqda məqsədinə yetib.

Həsən Xəyallının dili səlist olduğu kimi, fikri də aydın və təmiz olmuşdur. Cinas-qafiyələrinin arasında alınma sözlərə çox nadir hallarda rast gəlinir. Xalq danışıq dilindən gələn sinonimlərdən yerli-yerində istifadə etməklə, dərin mənaların ifadəsinə çalışmışdır.

Bu el şairi təcnislərində cinaslara qənaət eləmiş, əvəzində az sözlərnən fikrin zənginliyinə daha diqqətli yanaşırmış ki, özündən əvvəlki deyimləri təkrarlamasın.

Sahili görünməz bir ümmanıydım,
Bölüb eylədilər min ada məni,
Qafil oldum, sirr söylədim nadana,
Zalım təşbeh çəkdi min ada məni.

Bağlayıb ciyərim yara demişəm,
Təbib neştər vura, yara demişəm,
Başımı payəndaz yara demişəm,
Kəsələr qurbanlıq Minada məni.

Bilən yoxdu nədi əlif, nədi nim,
Qalmayıbdı nə imanım, nə dinim,
Xəyallıyam, nə danışım, nə dinim,
Deyirlər bəyənmir Mina da məni.

Nəsihətamiz şeirlərində də Həsən Xəyallı milli ənənələrə sadiq qalır. *“Yaxşılığa yaxşılıq hər oğulun işidir, yaxşılığa yamanlıq nər oğlun işidir”* kimi

ataların adına vurulan yanlış fikirlərin təkzibi də şairin dərin mənalı tövsiyələrində beləcə qərar tutub.

Mərd sözünü üzə deyər mərdanə,
Namərd kin saxlayar, düşmənlik çəkər,
Yaxşılıq eyləyən tapar yaxşılıq,
Yamanlıq eyləyən yamanlıq çəkər.

Hər elin dəlisi-divanəsi var,
Atəşlərə yanan pərvanəsi var,
Qanmazın bir qanan zəmanəsi var,
Anlayıb səhvini peşmanlıq çəkər.

Səxalıq yaranıb açıq əl üçün,
Kəmər yaraşıqdı incə bel üçün,
Yeri gəlsə, mahal üçün, el üçün,
Xəyallı başını qurbanlıq çəkər.

Ümumiyyətlə, həyatda yaxşılığı, xeyixahlığı daim həyat amalına çevirib onu hər şeydən üstün tutan bu gözəl el sənətkarı öz ideyasında üzüdönməz imiş, ona sadiq imiş. Sağlığında sözü üzə söyləməyi sevən sənətkar, özündən sonra da, qiymətli kəlamlarıynan beləcə gərək olur gələcək nəsillərinə. El-obasında mərdlik mücəssiməsi olduğu kimi., şeirlərində də, səmimiyyətlə bu amala qulluq edir.

Yaxşıda çəkilir yaxşının adı,
Yamanın qazancı nəhlətdə olar.
Aqil bir kəlmədə min könül alar,
Hərcayi-hərcayi söhbətdə olar.

Mərifət anlayan çox zilə çıxmaz,
Səmtinə düşməsə heç su da axmaz,
Pələng pəncəsindən ovu buraxmaz,
Tülkünün bəyliyi xəlvətdə olar.

Kimə məlum deyil yaltağın işi,
Bir sözü düzdürsə, yalandı beşi,
Qurd çəni axtarar, quzğunlar leşi,
Qarışqa həmişə zəhmətdə olar.

Yaxşı qonşu, qonşuluğa yol salar,
Yaman qonşu aralığa qal salar,
Xayın, xəbis ürəklərə xal salar,
Gecəsi, gündüzü qürbətdə olar.

Gözləmə namərddən xoş xasiyyəti,
Nanəcib al qurar dosta xəlvəti,
Həsən Xəyallının sözü-söhbəti,
Hər fəsli gül açar, qiymətdə olar.

Ağız ədəbiyyatımızın bütün növlərində qələmini sınayan Həsən Xəyallı şairlik məqsədinin sınağından uğurla çıxırmış. Bütün bunların ən ümdə faktı isə bir daha şairin əlimizdə olan yaradıcılıq nümunələridir…

Vətəncanlı şair kimi elinə-obasına, yerinə-yurduna, milli mənsubiyyətinə ürəkdən bağlı olan Həsən Xəyallı həyatda olduğu kimi, evdə də, ailədə də beləcə mehribanlıq göstərmişdir…

Qayğıkeş bağbanın yetirdiyi bar da qiymətli olar. Bu mənada Həsən Xəyallının övladları istər mərd atanın, istər də şair atanın övladları kimi onun adını doğruldur, irsini layiqincə davam etdirirlər.

Və mən də “Sazlı-sözlü dünyam”ın bu yerində “Bir gövdənin üç budağı” kimi söz sırasını bir-birindən ayırmaq istəmədim…

## SƏRRAF ŞİRUYƏ

Uşaqlıq illəri ömrün ən təmiz, ən büllur vaxtlarıdı. Həyatın bir-birindən təlatümlü axar-baxarından keçməmiş, könül dəftərinin ləkəsiz, boyasız vərəqlərinə yazılanların hamısı şirin bir xatirə kimi ömür boyu unudulmaz olur.

Dünya görmüş müdriklərin: - *"İnsanın gələcək həyat yolu uşaqlıqdan bəllidir"* fikrinə mən həmişə tərəfdar olmuşam. Və sən demə, zənnimdə yanılmamışam. Çünki ömrümün ən qayğılı çağlarında qələm-dəftərə sarılmaqla təsəlli tapmış, daxili duyğularımı onunla izhar etmişəm.

Ulu Göyçənin bəxtəvərli günlərində, qohum-qonşunun çal-çağırlı məclislərində görüb-götürdüklərim sonralar sənət yollarındakı axtarışlarımda daim gərəyim olub. Belə ki, o vaxtlar əlim təzəcə qələm tutanda eşitdiklərimə biganə qalmaz, xəlvəti də olsa məni tutan hər hansı bir hikməti, ibrətamizliyi, hətta ən adi bir misranın timsalında da olsa cib dəftərimə yazar, uşaqlığımın "Sandıq ədəbiyyatı"na daxil edərdim.

Yenə o qədim diyarın el-obası yerində olduğu günlərdə, arif-qanan məclislərinin birini aşıq aparırdı. Onun "Orta Sarıtel" üstündə oxuduğu *"Bu fələknən nərd atasan"* misrası ilə başlayan gəraylı ilk eşidimdəcə uşaqlıq diqqətimi bütünlüklə özünə cəlb elədi. Onu sona qədər beləcə dinləməli oldum.

Bu fələknən nərd atasan,
Şeş-beş verən zərin ola.
Ortalığa bəxt qoyalar,
Aparmağa sərin ola.

Söz yığasan demək üçün,
Dost tapasan kömək üçün,
Bu dünyanı yemək üçün,
Ağlın, huşun dərin ola.

Ürəyini bənd etməyə,
Ləblərini qənd etməyə,

Zülfünü kəmənd etməyə,
Mələk misal pərin ola.

Ay Şiruyə, al geyəsən,
Yaman gözə gəlməyəsən,
Bir deyənə beş deyəsən,
Arxanda bir nərin ola.

Dinlədim və yadımda qalan bəzi misraları hafizəmdən dəftərçəmə köçürdüm.

*"Söz yığasan demək üçün"* misrasını bir neçə dəfə öz-özümə pünhanca pıçıldadım:

- "Nə yaxşı deyib Şiruyə" – fikirləşdim özlüyümdə. "Deməli, söz yığmaq yaxşı şeydi ki, onu sonralar, yeri gəldikcə işlədəsən…"

Bax, beləcə də, elə o vaxtdan həyat dəftərimin səhifələrinə gələcək günlərimdə izinə düşəcəyim bir şairin də adı, ünvanı yazıldı…

Ataların dürr sözüdü,
Ağ gün ağardar insanı,
Qara gün çəkər qaraya,
Yəqin qaraldar insanı.

Yaxşı insan könül yapar,
Şər deyəni şər də tapar,
Babalardan bir söz də var,
Zəhmət ucaldar insanı.

Ay Şiruyə, çəkmə aman,
Mətləb üstə yaxşı dayan,
Yağlı gəlir, şöhrət və şan,
Bəzən qudurdar insanı.

İlk baxışda adi səslənən bu sadə misralar kiməsə məna çalarında olduğu kimi görünməyə də bilər. lakin yadda saxlamaq lazımdır ki, el sənətinin gözəlliyi onun sadə deyimlərinin fövqündə mənalı fikirlərin tərənnümü ilə sıxı surətdə bağlıdır. Xalqa, elə, obaya bağlı sənət zərrələri həmişə “mürəkkəb ifadə” xatirinə deyilən ibarəlikdən uzaq olmuşdur.

Şiruyənin yaradıcılığı da belədir. Göyçə ədəbi mühitindən qaynaqlanan bu misraların ən dəyərli cəhəti onun yaddaqalımlığıdır. Əgər şifahi deyim və ya avazdakı ifa tərzində eşitdiyin qoşqulardan bir-iki misra belə yaddan çıxmayacaq qədər hafizəndə həkk olursa, deməli o təbliğə layiqdir.

Şiruyə Həsən oğlunun bütün mövzuları həyatilik baxımından ünvanlıdır. Hələ gəncliyindən bir əhli-hal müdrikliyinə xas olan təbiətindəki müdriklik onun yaradıcılığında da öz əksini tapır. Nə deyirsə, aqillərin kamalına söykənir, nə yazırsa, hər kəlməsində qananların ürəyinə yol tapır.

Belə hallarda Sərraf Şiruyə bir sənətkar kimi zamanın nəbzini tutmağa, onun əhvali-ruhiyyəsinə şərik olmağa çalışır. Və əksər hallarda buna nail olur.

El təsibi, Vətən qeyrəti, torpaq istəyi! Bütün bu bəşəri ideyalar bir fərdin mərdliyi, mübarizliyi və üzüdönməzliyi timsalında təşəkkül tapır, şirin özünəməxsus deyim tərziynən qafiyələr axınında Vətən övladlarının çağırış harayına dönür.

Hünər meydanında çağırın eli,
Hər körpə uşağı gərəkdir bizə,
İrsiz canavardan qorunmaq üçün,
Çobanın çombağı gərəkdir bizə.

Aqil ataların nəsihətləri,
Alimin, şairin dilavərləri,
İgidlər hünəri, ərlər hünəri,
Köhləni, yarağı gərəkdir bizə.

Əqidə birliyi, məslək birliyi,
Həqiqət birliyi, dilək birliyi,
Sədaqət birliyi, ürək birliyi,
Birliyin bayrağı gərəkdir bizə.

Gərəyə gəlmirsə əl bizim deyil,
Birliyi olmayan el bizim deyil,
Heç kim ayrılığa salmasın meyil,
Birliyin qaynağı gərəkdir bizə.

Nə aman yeridi, nə ün yeridi,
Nə qeybət yeridi, nə kin yeridi,
Şiruyə, Vətənin çətin yeridi,
Tərlanlar caynağı gərəkdir bizə.

Əgər bu və ya başqa bir sənətkar yaşadığı mühitdə Vətən adlı dünyasının mövcud hadisələrindən kənarda qalırsa, beləsinin yaradıcılığı bəşəri amallara qovuşa bilməz.

Sərraf Şiruyə bu fərdilikdən uzaqdır ki, onun misralarındakı mənalar da, ümumbəşəri ideyalarla çulğaşır.

Şair olan kəs hansı mövzuya üz tutsa, onun qayəsi müəllifin həyat amalına, onun fərdi ideyasına xidmət edəcəkdir. Özü bunu istəsə də, istəməsə də, bu yaradıcılıq prinsipinin qanunauyğunluğundan kənara çıxa bilməz. Deməli, xarakter hər kəsin dilindən və əlindən çıxan qəlbinin dərinliklərindən süzülüb gələn nişanələrində öz təsirini göstərməmiş deyil. Təkcə bir şərtlə ki, sənətkar həyatda olduğu kimi, sənət tərənnümlərində də eləcə görünsün, eyni amala xidmət eləsin.

Əks təqdirdə, belə sənət nümunələri səmimiyyətdən uzaq olar. Bu mənada Şiruyə müəllimin şeirlərində bir təbiilik mövcuddur. Göyçə ədəbi mühitinə xas oan örnək dərsinin təsirilə, onun şəxsi xarakterindəki əlamətlərinin vəhdətindən yaranan bu şeiriyyət vərdişi onun yaradıcılığına öz təsirini göstərmişdir. Həm də belə hallarda şairin söz inciləri tərəddüddən uzaq olur.

Vətənpərvərliyində dönməzlik, nəsihətamizliyində müdriklik, məhəbbətində çəkdiyi əzabları özünə xoş bilmək, təmiz eşqin səmimi etirafı, sevgi zülmünün bolluğundan həzz almaq kimi aşıqlik vərdişi…

Yar sevincdə, yar şadlıqda, mən qəmdə,
Könlüm üçün bu da əziz, bu da xoş,
Od tutmuşam, bir adətin eşqindən,
Yanmalıyam bu atəşə, oda xoş.

Nə xoşbəxtəm, olduğum tək duyulsam,
Yar əliynən neştərlənib soyulsam,
"Of", demərəm yüz yerimdən oyulsam,
Yar çəkdirən xata, bala, qala, xoş.

Şəxsi mütaliəsi sayəsində klassik ədəbiyyatımızın qaynaqlarından bəhrələnən Şiruyə Həsənoğlu bu nəzəri axtarışlarından faydalandıqca, şeirlərinə yeni kamillik, qafiyələrinə axarılıq gətirmişdir. Türk dünyasının böyük sənətkarı Qaracaoğlanın solmaz inciləriynən səsləşən rədif-qafiyələrindəki məna və məzmun vəhdəti də bununla həmahəngdir.

Min bir nazla baxan gözəl,
Bir də mənə baxmazmola,
Qara qaşlar ədalanıb,
Ürəyimi yaxmazmola.

Bal dodağın gülüşləri,
Şirin-şirin öpüşləri,
Yarın asta yerişləri,
Biz tərəfə axmazmola.

Atamı əhdi, peymanı,
Satamı dini, imanı,
Bəs onda eşqi, hicranı,

Şiruyəni yıxmazmola?!

Şiruyə müəllimin vətənpərvərlik ruhunda pərvəriş tapması, bu amallar üstündə boya-başa yetib əhli-hallar cərgəsinə qarışması bir şair kimi onun yaradıcılığında ayrıca yer tutur. Qədim Azəri ellərimizin halal ocaqlarından olan ulu Göyçədə dünyaya gəlib ilkin dərsini o sazlı-sözlü diyardan alan şairin sonrakı doğma Qarabağımızla, böyük Nizami Gəncəvinin təbirincə "Yazı da, qışı da gül, çiçək olan" Bərdə obasındakı həyatı ilə bağlı Vətən ayrılmazlığı, torpaq bütövlüyü onun qələmində səmimi canıyananlıqla təsvir edilir.

Qoşalaşıb həsrətimin düyünü,
Biri Qarabağdı, biri də Göyçə,
İki nisgili var qəmli könlümün,
Biri Qarabağdı, biri də Göyçə.

Biri sol qolumdu, biri sağ qolum,
Biri sol yolumdu, biri sağ yolum,
Mənim aran yolum, mənim dağ yolum,
Biri Qarabağdı, biri də Göyçə.

Sərraf Şiruyəyəm, bu bir cüt sözüm,
Bu bir cüt sevgilim, bu bir cüt gözüm,
Bu bir cüt müqəddəs ocağım, gözüm,
Biri Qarabağdı, biri də Göyçə.

Şiruyə müəllimin mövzuları çox əhatəli olduğu kimi, onun şeirləri forma baxımından da zəngindir. Şifahi xalq ədəbiyyatımızın bitib-tükənməyən söz xəzinəsindən mənimsədiyi sənət dərsləri öz nəticəsini verib. El deyimlərimizin bütün janrlarında yazıb-yaradan istedadlı şair bu sərnədə hansı yönə müraciət edibsə, məqsədinə nail olub.

Şairin divaniləri silsiləsindən olan söz imkanlarının kamilliyi də bu sıradandır…

Şölə çəkən bir şam idi, məşəl idi ürəyim,
Təkcə sənə bağlanmışdı, təmiz arzu, diləyim,
Şöhrətlərə, sərvətlərə sən qul oldun, mələyim,
Yad əliylə yad neştəri ürəyimə yeritdin.

Düzüm-düzüm qoşmalar, gəraylılar, təcnislər, müxəmməslər, divanilər, yeddiliklər müəllifi olan Şiruyə Həsənoğlunun təcnisləri oxunaqlıdı, ürəyəyatımlıdır. Azəri şeir dilinin ən maraqlı, zəngin və mürəkkəb formalarından olan təcnis deyimlərində kamillik məqsədinə yetməyin hər sənətkara nəsib olmadığını yaxşı bilən Şiruyə müəllim bu məsuliyyətin öhdəsindən ustalıqla gəlir. Onun seçdiyi cinas-qafiyələr mənalıdır, təmkinlidir. Formanın bütün qanunlarına riayət edən şairin cinas-qafiyələrindəki bu əlamətlər onun yaradıcılığına bütövlük gətirir. Şair bu cinasların düzümündə alınma sözlərə meyl etmir, sırf azəri dilinin zəngin çalarına məxsus olan sinonimlərdən özünəməxsus ustalıqla yeni mənalar ala bilir.

Ovu bərəsində vurmayan ovçu,
Ha çalışsa, ovu gəlməz bir ələ,
Adil hökmdarsan, ay Allah taala,
Möhtac qoyma sən bir əli bir ələ!

Günəş sönüb, bənzər olub ay ağa,
Bəxtim kimi qəddim düşüb ayağa,
Günahkaram, qur divanı, ay ağa,
Tök xəlbirə əməlimi bir ələ.

Şair eyni deyim üslubuna cığalı qafiyələrin tapıntısında da, nail olub. Klassik el sənətimizin ustadlarına istinad edirkən öz yaradıcılıq üslubuynan cığalı təcnislərindəki nəsihətamizlik meyarı diqqətdən yayınmır. Ondakı axıcılıq təzə cinas tapıntıların məna məqsədinə xidmət etməsilə bağlıdır.

Şeyda bülbül fəqan edir bağçada,
Xəbər tuta qönçə gülü oyana.

Əziziyəm o yana,
O odlana. o yana,
Vüsal nəsib olmadı,
Büsutunu oyana.
İltimas eylədin, aman günüdü,
Qəmzəsiylə bağrım başın oyana,
Hər kimə taleyi, iqbalı yardı,
Görərsən sevinci, kədəri yardı.

Əziziyəm o yardı,
O rəqibdi, o yardı,
Çəkdi qanlı ləşkəri,
Kal yaramı o yardı.

Ta qədimdən bəri Göyçə ədəbi mühitinin saz şeiri üstündə bərqərar olub inkişaf etməsi tədqiqat aləminə çoxdan məlumdur. Amma necə deyərlər, “beş barmağın beşi də bir olmadığı” kimi, bu mühitdə yetişən sənət adamları da yaradıcılıq nöqteyi-nəzərindən fərqli olmuşlar. Onların dərini də var, dayazı da. Kamil yaradıcılıq imkanlarına malik olanı da var, üzdən gedəni də. Bütün bunlar əvvəl də olub, indi də belədi. Bu gün yaradıcılığının ən gözəl dövrünü yaşayan hər iki Vətən kəsiyindən, düşmən tapdağında inildəyən Göyçəsindən və sinəsi yaralı Qarabağından sarı gecəsi-gündüzü nigarançılıq içində keçən Şiruyə Həsən oğlu müasir yazarlarımız arasında öz yeri, öz dəst-xətti olan bir sənətkardır. Klassik ənənələrdən öz qədərincə yük tutmağı bacaran şairin deyim tərzində öncüllər cərgəsində adı çəkilməyə layiq olan cəhətlər çoxdur və onun hər biri ayrıca tədqiq olunmağa, təbliğ edilməyə layiqdir.

Şiruyə Həsənoğlu şeirin azman sərnəsinə qədəm qoyduğu gündən məhdud çərçivəyə qapılmayıb. Şifahi deyimlərimizin bütün janrlarında özünü sınaqdan çıxaran el sənətkarı yazılı ədəbiyyatımızın söz dünyasında da şair qələmiynən neçə-neçə sənət inciləri yaradıb. Dedikcə dilavərləşib, yazdıqca puxtələşib. Onun

poemaları, qəzəlləri, beşlikləri, yeddilikləri və bu kimi müxtəlif səpkili şeirləri dolğundur, bitkindir.

Xəzan vurub bağları,
Ağla, bülbülüm, ağla,
Solub gül yarpaqları,
Ağla, bülbülüm, ağla.

Xar tutub solu-sağı,
Artıb hicranın dağı,
Eşqimiz bizə yağı,
Ağla, bülbülüm, ağla.

Bu eldən bir ün keçdi,
Taleyi küskün keçdi,
Şiruyəyəm, gün keçdi,
Ağla, bülbülüm, ağla.

Şiruyə müəllimin bu yeddiliyini mənim şəxsi kitabxanamda olan eyni adlı “Ağla, bülbülüm, ağla” kitabından oxuyanda həmin kitabın tərtibatı ilə bağlı təəssüflərimi istər-istəməz yenidən təkrarladım.

1994-cü ildə “Gəncə” nəşriyyatı tərəfindən 20 çap vərəqi həcmində dərc edilən “Ağla, bülbülüm, ağla” kitabı məna və məzmun baxımından nə qədər könül oxşayandırsa, tərtibat baxımından o qədər ürəyə yatımsızdır. Bu barədə geniş izahata ehtiyac duymuram. Təkcə orası narazılıq üçün kifayətdir ki, ön sözün səhifəsinin ikinci üzündə (yeni sətirdən başlamaq əvəzinə) yeni səhifə açılmadan şairin şeirləri dərc edilib…

Sonluqda isə böyük bir kitabın içindəkilərdən əsər-əlamət yoxdur…

“Ağla, bülbülüm, ağla” şeir toplusunun dərcində müəllifə, oxuculara diqqətsizliyin bu kimi çox tərəfi var ki, şairin qalan kitablarında bu nöqsanları hər hansı bir nəşriyyat tərəfindən təkrar edilməsini arzulamazdım…

Və elə bu yerdəcə şairin həmin kitabda ikicə misrası gəldi dilimə:

Könlümü anlayıb duymayanlara,

Əlbəttə, naşıdır, naşı deyirəm.

Bax, beləcə onu dərindən duymayanlarla həyatda, sənət yollarında və ümumiyyətlə, mənəvi aləmdə naşılarla heç vaxt hesablaşmayıb Şiruyə müəllim.

Adı ulu Göyçənin klassikləri sırasında daim hörmətlə çəkilən el sənətkarı Daşkəndli Həsən Xəyallının atalıq çeşməsindən su içib, onun yoluynan inamla addımlayan şair oğlu Şiruyənin dili bu minvalnan şeirləşib, bayatılaşıb…

Əziziyəm, yara bax,
Qəlbimdəki yara, bax,
Mən can verrəm, yar deyə,
Sən bəzənən yara bax.

Əzizim, yarasına,
Yar gərək yara sınə,
Yar gəlsin məlhəm qoysun,
Eşqimin yarasına.

Əzizim, güldən əsər,
Bağlaram güldən əsər,
Bülbüldə günah yoxdu,
Yamanlıq güldən əsər.

Əzizim, nərdən olar,
Nər oğul, nərdən olar,
Mayanı bada verən,
Bir gün də nərdən olar.

Şiruyə Həsənoğlu çoxlarının yaradıcılıq qismətinə nəsib olmayan cığalı bayatılarında da klassik örnəklərə sadiq qalaraq ona yeni nəfəs gətirib.

Şairin cinas düzümündəki fitri istedadının bəhrəsi olan qafiyələr beləcə axıb onun sinəsindən kağızlara. Məhəbbətin tərənnümündən mərdliyin üzüdönməzliyinə yan alan cinasları bu qaydaynan oxşayar gözümüzü, könlümüzü.

Əzizim, sinə bağı,
Gəzmişəm sinə bağı,
Əlimlə açılaydı,
Sinəmin sinə bağı.

Əzizim, xalı yaxşı,
Döşənib xalı yaxşı,
Yarımın dodağı bal,
Üzündə xalı yaxşı.

Əzizim, mərd əvəzi,
Mərd igid mərd əvəzi,
Yüz namərd ola bilməz,
Eldə bir mərd əvəzi.

Ömür vəfa edərsə gələcək günlərdə yenidən bu mövzuya qayıtmaq ümidilə “Bir gövdənin birinci budağı” haqqında birinci yazımı burda saxlayıram, əziz oxucum!

## ELDAR HƏSƏNLİ

Bütün varlığı şeir sənət dünyamızın mayasından yoğrulan ulu Göyçə!

Adını çəkəndə göyüm-göyüm göynəyən yaralarımızın sızıltısı aləmə car olurkən sənətin yaşarılıq meyarı, sənətkarın əbədi qalarılıq timsalı ona su səpir.

Bircə-bircə xəyalımda çözələnir o yerlərin indi qəribsəmiş ocaqları.

Pür kamallı, münəccim soraqlı Miskin Abdalın dağlar qoynunda yuva salan Sarıyaqub eli…

Bu dünyanın mal-dövlətini yığmaqdansa sənətin şərəfli yollarında şam kimi yanmağı özünə xoş bilən Aşıq Alını yer üzünə bəxş edən Qızılvəng diyarı…

Bir də bu dünyanın heç vaxt yetirməyəcəyi ustadlar ustadı, Aşıq Ələsgəri yetirən Ağkilsə kəndi…

Göyçə ədəbi mühitində təzə güllər bitirən Xəstə Bayraməlinin söz mülkünün ölməzliyində bərqərar olan Nərimanlı kəndi…

Hansını deyəsən, hansından söz açasan, hansını qoyub hansına adlayasan bunların?

Hamısı bir-birindən anımlı, könül oxşayan, ürəkləri yerindən oynadan…

Sənətkar Abdullanı, şair Əbülfəti sazlı-sözlü aləmdən əsirgəməyən, azman oylaqlı Zod kəndi…

Və xəyalım bu halətlə bulunurkən ulu Göyçənin dağlar qoynunda yuva salan qədim anımlı bir kəndi də düşür yadıma. Gündüzləri sözlü-söhbətli, axşamları nağıllı, dastanlı. Dərələrdən axan çaylarının nəğməkarlığı gecələr sübhəcən ellərə layla çalan qədim bir kəndi…

Yazında bülbüllərin səsi, yayında gədiklərinin qarı, yazından barı-bəhəri, qaşından qartalların qıyı əskik olmazdı bu ulu yurdun. Nə zamansa Məmmədhüseynin “yatıb oyanmayan” bəxtinə dualar oxuyan el şairi Həsən Xəyallının səsinə səs vermiş, neçə-neçə sənət adamlarını beləcə bəsləyib yetirmişdi bu cənnət məkan.

Kök üstə yeni otlar pardaqlandıqca Daşdəndin sənət ünvanına da təzə səhifələr açılır, nəsildən-nəsilə vərəqlənirdi.

Şirin söyləməli aşıq Hacı dastanı dastana caladıqca el şairləri Alqayıtın şirin beytləri, Şiruyənin mənalı misraları da beləcə bəzək-düzək verirdi onun məclisinə.

Bax, bu sənət axımının səsinə bir səs də qarışmaq istəyirdi.

Bir az çılğın, bir az kövrək, bir az da qələmi yüyrək olan Eldar Həsənli.

Əyirəm başını önündə sənin,
Şeir sənətinin tərlanı Vurğun,
Gedən yolun niyə geri qayıtmır,
İntizar qoymusan cahanı, Vurğun!

Və sən demə, mərhum el şairi Həsən Xəyallının ocağında onun sənət çırağını yandıran Şiruyəyə onun qardaşı Eldar Həsənli də qoşulacaq, bu yolla özünü sınaqdan çıxaracaqmış.

Eldar Həsənlinin qələmi təkcə mütaliyəsiynən yox, əsasən dünyaya gəldiyi ocağın odundan, alovundan isinməklə qazanıb özünə sənət vərdişi.

El sənətkarı kimi özünəməxsus yol-ərkanı olan atası Həsən Xəyallının qanından aldığı həyat meyarı ilə kövrək addımlar atıb. Elə ki., büdrəyib, təntiyib, bax onda yıxılmamaq üçün yenidən söykənib böyüklərin söz kölgəsinə.

Hələ ulu Göyçəsinin əli doğmalarının əlindən üzülmədiyi vaxtlarda qazanmışdı bu şeir-sənət vərdişini Eldar Həsənli.

Nə Məmmədhüseynin tale şikayətlərindən, nə azman nəfəsli, kürəyində düşmən əliynən odlu samavar qalanan Aşıq Nəcəfin kahalardan gələn qaibanə səsindən, nə də haqq vergili Seyid Bayramın müqəddəsliyinə sitayişindən ayrı saymazdı özünü.

Amma “Sən saydığını say, gör fələk nə sayır” – deyib babalarımız.

Atıldım qürbətə körpəliyimdən,
Neçə can-ciyərim qaldı Göyçədə,
Son arzum, istəyim, ilk məhəbbətim,
Bir nazlı nigarım qaldı Göyçədə.

Eldar Həsənlinin yurd-yuva nisgili köksündə yuva saldığı gündən beləcə başladı.

Vətən adı çəkmə, yaram sızlayır,
Yaxınım ordadı, yadım ordadı,
Həsən Xəyallının itgin məzarı,
Abdullam ordadı, Alım ordadı.

O yurdun hər daşı qandırar səni,
Heyrətə gələrsən, dondurar səni,
Toxunma qəlbimə, yandırar səni,
Atəşim ordadı, odum ordadı.

Hələ vaxtilə mərhum şair Hüseyn Arif qədim diyarın sabahından sarı narahat olduğu günlərdə "Göyçəlilər, dağılmayın Göyçədən" – deyə aləmə soraq saldığı gündən neçə-neçə Vətən ünvanlı ürəklər yerindən oynadı. Mahal yerində ikən böyük şairin bu qoşma təbilinə çox qabaqlamalar yazıldı. Hüseyn Arifin "Göyçəlilər, dağılmayın, Göyçədən" öyüd-nəsihətinə yerli-yerdən Hüseyn Arif, "dağılmarıq Göyçədən" – deyə ona ürək-dirək verildi.

Fəqət, bir daha fələk öz saydığını saydı. Özünü arxalı görən qarı düşmənin görünməmiş xəyanətilə arxasız, köməksiz vəziyyətdə heç yerdən imdad gözləməyib əlacsız qalan ulu Göyçənin doğma sakinləri pərən-pərən düşdü.

1988-ci ildə dünyanın qarışıb bir-birinə dəydiyi vaxtlarda nə Göyçənin dərdini dərindən duyan oldu, nə də vəsiyyətə yerində qiymət verən.

Hətta, Göyçənin sonuncu repressiyasından az sonra "Bəs göyçəlilər niyə dağıldılar Göyçədən" – deyə yağı düşməni qınamaq əvəzinə sapı özümüzdən olan baltaları özümüzü qınadığı vaxtlar da oldu.

Lakin zaman yaraları üstə qaysaq bağladıqca, düyünlər bir-bir açıldı. Göyçəlilərin Göyçədən dağılmağının əlacsızlığını anlayanlar az da olsa tapıldı.

Bax, bu minvalnan da, Eldar Həsənlinin Hüseyn Arif harayına cavabı Göyçə həsrətinə qovuşandan sonra yarandı.

Təcavüz baş verdi, qırğın başladı,
Hüseyn Arif, dağılmışıq Göyçədən,
Ələsgərin ruhu qaldı kimsəsiz,

Hüseyn Arif, dağılmışıq Göyçədən.

Yağı düşmən təzələdi dərdimi,
Səngümüşdü, köz elədi dərdimi,
İlmə saldı, çözələdi dərdimi,
Hüseyn Arif, dağılmışıq Göyçədən.

Doğmalarının adı qaçqınlıq ünvanına yazıldığı gündən beləcə döndü onun səmimi etirafları Vətən harayına.

Harda oldusa, hara getdisə, hansı yığıncaqda, məclisdə və tədbirdə oldusa belə başladı onun söhbətinin əzəli.

Dərdim elə çəkilməzdi,
Qohum nədi, yadı dağlar.
Məni atıb qürbət elə,
Doğma bilib yadı dağlar.

Göyçə haqqında çox deyilib, çox yazılıb. Binası sözdən, xanəsi sazdan qurulan bu ulu diyarın doğmaları ilə keçirdiyi bəxtəvər çağlarındakı günlər yad əliynən yadların caynağına düşdüyü vaxtlarda da çox sözlər yaranıb, nəğmələr qoşulub.

Həsrət gileyli deyimlərində ayrıca kövrəklik var bu qərib mahalın.

Bax, bu haraya Eldar Həsənli də qoşulub…

Sənsiz heç vaxt şad olmaram,
İstəyimdən yad olmaram,
Bir ağzında dad olmaram,
Abı-kösər sulu Göyçəm,
    ulu Göyçəm.

Belə məqamlarda o təkcə misralarına Vətən həsrətini, eyni zamanda ulu Göyçənin tarixi ünvanlarını və şəxsiyyətlərini, yurd-yuva adlarını misraların işığında yaddaşlara köçürüb gələcək nəsillərin yadigar tövsiyələrinə qoşmağa can atır...

Bir gözəli itirmişəm nə vaxtdı,

Gəncliyin sirdaşı qalıb o yerdə,

Ağlamışam məzar boyu doyunca,

Gözlərimin yaşı qalıb o yerdə.

Ulu Göyçənin yetirdiyi sənət adamlarının dağlara biganə qalması, ondan yazmaması şair üçün çox böyük qəbahət olardı.

Qədim Göyçəmizin füsunkar qoynunda dünyaya gələn Eldar Həsənlinin də dağlara həsr etdiyi şeirləri var. Dağlardan uzaqda olub dağlar haqqında bu şeiri eşidəndə təbiət gözətçisinin əzəməti yenidən qayıdır gözümüzə-könlümüzə.

Qış gələndə qar basırar yolları,

Boran eylər, çovğun eylər bu dağlar,

Göz işləməz, itər səmti, sorağı,

Yolçuları çaşqın eylər bu dağlar,

Boran eylər, çovğun eylər bu dağlar.

Eldar Həsənli hansı mövzuya müraciət edirsə, ona örəkdən yanaşır, üzdən getməyi xoşlamır. Eyni zamanda həmin mövzuların poetik nümunələrində yeni bir fikir, maraqlı bir misra işlədə bilir.

Ömrünün və yaradıcılığının ən qaynar çağlarında taleyinə qaçqınlıq ünvanı yazılan, canından əziz bildiyi doğma Göyçəsindən ayrı düşən bu sənət adamının Vətən soraqlı şeirlərində də özünə xas olan fərdi cəhətlər var.

Doğma torpaqlarımızın ən gözəl günlərinin düşmən tapdağında qaldığı bir vaxtda biz düşmənimizə biganə qalsaq, gələcək nəsillərin qınaq yeri olarıq. Bu gün Vətən haraylı sənət adamlarımızın sinəsindən kağızlara köçürdüyü dəyərli zərrələrin hər biri sabahımız üçün nəsillərimizin çağırış harayına dönəcəkdir…

**YARIMÇIQ ÖMRÜN YADİGAR QAFİYƏLƏRİ**

“Bir gövdənin üç budağı”nın son xanəsinə yetirkən nədənsə ani olaraq fikrim dumanlandı, ürəyim kövrəkləşdi. Bircə hovur içində xəyalım ellər dolaşdı. Dağlardan aşıb, düzlərdən keçdi, bağçalar dolanıb, bağları gəzdi. Kökü torpağın dərin qatlarına işləyən nəhəng bir ağac gəlib dayandı gözlərimin qabağında. Illərin qoynunda qat-qat olub dəmir kimi bərkiyən, qabığını yarıb göylərə ucalan üç budaq gördüm onun üstündə. Bu budaqlar gövdələşib qol-qanad açarkən, üçüncü budaq hələ puçurlarını açıb ərsəyə yetməmiş öz nazikliyində, kövrəkliyində qalırdı.

Amma inkişaf etməsə də nə özü qurumamışdı, nə də üstündəki bahar müjdəli yarpaqları.

Kim bilir, hələ neçə belə baharda çiçəkləyəcək onun tumurcuqları?!

Və neçə yaz ağzında al-yaşıl donuynan bəzənib gözləri, könülləri oxşayacaq onun yarpaqları?!

Həyatın qəribə qanunları var. Bəzən təbiətlə cəmiyyət arasındakı zahiri uyğarlıq onun fəlsəfi tərəflərinə də sirayət edir…

Mən də, bax beləcə, bu düşüncələrlə “Mənim sazlı-sözlü dünyam”ın 2-ci sayındakı “Bir gövdənin üç budağı” fəslinin sonuncusunu qələmə alarkən ürəyimin kövrəkliyi çulğadı köksümü. İstər-istəməz onun dedikləri düşdü yadıma.

Fürsət yoxdu mələkzadə
Gündə yüz yol görəm səni,
Təravətli çiçək kimi,
Sinəm üstə hörəm səni.

Sən olasan körpə ceyran,
Mən bir ovçu sənə heyran,
Sən bərədən qaçan zaman,
Qovub-qovub yoram səni.

Kaş yetəydim o xoş günə,
Əl çalaydım toy-düyünə,

Aqil İman deyər mənə,

Kim buyurar haram səni?!

İstədiyi mələkzadəni gündə yüz yol görməyə fürsəti yoxmuş onun. Amma arzuları sonsuzmuş, saya gəlməzmiş. Gah dağ çiçəyinə, gah marala, gah da ceyrana bənzətdiyi istəklisini gündə yüz yol görə bilməsə də ömrün tale qismətiynən ayın, günün hansı çağındasa vüsalına yetərmiş.

Fəqət!…

Bax elə yazımın bu məqamında Aqil İmanın əlimdə olan şeirlərini çək-çevir elədim ki, arasından indiki halıma uyğun bir-iki kövrək misra tapıb onun gözünə qatım. Amma tapa bilmədim.

Hansı qoşmasını oxudumsa, orda bir nikbinlik, nəsihətamizlik, məhəbbət aləmində sədaqətlə yanaşı vəfasızlara qeyzini gördüm.

Hansı gəraylısına nəzər saldımsa, orda şuxluq, oynaqlıq, ömrün sabahına ürək dolu ümid, təsəlli gördüm.

Və elə bil qəflət yuxusundan ayılıb öz-özümə dedim:

- Ruhun şad olsun, Aqil İman! Məgər insanın ömrü təkcə onun bu dünyadakı sağlığıynanmı ölçülür?!

Heç də yox!

Adam var ki, yüz il yaşasa da, gedəndən sonra bircə arşın da izi qalmır…

Adam da var ki, hələ gəncliyindən elin mənəviyyat xəzinəsinə bəxş elədiyi yadigar zərrələriynən anılır, xatırlanır.

Elə Aqil İmanın özü kimi, sözü, söhbəti kimi…

Əslisi deyilsən mənim könlümün,
Özünü odlara salmağın yetər,
Mən ki, nə Məcnunam, nə də ki Fərhad,
Mənasız xəyala dalmağın yetər.

Gəl fəqan eyləmə boynunu büküb,
Könlümdə yurd-yuva özgəsi tikib,
Bu qədər işkəncə, min əzab çəkib,

Hicranda, möhnətdə qalmağın yetər.

Aqil İman deyər, qopsa qiyamət,
Yenə də unutmaz bizi məhəbbət,
Bəlkə də sevirsən, ey nazlı afət,
Oduma, gözümə yanmağın yetər.

Aqil İman haqqındakı yazımın bu yerində bir məsələni oxucuların nəzərinə çatdırmaq istərdim.

El sənətimizin qədim köklərindən üzü bəri böyük bir zaman ölçüsünün üç cilddə ilk dəfə işlənən “Mənim sazlı-sözlü dünyam” kitablarına təsadüflə düşən sənətkara rast gəlinə bilməz. Müəllif bu kitablarda klassiklərimizdən tutmuş müasirlərimizə qədər kimin barəsində axtarış aparıb, söhbət açıbsa, onların həyatı, yaradıcılığı ilə bağlı bu və ya başqa bir dəyərin ölçüsünü nəzərə alıb…

Ulu Göyçənin ustad sənətkarı Həsən Xəyallının kökündən boy atan, Sərraf Şiruyədən dərs alan Aqil İman budağından söz açmağımız da bu qəbildəndir…

Taleyin alnına yaxdığı yarımçıq ömrü mənalı keçib onun. 1959-cu ildə Göyçə mahalının Daşkənd kəndində, şair Həsən Xəyallının ailəsində dünyaya gəlib. Gözü görüb ağlı kəsdiyi gündən ata müdrikliyi, ata öyüdü gərəyi olub. Soydan gələn istedadıynan bu eyliyin vəhdəti bəhrəsini verib. Orta məktəbi bitirəndən sonra ali təhsili alıb. Mühəndislik ixtisasına yiyələnib.

Qəlbi daim xeyirxah diləklərə bağlı olan Aqil İmanın həyat yollarında atdığı addımlar da əqidəsinə, amalına münasib olub. Qurub-yaratdığı hər xanənin özülünü qoyduqca ömrün sabahına ümidi artıb, gümanı çoxalıb.

İnsanlara özünün yaxşılıq etməyə çalışdığı kimi özgələrinə də bu xoş keyfiyyətə qulluq etmələrini rəva bilib. Mühəndis əllərinin yaratdıqları adamların estetik zövqünə yaradıqca, şair qəlbinin kağızlara ələdiyi şeir qafiyələri eşidənlərin ruhunu oxşayıb.

Gənclik çağlarından belə qarışıb müdriklərin cərgəsinə, belə sayılıb əhli-ürfan məclisində!

Bacarırsan hörmət eylə,
Xeyir olar, ziyan olmaz.
Yaxşılığın əvəzini
Tanrı yerdə qoyan olmaz.

Uzaq dolan kin-küdrətdən,
İbrət götür nəsihətdən,
Yaxşı sözdən, xoş ülfətdən,
Ölənəcən doyan olmaz.

Qov qəlbindən dumanlığı,
İşıqlandır qaranlığı,
Acılığı, yamanlığı,
Axıratək yeyən olmaz.

Dünyada doğruluğu, düzlüyü öz varlığı qədər uca tutan Aqil İmanın hələ cavanlığında nəsihətamizliyə meyl etməsi də onun soy-kökündən gələn irsi əlamət imiş. Həsən Xəyallının müdrik kəlamlarını əzbərinə döndərə-döndərə, Sərraf Şiruyənin şair kamalına söykənə-söykənə şairlik dünaysının yollarında kövrək addımlarını atdığı gündən bu meyarı özünə ilkin örnək bilib. Amma bir fərd kimi onun özünəməxsus dünyası varmış…

Mətləb içində mətləb anlatmaq, xanədən-xanəyə yeni mənalarla qafiyələrini bəzəmək, hörmətinin də, şöhrətinin də tərənnümünü şeirlərində mərdi-mərdanə söyləmək Aqil İmanın həmişəlik vərdişlərinə dönübmüş.

Hamını, görüb tanıdıqlarını, eşidib bildiklərini, bir sözlə bütün yan-yörəsini sözündə, söhbətində, əhdində, ilqarında, tutduğu bütün işlərdə düz görmək istərmiş o…

Elə ki düşündüklərinin əksini gördü, bax onda qələminə sarılıb bütün şübhələrini qafiyələrinin oynaq, axarı diliynən sinəsindən kağızlara köçürər, onu gözlərə, könüllərə yaymağa çalışarmış.

Və bir daha belə hallarda üzünü ulu babalarımıza tutar, giley-güzarını, nifrət və qəzəbini onların ayıq ruhuna söylərmiş…

Eşit, Sabir babam, Füzuli babam,
Dövrandan, zamandan şübhələnmişəm.
Hardasan, Nəsimi, yetiş köməyə,
Məzhəbdən, imandan şübhələnmişəm.

Ömür rübabımın ədalət simi,
Qadası, ömrümün sökülür himi,
Günahsız kimsəyə günahkar kimi,
Verilən fərmandan şübhələnmişəm.

Bir çox məziyyətləriylə bərabər onun vətənpərvərlik ideyaları da yerindən imiş, sonradan keçmə deyilmiş. Hələ vaxtilə ulu Göyçəsindən sarı nigaranlığı da məhz gəncliyindən beləcə dönübmüş onun gündəlik qayğılarına.

Qəribliyə gedən köçə,
Dağda çiskin, duman ağlar,
Qürbət eldə sızıldayar,
Qəlbim olar kaman, ağlar.

Yad adətdə olar naşı,
Daşdan daşa dəyər başı,
Qurumaz gözünün yaşı,
Lələ çəkər aman, ağlar.

Həsrətindi bu qəm, qubar,
Ürəkdə dərd, saçında qar,
Göyçə deyib neçə ki var,
İman ağlar, yaman ağlar.

Məgər Vətən anlamı bir içim sudan, bir ovuc torpaqdan, bir parça daşdan və nəhayət, bir neçə addımlıq qapı yerindən başlamırmı?

Aqil İmanın da Vətən sevgisi, Vətən məhəbbəti doğma Göyçəsinin obalarından başlayıb böyük Azərbaycan elində tamamlanarmış. Göyçədən, Bərdədən, Xankəndindən, Qarabağdan, Kəlbəcərdən sarı beləcə narahat idi, qərarsız idi İman.

Əgər belə olmasaydı, "Aqil" təxəllüsünün adına gətirdiyi yaraşığı bu qədər təbii alınmazdı onun.

Çox erkən çağında bir ürək yarasından canını Vətənə tapşırdı Aqil İman…Amma birdəfəlik susmadı onun ürək döyüntüləri. Yaxşını yamandan ayırmağı bacaran mənalı misralarının qafiyələrində qaldı bu döyüntülər.

Yaxşını, yamanı duyub dərindən,
Hər insan özündən qansa yaxşıdı.
Bir anlıq həvəsə uymasın gərək,
Saf eşqi, istəyi ansa yaxşıdı.

Min bir töhməti var hər xəyanətin,
Olmaz xilaf işi pak məhəbbətin,
Aşiq öz sevdiyi nazlı afətin,
Eşqinə sultansa, xansa yaxşıdı.

Beləcə cəmi 37 il ömür sürdü Aqil İman. 1959-cu ildə ulu Göyçəsində açılan odlu-alovlu gözləri 1986-cı il avqust ayının 26-da, qədim Qarabağda əbədi yumuldu.

Özü getdi Aqil İmanın, amma sözü, söhbəti, müdrik tövsiyəli, məhəbbət ətirli qafiyələri elinə, obasına solmayan yarpaqlar kimi yadigar qaldı…

# V

# OZAN ARİF DÜNYASI

**“HAQQ YOLUNDA SUSMAZAM MƏN”**

Onun səsində xəfif dağ küləyinin könül oxşayan axarılığı var. Hər dəfə qoşqunun tapşırmasına çatmamışdan bəndləri sazla dediyi kimi, sözlı də dilcavabı izhar etməsi ifa tərzini daha da şirinləşdirir, ona xüsusi bəzək verir. Çalanda da, ürəkdən çalır, oxuyanda da canı-dildən oxuyur. Necə öz kamil qoşqularını damarlarından axan qeyrət qanıynan sinəsinə yazırsa, eləcə də ellərə yayır, məclislərə paylayır.

Bu görkəmli saz-söz ustadı haqqında danışarkən sənətin neçə yönümünə üz tutasan gərək. O həm aşıqdır, həm şairdir, həm də bəstəkardır. Dünyada ən etibarlı könül həmdəmi olan telli sazıynan oxuduğu qoşqular əksərən özünün olduğu tək, oynaq, axıcı və son dərəcə təbii havaları da ona məxsusdur. Zəruri həyat həqiqətlərinin keşməkeşliyindən doğan bu nəğmələri o, sevərəkdən, duyaraqdan yaradır, onu oxuyur, əzizləyir.

Özünü görmədən mahnılarına qulaq asanda, adama elə gəlir ki, onu böyük bir ansambl heyəti müşayiət edir. Əslində isə bütün bu harmonik duyumlar, doğma və istiqanlı səslənmələr bircə özünə, bir də onun sinəsinə sıxdığı telli sazına məxsusdur. Bu oxumalarda türk aşıq məktəbinin ən ölməzlik duyğuları çağladığı kimi, həm də bir müğənnilik nəfəsinin yaşarılığı vardır.

Cahanda hər sənətkara xas olmayan şaxələnmiş bir fitri istedadın rişələndiyi ürək milyon-milyon könüllərin rəğbətinə, istəyinə layiqdir. O da özünü ellərə beləcə sevdirib, sənətin ölməzlik aləmində gəncliyindən özünə ülvi şöhrət qazanıb. Hətta o qədər ki, az qala adı əfsanələşib, indidən, özünə yaxın və uzaq olan diyarlarda nağıllara dönüb. Özü isə sırf həyat aşiqi, real varlığın silinməzlik pozulmazlıq rəmzidir. Bir aşıq kimi, o təkmildir, püxtədir. Oxuduğu havaların ritminə uyğun səs döndərmələrində bir sabitlik var. İstər havacatda, istər də söyləmədə ürəyi boşalmır. Fikrini dinləyiciyə çatdırmaq üçün həm oxu, həm də danıçıq tərzi çeşmələrin suyu qədər safdır, aydındır. Özünün kristallıq şəxsiyyətindən doğan inam onun səsinə, çalğısına da siraət edib. Ən həyəcanlı çağlarında da nikbindir, gələcəyə ümidlidir.

Bir şair kimi öz amallarına daim sadiqdir. Əsasən türk sənətinin dərinliklərinə bağlı olan heca vəzni ilə yazdığı şeirlər axıcıdır, könül oxşayandır. Boğazdan yuxarı deyilmiş bircə kəlməsini tapa bilməzsən. Bəzən elə bilirsən ki, onun qələmi də, mürəkkəbi də öz canınnan-qanınnan düzəlib. Didaktik deyimlərində bir ustad eyliyi hakimdir.

Yaradıcılığında daha çox qoşmaya və gəraylıya meyl edən bu qüdrətli sənət aşiqi bəşəri ideyalar fonundan kənara çıxmır. Xırda hisslərin, bayağı duyğuların nəyinsə xatirinə qafiyələrə düzülüb qoşulması onun xəyalına belə yaddır. Mövzu sarıdan çətinlik çəkməyə ehtiyacı yoxdur. Həyat amalı, Vətən eşqi, milli hissi və qüruru onun sənət böyüklüyünə kifayət edir.

Bax, bu mövzular onun həyatıdı, varlığıdı. Vətən andı ömrünə hakim kəsildiyi gündən qürbətə düşdüyü çağlarda onun başına and içib, sabahına güvənib, onunla dinib-danışıb, onunla nəfəs alıb. Vətəndən uzaqlarda da bircə anı Vətənsiz keçməyib. Qürbətin möhnətinə dözüb, ağırlığına tab gətirib, amma Vətən ayrılarını qoşqularıynan etiraf edib.

Nə qədər anlatsam, tükənib bitməz,
Bu mənim qəlbimdə yatan həsrəti,
Anlatmaya zatən qüvvətim yetməz,
On ildir yaxamdan tutan həsrəti.

Pəncəsi bağrımda, dişi dərimdə,
Söküb aparmaya günün birində,
Qürbətin bu uzun gecələrində,
Məni udum-udum udan həsrəti.

Arif, bu həsrətin yoxdu əlacı,
Ana, baba, qardaş, bir yanda bacı,
Birinin həsrəti, birində acı,
Amma ən acısı Vətən həsrəti.

*“Vətəndəki bayramlar gözəl olur, xas olur, Qürbətdəki bayramlar bayram deyil yas olur”* – deyən bu şair qoşqularını telli sazının həzinliyinə qoşanda da ömrün sabahına ümidsiz deyil. Nə qədər kamil deyilib *“Qürbətdəki bayramlar bayram deyil, yas olur”* və bu həsrət nidalarında ulu nəsillərimizin sonsuz ormanları məhvərindən oynadan bir bayatının vətən istəyi yaşayır.

Aşıq, Vətən yaxşıdı,
Köynək kətan yaxşıdı,
Qürbət cənnətə dönsə,
Yenə Vətən yaxşıdı.

Bir həyat həqiqətini etiraf edəyin ki, nə zamansa Vətən adının quru təriflərlə, həqiqətdən və obyektiv deyimlərdən uzaq, süni bəzəmələrlə vəsf edilməsi, əslində Vətənin özünə gözəllik gətirməyib. Ağa qara, qaraya isə ağ deyən, zamanın küləklərindən gündə min səmtə əsən belə sənətkarlar heç vaxt özləri də əbədi yaşarılıq qazana bilməyiblər.

Nə yaxşı ki, mənim bu söhbətimin həyat işığı belə qondarmalıqdan çox-çox uzaqdır. Ana torpağının bircə qarışının, dağının, daşının, düzünün sonsuz ərazisinin parçasından ötrü də gecə-gündüz narahatdır. O bəzən belə hallarda gördüklərini gizlədə bilmir, qoşqularının gah qəzəbli, gah eyhamlı, gah da yumorlu qafiyələrini ürək ağrısı, dil yanğısıynan izhar edir.

Mən belə bilməzdim bizim bu yurdu,
Bambaşqa bir halı varmış, vəssalam,
Vay anam, vay, gör kimləri doyurdu,
Bol qaymağı, balı varmış, vəssalam.

Başa yetən doğru, dürüst olmadı,
Deyən mənə su gəldi də dolmadı,
Təknəsini doldurmayan qalmadı,
Qurumayan gölü varmış, vəssalam.

Kimi gəldi, sumka ilə götürdü,
Kimi gəldi, çanta ilə götürdü,
Hərə bir-bir alantıyla götürdü,
Qanı para pulu varmış, vəssalam.

Mənim ağlım, mənim fikrim, yetmədi,
Bu məmləkət haldan-hala batmadı,
Gələn yedi, gedən yedi, bitmədi,
Tükənməyən malı varmış, vəssalam.

Ozan Arif, yıxıb bunca milləti,
Yoxmu səncə qurtaracaq milləti,
Var, var, amma bilinməyir qiyməti,
Tək talesiz pulu varmış, vəssalam.

Amma eşitdiyimə istinad edərək onu deyim ki, dünyanın ən qüdrətli natiqi də onun özü qədər öz deyimlərini şirinləşdirə bilməz. O belə əzizləyir öz həyat amalını.Vətən istəyini, torpaq sevgisini…

Əlbəttə, türk dünyasının görkəmli sənətkarı, aşıq-şairi, bəstəkarı və siyasi xadimi Ozan Arif haqqında fikir söyləmək çətin olduğu qədər, onu hərtərəfli təhlil etmək də imkana sığmayacaq haldadır.

Şərqin ən maraqlı və dərindən öyrənilməyə layiq şəxsiyyətlərindən biri kimi indi o milyonların diqqət mərkəzindədir. Sözündə-söhbətində, fikrində, xəyalındadır.

Bu söhbətimizlə bağlı bir məsələnin də mən tərəfdən etirafını oxuculara yetirməyi özümə borc bilirəm. Bütün Şərq aləminə yaxşı məlumdur ki, Ozan Arif həm də görkəmli siyasi xadimdir və onun bütün şüurlu həyatı mübarizələr yolunda keçmiş, və yenə keçməkdədir. O dəliqanlıdır, üsyankar təbiətlidir. Və bu sarıdan özünəməxsus siyasi baxışları vardır. Ölkədə gedən milli hərəkatın fəal üzvlərindən biri kimi 1980-ci ildə Almaniyaya sürgün edilməsi də onunla bağlı olmuşdur. 1991-ci ilin 5 avqustundan Vətənə qayıtmağa icazə verilmişdir. Bununla belə

mənim bu söhbətimdə Ozan Arifin siyasi ideyasının dərinliyinə varmaq yazımın əsas qayəsi sayılmalıdır. Deyildiyi kimi, o, Türk dünyasının qüdrətli sənətkarıdır və bu baxımdan diqqətli tədqiqə layiqdir.

Heç şübhəsiz, bu və ya başqa bir sənətkarın həyat yollarındakı tale qismətləri və dünyaya şəxsi baxışları onun yaradıcılığında da özünü göstərir. Ozan Arif də belədir. O siyasi xadimdir və ona görə tutduğu yolun səmt küləkləri qoşqu yarpaqlarında da əsməkdədir. Deməli, biz bu səpkili oxumalarını və deyimlərini də məhz onun sənətkarlıq nöqteyi-nəzərindən dinləyirik, eyni halda sevirik. Siyasi baxışlarının məzmun mündərəcəsi isə vaxtilə onun öz mühitinə özünəməxsus siyasi baxışları ilə bağlı olmuşdur.

Bununla belə, o, həm də bir şəxsiyyət kimi maraqlıdır. Az qala dünyanın fikrini öz adı ətrafında cəmləşdirməyə qadirdir. Ozan Arif öz Vətəni Türkiyəni canıynan, qanıynan sevir. Özünün ölümünə razıdı, təki Vətənin üstünü bircə pənbə də bulud almasın. Amma, təkcə Türkiyəni yox, həm də bütün Türk dünyasını sevir, onun birliyinə nəğmələr qoşur. Bu sıradan aşıq-şairin anamız Azərbaycana rəğbəti sonsuzdur.

O, elimizi-obamızı Türkiyədən ayrı təsəvvür etmək istəmir. Onun ayrılmaz bir parçası sayır.

Ozan Arif bu fikrə indi düşməmişdir. Hələ vaxtımızın ağır çağlarında yer üzünün tükçülüyünü birliyə çağıran qüdrətli sənət aşiqinin başı bu sarıdan çox ağrılar çəkmişdir. Bununla bahəm, o öz yolundan dönməmiş, mübarizəsinə davam etmişdir. Onun həyat amalındakı bu istiqanlı baxışa bizim biganə qalmağa haqqımız yoxdur. Bu gün doğma Qarabağımızın dərdini, qayğısını özününkü bilən Ozan Arif odlu etiraz səsini qaldırıb aləmə car edir. “Ya Qarabağ, ya ölüm” deyə bütün türk dünyasını bu əməl uğrunda birliyə səsləyir. İstər məclislərdə, istər böyük auditoriyalarda, istər də meydanlarda, mitinqlərdə onun bu çağırışları milyonların qəlbini riqqətə gətirir, onların həyəcan təbilinə dönür. Belə hallarda o, yenə də sazından ayrılmır. Həm danışır, odlu çıxışlar edir, həm ideyasının mündəricəsinə uyğun çalıb oxuyur, həm də mübariz ruhlu şeirlərini dilcavabı söyləməsi ilə xalqa yön tutur. Doğma el-obasını ürəkdən sevib, ona qırılmaz

tellərlə bağlı olduğu kimi, xalq da onu sevir. Özünü, adını əziz tutur. Belə bir fikir az qala tarixlərin səhifələrində yazılar cərgəsində oxunacaqdır ki; - **Ozan Arifi türk xalqı ovcunda gəzdirir.**

Bax, elə o səbəbdən də ana torpağı Türkiyədə sevildiyi kimi ona yaxın və əziz olan doğma Azərbaycanımızda da sevilir, maraqla izlənir.

Ozan Arifin yaradıcılığı çoxşaxəlidir. O hansı janra yön çevirirsə, sənətkarlıq məqsədinə nail olur. Yazdığı hər qoşqunun vəzninə uyğun bəstələdiyi musiqi ona uyuşur, təbii axınla qaynayır, qarışır. Ağır salğalı deyimləri, yadda qalan havaları və şairin saz çalma məharətindəki vəhdət ona xüsusi kamillik şöhrəti qazandırır, sənətini sevdirir.

Onun qoşma, gəraylı və digər janrlarla bahəm nəğmələşən sənət inciləri sırasında öz sözləri və musiqisi ilə ərsəyə gətirdiyi marşları da türk qəhrəmanlıq mühitinin əzəmətinin yenilməzliyini, onun vüqarını özündə yaşadır, ellərə təbliğ edir.

Oğlumuzla, qızımızla,
Alnımızla, yazımızla,
Şəhidimiz, qazımızla,
Gəliyoruz, gəliyoruz.

Haqqın yardım ilgisinə,
Təcrübənin bilgisinə,
Türk və İslam ülgüsünə,
Gəliyoruz, gəliyoruz.

Ozan Arif ömrünün ən qaynar çağlarını yaşayır, həyat sevgisi, Vətən ülviyyəti sinəsinə sığmır, ellərə-obalara, bütün Şərq aləminə yayılır. Özünün orijinal yaradıcılığıynan, şirin nəfəsi və bir də sonsuz vətənpərvərlik qeyrətiynən ümumtürk dünyasının görkəmli sənətkarları sırasında çətin həyat sınaqlarından çıxır. Bax, bu sınaq yollarında onun qazanacağı yeni uğurlar hələ qabaqdadır…

## "YA QARABAĞ, YA ÖLÜM"

(Ozan Arif haqqında ikinci söhbət)

Nə çoxdu türk dünyamızın sənət adamları. Hamısı da bir-birindən ötə, biri o birindən maraqlı.

Amma əli sazlı, dili sözlü nəğməkarlarımız arasında Ozan Arifin ayrı yeri var. Elə bir yer ki, hər kəs orada meydan sulaya bilməz. Sənət dünyamızda Ozan Arifin öz mərtəbəsi var. Elə bir mərtəbə ki, ora hər kəs ayaq açmağı bacarmaz.

Təzəcə addım atdığı gündən özünə çox yaxın bir sirdaş tapıb Ozan Arif. O sazdır! Keşməkeşli həyat yollarında, ömrünün gen və dar günlərində onun ayrılmaz həmdəmi olan telli saz!

Yazdığı, dediyi odlu misraları bəstələdiyi nəğmələri üçün özünün durna boğazlı tavar sazına minnətdar olub həmişə elin bu qədirbilən oğlu.

- Dünyaya sığmayan sayqılarını onnan bölüb Aşıq Arif.

- Bir Vətən istəyini, bir torpaq diləyini daim onunla nəzmə çəkib şair Arif!

Hər ötüşündə bir alov saçan, xeyirxah çağırışlı nəğmələrini onun səsiynən qoşalaşdırıb bəstəkar Arif.

Və hələ ağlı kəsdiyi gündən ana yurdu Türkiyənin hüdudlarına sığmayan çağırışlarıynan siyasət meydanlarına atılanda da sazından ayrılmamışdı Ozan Arif!

Təkcə Türkiyəninmi?

- Yox! - Belə desək, onun fəaliyyətini məhdudlaşdırmış olarıq. Ozan Arifin dərdi təkcə Türkiyənin yox, bütün Türk dünyasının dərdidi. Hələ siyasi aləmə ilk addımlarını atdığı gündən bəri onun amalı dəyişməz olub.

Ana Türkün öncüllüyüynən bütün dünya türklərinin vəhdətinə nail olmaq! Bu gün hamımız üçün gərəkli olan bu siyasi məqsəd qərəzli duyğulardan çox-çox uzaq idi.

Damarlarında əsl türk qanı axan bu qeyrət mücəssiməsi, izdihamlı mitinqlərdəki odlu çıxışlarında da belə deyir, belə oxuyur, belə düzür qafiyələrə öz məramını. O nə şəxsi duyğularına qapılır, nə də millətçilik hisslərinə. Sadəcə olaraq bir türk oğlu kimi xalqının sabahkı dərdini öz dərdi bilir, onun qeydinə qalır.

Hələ neçə illər bundan əvvəl dünyamızın bu günkü gününü görən Ozan Arif siyasət meydanındakı xeyirxah məqsədlərinin əvəzinə doğma yurdu Türkiyədən Qərbi Almaniyaya sürgün edildiyi vaxtlarda da haqq yolunda susmaz oldu. Bir tərəfdən qürbətin sıxıntıları, bir yandan da vətən həsrəti onun kövrək qafiyələrində telli sazın səsinə qarışdığı çağlar vardı.

Bir məsələni əziz oxucularımızın nəzərinə çatdırım ki, onun barəsində mənim axtarışlarımı eşidib biləndən sonra səsi Şərqin hüdudlarından aşıb, Avropanı bürüyən bu qüdrətli sənətkar Türk aşıq, şair, bəstəkar və siyasi xadimiynən qiyabi sifarişlərimiz başlayıb. Və nə yaxşı ki aradan illər keçəndən sonra onunla şəxsən görüşə bildim…

Bizim ellər bundan belə də Ozan Arifi yaxşı tanımalıdı. O Ozan Arifi ki, hələ imperiya dövründə milli istiqlalımız uğrunda mərhələləri qabaqcadan görür, mübarizələrdən çəkinmirdi.

O Ozan Arifi ki, tək bircə çağırışıynan milyonların səfərbərliyinə nail olub. Çiynində sazı, dilində odlu-alovlu şeirləri, çıxışlarında türk dünyamızın möhtəşəmlik duyğuları neçə-neçə meydanları heyrətə gətirib. Bu yolda nə yorulub, nə çəkilib. Nə deyibsə, düz deyib, nə yazıb-nə oxuyubsa qanından, canından süzülüb gəlib.

O Ozan Arif ki, onun doğulduğu Türkiyə torpağından başlayan el məhəbbəti bəşəri məhəbbətin şərqisinə dönüb.

Gələcək nəsil bizdən,
Dərs alsın sevgimizdən,
Yürüsün eyni izdən,
G
əl məhəbbət edəlim.
Madam gəldik dünyaya,
Sevəlim doya-doya,
Nə ruzim var qovğaya,
Gəl məhəbbət edəlim.

Ömür yaydan çıxmış ox,
Çox qısadır, Arif, çox,
Bu gün varıq, yarın yox,
Gəl məhəbbət edəlim.

Çılğın təbiətli, comərd ürəkli Ozan Arif Almaniyada sürgündə olduğu on ildən artıq bir müddət ərzində də tutduğu haqq yolundan dönmədi. Orada yaşayan türklər, o cümlədən də azəri türkləri birlik və qardaşlıq nə olduğunu məhz Arif bəyin səfərbərlik çağırışlarından öyrəndilər. Onun sayəsində toplantılar, cəmiyyətlər yarandı. Diyardan-diyara, qardaşdan-qardaşa əl uzatmaq dərsini aldılar.

İllər keçdikcə Ozan Arifin siyasi baxışları öz yerini aldı. Türk xalqının böyük oğluna arzularının müəyyən qismi nəsib oldu. Onun doğma Vətənə hər qayıdışı ucu-bucağı görünməyən izdihamlara döndü. Xalq onun yazdığı milli marşların sədalarıynan birgə addımladı. Mübariz ruhlu şeirləri, şərqiləri və çıxışları qiymətli lentlərdən qərargahlara yayıldı. Zaman-zaman əfsanələşdi, nağıllaşdı, dastanlaşdı Ozan Arif.

Ən uzaq diyarda belə bircə qərib türk övladının qayğısı çəkilməyəndə narahat ürək döyüntüsü ellər dolaşdı. Əli yetib, ünü çatmayanda romantik arzuları xəyalən belə baş çəkdi bizlərə.

Və həmişə olduğu kimi yenə də canından əziz bildiyi doğma Türkiyəsindən heç zaman ayırmadığı Azərbaycanımızdan başladı onun bu xəyal gəzintiləri.

Dünyanın bu axar-baxarlı illərində Türk dünyasının qayğı yükünü qəlbində daşıyan Ozan Arifin Qarabağ dərdi də özgələrdən seçildi. Hələ hadisələrin əzəl günündən istər Almaniyada, istərsə də Türkiyədəki alovlu nitqlərində doğma Qarabağımıza xitabən söylədiyi şeirlər və alovlu nitqlərlə əsl həqiqəti bütün dünyaya çatdırmaq istədi. Bu mənada son məqsədinə nail oldu. Bütün həyatını siyasi çarpışmalarda keçirən bu qeyrətli türk oğlu Qarabağ məsələsində də tam obyektiv nəticələrə gəldi. Doğma diyarımızın dərdini öz dərdi bilən Ozan Arif bir daha təbiətinə xas olan nikbinliklə nəinki türk xalqlarını, həm də bütün dünyanı bu amansızlığın, bəşər tarixində görünməyən xəyanətlərin qarşısını almağa, hələ

çoxdan pünhan-pünhan öz işini görən, lakin indi peyda olan erməni faşizminin zəhərli əllərini kəsməyə çağırdı və bu gün də çağırmaqdadır.

Qarabağ əhvalatları başladığı gündən çox əsərlər yaranıb. Amma Ozan Arifin “Ya Qarabağ, ya ölüm” adlı silsilə şeirinin nə tayı var, nə bərabəri. 17 bənddən ibarət olan bu şeir sözün əsl mənasında, sanballı bir əsərdir, bütövlükdə Qarabağın haqq-ədalət səlnaməsidir.

Mənim könlüm ağlayır,
Ağlayanla birlikdə,
Qarabağda qaralar,
Bağlayanla birlikdə.

Şair bu dörd misralıq birinci giriş bəndindən sonra on misralıq əsas bəndlərə keçir. Türk şeir dünyasında tam yeni formada deyilən bu şeiri həyəcansız oxumaq, dinləmək mümkün deyil. Nələr yoxdur bu şeirdə?!

Qarı düşmənin qanlı əllərinin göz önündəki cinayətlərimi?!

Ta illərdən bəri erməni vəhşiliyinin törətdiyi görünməmiş xəyanətlərimi?!

Yoxsa torpaq təəssübü, vətən çağrışı, vətəndaşlıq qeyrətimi?!

Mən zatən erməniyi,
Ellərindən tanırım,
Min doqquz yüz on səkkiz,
İllərindən tanırım.

- deyən alovlu şairin hər bir sözü nəğməyə, hər kəlməsi bir gülləyə dönür! Burada həm düşmənin iç üzü açılır, həm də doğma Qarabağımız uğrunda milli səfərbərliyin çağırışı səslənir. Vətən onun qeyrəti, torpaq onun səcdəgahıdır. Ona vurulan ləkəni isə yalnız qanla yumaq olar. Qoy kimin haqlı, kimin haqsız olduğunu isə dünyanın ədalət divanı söyləsin. Ozan Arif bunları təkcə demir, həm də mərhələ-mərhələ xırdalayır, özünün odlu nitqiynən özü boyda bir oda, alova dönür.

Dünya duysun bu səsi,
Bu səs Şərqin səsidi,
Peyğəmbərin öyüdü,

Nəcib irqin səsidi.

Bu səs Azərbaycanın,
Bu səs Türkün səsidi,
Erməni taak etdi,
Canımıza tak artıq,
“Ya Qarabağ, ya ölüm”
Başqa yolu yox artıq.

Ozan Arif haqqında danışarkən, istər-istəməz öz-özünə düşünürsən. Qoy Vətənimizin, doğma torpaqlarımızın bu çətin günündə, istər yaxında, istər uzaqlarda yaxasını geri çəkənlərimiz varsa, onlar Ozan Arifin odlu çağırışlarını eşitsinlər, qeyrətə gəlsinlər.

O ki, qaldı bu söhbətimin sonunda Ozan Arifə deyəcəyimdən: – Sağ ol, var ol, Ozan Arif, qoy sənin haqq səsin dünyanın daha böyük izdihamlarından gəlsin. Bu yolda sənə uğurlar diləyirəm!..

**OZAN ARİF**

**“YA QARABAĞ, YA ÖLÜM”**

Mənim könlüm ağlayır,
Ağlayanla birlikdə,
Qarabağda qaralar,
Bağlayanla birlikdə.

Dünya duysun bu səsi,
Bu səs Şərqin səsidi,
Peyğəmbərin öyüdü,
Nəcib İrqin səsidi,
Bu səs Azərbaycanın,

Bu səs Türkün səsidi,
Erməni taak etdi,
Canımıza tak artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq.

Qarabağda qan var, qan,
Ağlayır Azərbaycan,
Qarabağda qaralar,
Bağlayır Azərbaycan,
Qanlar qanı əritdi,
Çağladı Azərbaycan,
Dəhşətdi, dəhşət, dünya!
Dön başını bax artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq.

Bax erməni Piçinə,
“Mənim” deyib girmiş də…
Öz yurdumun içinə,
Ya bu işə bir dur, de!
Ya qaradan çıx artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

İşdə dünya otlasın,
Qarabağ türk bitmişdir,
Məclislər qərarında,
Erməni Vətənimi,
Rəsmən qaspa gitmişdir,

Kainatın önündə,
Mənim altım ak artır,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Azərbaycan bir gözdür,
Qarabağ da bəbəyi,
Yəni Azərbaycanın
Tam ortası, göbəyi,
Gözüməmi göz dikdi,
Bu erməni köpəyi,
Qapımızdan çək artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Mən zatən erməniyi,
Ellərindən tanıram,
1918
İllərindən tanıram,
Qanıma batırdığı
əllərindən tanıram,
Şarp oldu, o əlləri,
Kökündən qırmaq artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Filançu Qarabağa
Öncə Özər dönəcək
Pərləməmlə oynama,
Qəhbələrmi dönəcək?!

Eşidəndə erməni,
Qarabağa qonacaq,
Ondan sonra erməni,
Kök salacaq, sək artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Dünyanı qandırıyor,
Erməni lobbiləri,
Amerika, Moskva,
ən böyük abixləri
Fransa kimiləri
Ankarada bu qədər,
Olbilməz çox artıq axmaq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Qarabağda qapqara,
Bir dastan yazılırkən,
Solunmaz insanlara,
Kurşuna dizilərkən,
Bəbəklərin başları,
Kəsilib əzilərkən,
Kimsə mənə dəyəmməz,
Dişlərini sıx artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Gənc, ixtiyar, qadın, qız,
Demədən qıyılmaqda,

Qolları kəsilməkdə,
Gözləri oyulmaqda,
Dalğa-dalğa səmaya,
Fəryadlar yayılmaqda,
Bir şəhidin məzarı,
Bir xanədən çox artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Televiziya veriyor,
Verincə baxılıyor,
O mübarək məscidlər,
Camilər yıxılıyor,
Sıxmada boğazıma,
Loxmalar tıxılıyor,
Qardaşlarım ölürkən,
Mənə həyat yük artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Nərdəsən, əhli-İslam,
Ey Məhəmməd hümməti,
Səndəmi görməyirsən,
Bu zülmü, bu vəhşəti,
İşdə gün vəhdət günü,
Gerçəkləşir vəhdəti,
Allahu-əkbər deyib,
Tək yumruq ol, tək artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Musurman, türk, hər zaman,
Vəhutin istəklisi,
Amma indi məzlum türk,
Çoz olur köstəklisi,
Maləsəf İran belə
Erməni dəstəkləmiş.
Islamı istismara,
Mənim qarnım tox artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Türkün dostu Allahdır,
İslama inanmışdır,
İslam da hunbül Vətən,
Minəl iman vermişdir,
Yəni Vətən eşqini
İmanla bir anmışdır,
Demədi, demə dünya,
Mənə cihad pak artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Qonuş, dünya, qonuş da,
Səsin duyulsun sənin,
Bir atəşnən tutdurdun,
Nərədə atəşgahın,
Bundan sonra o atəş,
İstərsə kəsilməsin,
Atəşkəsi münasib,
Yerlərinə sox artıq,

Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

Erməni vampir, zəli,
Qanımızı içəcək,
Sonra bir atəşkəslə,
Qapımızı kəsəcək,
Bu ruzgarı əkənlər,
Fırtınanı biçəcək,
Ozan Arif deyir ki,
Yaydan çıxdı ox artıq,
Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq!

**Mündəricat**

Ön söz.....................................................................................................6

**I**

***SƏNƏTİN SEHRİ***

1. Miskin Abdal………………………………………………………......16
2. İki ustad, iki aşiq…………………………………………………........26
3. "Qurbani özünə bəydi"…………………………………………….......35
4. "Döz bağrı daş olan könlüm……………………………………….......43
5. Yəhya bəy Dilqəm…………………………………………….............49

**II**

***YALAN GƏLMƏZ AŞIQLARIN DİLİNƏ……53***
1. Onda bahar idi………………………………………………….........54
2. Ulu Göyçənin son dastanı……………………………………….... ......65
3. Aşıq Hüseyn Bozalqanlı…………………….…………………….........73
4. Dəmirçi Aşıq Hüseyn……………………………………….............79
5. Zal Cabbarlı………………………………………………………….........92

**III**

***AQİL MƏCLİSİNDƏ, NATİQ YANINDA…104***
1. Zəki İslam.....................................................................................99
2. Çopur Ələsgər………………….. …………………………….........111
3. Məhərrəm Hüseynli…………………………………….………….....115
4. Mehdixan Kəlbəcərli………………………………………….........120

**IV**

***BİR GÖVDƏNİN ÜÇ BUDAĞI…133***

1. Həsən Xəyallı…………………. …………………………………..........134

2. Sərraf Şiruyə ……………………. ……………………………...........144

3. Eldar Həsənli.…………………………… ………………………........155

4. Yarımçıq ömrün yadigar qafiyələri…………………………. ……….160

**V**

***OZAN ARİF DÜNYASI….166***

1. "Haqq yolunda susmazam mən"…………………. ……………….........167

2. "Ya Qarabağ, ya ölüm"(mətnli)…………………………….……........173

3. Ozan Arif: "Ya Qarabağ, ya ölüm (şeir)...…………………….……......177